RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 247 (9992) 21 noyabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## 33 illik şərəfli yol

### Cənubi Qafqazın ən böyük siyasi təşkilatı olan YAP zəfər partiyasına çevrilib

Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu Yeni Azərbaycan Partiyası 33 ildir ki, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edir, xalqın sevgisini və dəstəyini qazanır, ölkədə sabitliyin təminatında avanqard rolunu davam etdirir. Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə sübuta yetirib ki, o məhz yeni, müstəqil Azərbaycanı qurmağa, onu zirvələrə, parlaq gələcəyə daşımağa qadir partiyadır.

Yeni Azərbaycan Partiyası Azərbaycanın tarixinin ən mürəkkəb və keşməkeşli dövründə yaranıb. 1990-cı ilin əvvəllərində bir-birini əvəz edən siyasi şəristəsi olmayan hakimiyyətlər tərəfindən Azərbaycanın dövlətçiliyinin, müstəqilliyi və suverenliyinin fəlakətə sürükləndiyi situasiyada xalqımız əmin idi ki, ölkəni bu ağır bəlalardan yalnız Ulu Öndər Heydər Əliyev dühası xilas edə bilər.

Xalqın gündən-günə Ümummilli Lider Heydər Əliyev şəxsiyyətinə olan inamı daha da artaraq ümumxalq məhəbbətinə çevrilmişdi. Belə bir vaxtda bir qrup Azərbaycan ziyalısı Naxçıvana gedərək ölkəmizi bu bəladan qurtara biləcək yeni bir partiya yaratmaq arzusu ilə Heydər Əliyevə müraciət etdi və Ulu Öndər yeni yaradılacaq partiyaya rəhbərlik etməyə razılıq verdi.

Beləliklə, 1992-ci il noyabrın 21-də 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştirakı, Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə təsis konfransının yalnız Naxçıvanda keçirilməsi mümkün oldu. Bu, müstəqil Azərbaycan tarixində yeni bir səhifənin başlanğıcı idi. Beləliklə, 1992-ci ilin noyabrından etibarən Yeni Azərbaycan Partiyası (YAP) Azərbaycan tarixinin əsas hərəkətverici qüvvəsinə çevrildi.

Ümummilli Liderin müxalifət partiyası olaraq yaratdığı YAP hakimiyyətə sivil yolla gəlməyin əsl "yol xəritəsi"ni ortaya qoydu. Bununla da siyasi mədəniyyət və siyasi əxlaq nümunəsi yaratdı. Bu nümunə özündə sağlam, obyektiv, şəffaf və demokratik mübarizə mədəniyyətini ehtiva edir və qələbə təminatına görə unikaldır.

YAP-ın yaranmasından sonrakı illərdə partiya Azərbaycan Respublikasının ən güclü siyasi qüvvələrindən biri halına gəldi. 1993-cü ildən etibarən Heydər Əliyevin siyasi kursu Azərbaycanın xarici və daxili siyasətini əsaslı şəkildə dəyişdirdi. Ulu Öndərin prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatında mühüm islahatlar həyata keçirildi və Azərbaycan Qərblə Şərq arasında balanslı xarici siyasət kursu reallaşdırmağa başladı.

Bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP yeni inkişaf mərhələsini yaşayır.

Yeni Azərbaycan Partiyası Ulu Öndərin rəhbərliyi altında yarandığı gündən ölkəmizin inkişafı naminə çox mühüm layihələr reallaşdırıb, Heydər Əliyev ideyalarına sadiqlik nümayiş etdirib. Yeni Azərbaycan Partiyası və onun numayəndələri bütün seçki kampaniyalarında iştirak etmiş və böyük üstünlüklə qələbə qazanaraq bütün siyasi partiyaları arxada qoymuşdur.

8

## Prezident İlham Əliyev Ağdamın işğaldan azad olunmasının ildönümü ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdamın işğaldan azad olunmasının 5-ci ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda "Zəfər Tariximiz: 20 Noyabr 2020-ci il Ağdam" sözləri yer alıb.

## 2026-cı ilin dövlət büdcəsi layihəsi birinci oxunuşda qəbul edilib




Hazırkı mürəkkəb beynəlxalq mühitdə Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşmış milli inkişaf modeli ölkəmizin təhlükəsizliyini və sosial-iqtisadi inkişafını təmin edən əsas dayağa çevrilib. Azərbaycanın nəqliyyat-logistika sahəsində artan rolu regional əməkdaşlıq üçün yeni imkanlar yaradıb. Dövlətimizin enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş kimi mövqeyi daha da möhkəmlənib. Ölkəmizin investisiya axınlarını strateji istiqamətlərə yönəldən, innovasiya və modernləşməni stimullaşdıran, iqtisadiyyatın yeni inkişaf fəlsəfəsini yaradan güclü dövlətə çevrildiyi söylənilib.

3

## Qalib xalqın əbədi qüruru



Azərbaycanın Qarabağ bölgəsində xislətində işğalçılıq, təcavüzkarlıq olan ermənilərin azərbaycanlılara qarşı təxribatlar törətmələrinə, günahsız insanlara hücum etmələrinə də SSRİ rəhbərliyi respublikamızdan yüksələn azadlıq sədalarını susdurmaq üçün fürsət verdi. Erməni quldurlarına silah-sursat və digər yardım göstərildi. Sovet hökumətinin məqsədli siyasəti nəticəsində azərbaycanlılar qəsbkarların, təcavüzkarların qarşısında əliyalın qaldı.

Yaranmış vəziyyət erməniləri daha da azğınlaşdırdı. Münaqişə alovu nəinki bütün Qarabağı, həm də Şərqi Zəngəzuru bürüdü. O illərdə baş verən Birinci Qarabağ müharibəsində də Azərbaycanın mərd, qeyrətli övladları düşmənə qarşı rəşadətlə vuruşdular. Ancaq milli ordusu formalaşmamış, sovet hökuməti dağıldıqdan sonra bütün sahələrdə tənəzzüllə üzləşmiş Azərbaycan çətin duruma düşdü, himayədarlarının nəhəng kölgəsinə sığınaraq hücuma keçən, ən dəhşətli cinayətlərə əl atmaqdan çəkinməyən, amansızlıqla qətliamlar, qırğınlar, soyqırımları törədən erməni vandallarının qarşısını ala bilmədi. Nəticə isə ölkəmiz və xalqımız üçün çox ağır oldu. Minlərlə yurddaşımız şəhid oldu. Bir milyon soydaşımız yurdundan, elindən, isti ocağından qovularaq məcburi köçkün həyatı yaşadı. Torpaqlarımızın iyirmi faizi erməni qəsbkarları tərəfindən işğal edildi.

11

## Bərpa və inkişaf strategiyası

Böyük qayıdışın təmin olunması üçün ilk olaraq zəruri konseptual və institusional işlər həyata keçirilib, koordinasiya mexanizmləri formalaşdırılıb, "Böyük qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilib. Bu prosesi sistemli və mərkəzləşdirilmiş şəkildə idarə etmək məqsədilə Prezident İlham Əliyevin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə Əlaqələndirmə Qərargahı yaradılıb. Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev qərargahın rəhbəri təyin edilib.

Son beş il ərzində Qərargah azad edilmiş ərazilərdə işlərin koordinasiyası, dövlət qurumları arasında fəaliyyətin uzlaşdırılması və kompleks yanaşmanın təmin olunması baxımından mühüm institusional mexanizmə çevrilib. Bu mexanizmin formalaşdırılması və vahid idarəetmə modelinin tətbiqi bilavasitə Prezident İlham Əliyevin siyasi iradəsinin və şəxsən nəzarətinin nəticəsidir.



Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəz katiblik və kommunikasiya funksiyalarını icra edir. İdarələrarası Mərkəz çərçivəsində minalardan və partlamamış hərbi sursatlardan təmizləmə, şəhərsalma, nəqliyyat, rabitə və yüksək texnologiyalar, iqtisadi məsələlər, enerji təminatı, ekoloji, elm, təhsil və mədəniyyət məsələləri, habelə işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışı və kommunikasiya üzrə ümumilikdə 12 işçi qrup fəaliyyət göstərir.

4-5

# Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996-2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il yanvarın1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 fevral tarixli 504 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuş doqquzmərtəbəli binaların şəhərlər üzrə bölgüsünə dair siyahı"da dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 fevral tarixli 504 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 179) ilə təsdiq edilmiş "Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuş doqquzmərtəbəli binaların şəhərlər üzrə bölgüsünə dair siyahı"nın" Quraşdırılacaq liftlərin sayı" sütununda "200" rəqəmləri "207" rəqəmləri ilə və "141" rəqəmləri "148" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2025-ci il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli 17 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 338** **Bakı şəhəri, 19 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli 17 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 48 (Cild I) ilə təsdiq edilmiş "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissədə "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumlarına" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası" ilə müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin və həmin hissəyə "sanatoriya-kurort yollayışları" sözlərindən sonra "(bundan sonra - yollayış)" sözləri əlavə edilsin.

2. 7-ci hissə aşağıdakı redaksiyada verilsin:

"7. Yollayışların uçotunun aparılması, onlara dair hesabatların təqdim edilməsi, habelə mühasibat uçotu sənədlərinin saxlanılması qanunvericiliklə müəyyən edilmiş qaydada təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 340** **Bakı şəhəri, 19 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1530 (Cild I); 2024, № 13, maddə 314, № 5 (II kitab), maddələr 611, 617) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.2-ci bəndə "İşləməyən əlilliyi olan şəxslər dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait hesabına" sözlərindən sonra "Xidmətlər Agentliyinin yerli qurumları və ya Təminat Agentliyinin "DOST" mərkəzləri tərəfindən" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

"4.2-1. Təqsirkar işəgötürən yenidən təşkil edildiyi halda əlilliyi olan şəxslər onun hüquqi varisi tərəfindən sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar.".

3. 4.3-cü bənddə "pensiya almaq hüququ olan" sözləri "əlillik səbəbindən asılı olmayaraq əlilliyə görə əmək pensiyası almaq hüququ olan ehtiyata və ya istefaya buraxılmış" sözləri ilə əvəz edilsin.

4. 4.6-cı bəndə "ərzində" sözündən sonra "bu barədə" sözləri əlavə edilsin.

5. Aşağıdakı məzmunda 4.6-1 - 4.6-3-cü bəndlər əlavə edilsin:

"4.6-1. Növbə çatdıqda Xidmətlər Agentliyinin yerli qurumu və ya Təminat Agentliyinin müvafiq "DOST" mərkəzi tərəfindən sanatoriya-kurort müəssisəsi və sanatoriya-kurort putyovkasının (yollayışının) vaxtı barədə əlilliyi olan şəxsin, əlilliyi olan uşaqlara münasibətdə onların qanuni nümayəndələrinin əlaqə vasitələrindən birinə sanatoriya-kurort müəssisəsinə getmə vaxtından ən azı 7 (yeddi) iş günü əvvəl məlumat göndərilir və həmin şəxslər ən azı 3 (üç) iş günü əvvəl sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar. Əlilliyi olan şəxs (qanuni nümayəndə) məlumatı aldıqdan sonra 3 (üç) iş günü ərzində sanatoriya-kurort müəssisəsinə gedib-getməyəcəyi barədə yazılı, şifahi və ya elektron formada Xidmətlər Agentliyinin yerli qurumunu və ya Təminat Agentliyinin müvafiq "DOST" mərkəzini məlumatlandırmalıdır.

4.6-2. Əlilliyi olan şəxs (qanuni nümayəndə) sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunması təsdiq edildikdən sonra il ərzində iki dəfədən çox olmayaraq sanatoriya-kurort müəssisəsinə getməyəcəyi barədə Xidmətlər Agentliyinin yerli qurumunu və ya Təminat Agentliyinin müvafiq "DOST" mərkəzini bu Qaydanın 4.6-1-ci bəndində nəzərdə tutulan müddətdə məlumatlandırmadıqda və (və ya) təklif olunan sanatoriya-kurort putyovkasından (yollayışından) imtina etdikdə növbədən çıxarılır və əlilliyi olan şəxsin (qanuni nümayəndənin) əlaqə vasitələrindən birinə bu barədə məlumat göndərilir.

4.6-3. Bu Qaydanın 4.6-2-ci bəndinə əsasən növbədən çıxarılmış əlilliyi olan şəxs (qanuni nümayəndə) növbədən çıxarıldığı gündən 5 (beş) iş günü sonra yenidən növbəyə götürülmək üçün Xidmətlər Agentliyinin yerli qurumuna və ya Təminat Agentliyinin "DOST" mərkəzinə müraciət edə bilər.".

6. 4.7-ci və 4.11-ci bəndlər ləğv edilsin.

7. 4.8-ci bənd yeni redaksiyada verilsin və aşağıdakı məzmunda 4.8-1-ci bənd əlavə edilsin:

"4.8. Orqanizmin funksiyasının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsin, həmçinin əlilliyi olan uşağın müşayiətçiyə ehtiyacı olduqda, Fərdi Reabilitasiya Proqramının tibbi reabilitasiya bölməsində bu barədə qeyd aparılır. Orqanizmin funksiyasının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsi və ya əlilliyi olan uşağı müşayiət edən şəxslər sanatoriya-kurort putyovkası (yollayışı) ilə həmin şəxslərin sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduqları qurum tərəfindən təmin olunurlar.

4.8-1. Əlilliyi olan uşağın müşayiətçisi qismində uşağın valideynləri, digər qanuni nümayəndələri (qəyyumları, övladlığa götürənləri, himayəçiləri) və ya valideynin icazəsi ilə etibarnamə verilmiş digər şəxslər də müəyyən oluna bilərlər. Əlilliyi olan uşağın valideyninin (digər qanuni nümayəndəsinin) və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsin Xidmətlər Agentliyinin yerli qurumları və ya Təminat Agentliyinin "DOST" mərkəzlərinə yazılı və ya elektron müraciəti əsasında müşayiətçinin sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduğu müddət ərzində bir dəfədən çox olmayaraq dəyişdirilməsinə yol verilir.".

8. 4.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"4.10. Sanatoriya-kurort müəssisələri əlilliyi olan şəxsin sanatoriya-kurort müəssisəsinə qəbul olunduğu və həmin müəssisədən buraxıldığı tarix, habelə aparılmış müalicələrin nəticələri barədə məlumatları və "Geri qayıtma" talonunu müalicə başa çatdıqdan sonra 30 (otuz) gün müddətində aidiyyəti quruma təqdim edir. Xidmətlər Agentliyinin yerli qurumu və ya Təminat Agentliyinin "DOST" mərkəzi daxil olmuş məlumatları 3 (üç) iş günü müddətində MEİS-in "Sanatoriya-kurort" altsisteminə daxil edir və həmin məlumatlar avtomatik olaraq Fərdi Reabilitasiya Proqramının yerinə yetirilməsi barədə hesabatda əks olunur və onun putyovkanın (yollayışın) istifadəsini təsdiq edən sənəd kimi saxlanılması təmin olunur. İşləyən əlilliyi olan şəxslərə münasibətdə isə "Geri qayıtma" talonunun qeydiyyatının aparılması və onun saxlanılması məsələləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 141-ci bəndinə uyğun təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# ”İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydalarının və Hərbi qulluqçuların və onların ailə üzvlərinin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ailələrindən başqa) sanatoriyalarda və istirahət evlərində sanatoriya-kurort müalicəsi, pansionatlarda və turist bazalarında istirahət üçün putyovkalarla (yollayışlarla) təmin olunması Qaydasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 341** **Bakı şəhəri, 19 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydalarının və Hərbi qulluqçuların və onların ailə üzvlərinin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ailələrindən başqa) sanatoriyalarda və istirahət evlərində sanatoriya-kurort müalicəsi, pansionatlarda və turist bazalarında istirahət üçün putyovkalarla (yollayışlarla) təmin olunması Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 539 (Cild I); 2024, № 9, maddə 1101) aşağıdakı dəyişikliklər edilsin:

1. Adından və 1-ci hissədən "və ya 18 yaşınadək yeniyetmələrin" sözləri çıxarılsın.

2. Həmin Qərarla təsdiq edilmiş "İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydaları" üzrə:

2.1. adından "və ya 18 yaşınadək yeniyetmələrin" sözləri çıxarılsın;

2.2. 1-ci hissədən "və ya 18 yaşınadək yeniyetmələrin" sözləri çıxarılsın və həmin hissəyə "vətəndaşların" sözündən sonra "(bundan sonra - şəxslərin)" sözləri əlavə edilsin;

2.3. 3-cü hissə üzrə:

2.3.1. 3-cü hissə yeni redaksiyada verilsin və aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3. Bu Qaydalarda göstərilmiş şəxslər ildə bir dəfədən çox olmamaqla sanatoriya-kurort putyovkaları (yollayışları) ilə (işləyənlər - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 135-ci bəndinə uyğun olaraq Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən işəgötürənlərə təqdim olunan putyovkalarla (yollayışlarla) iş yerindən, işləməyənlər - Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində Sosial Xidmətlər Agentliyinin (bundan sonra - Agentlik) yerli qurumları və "DOST" mərkəzləri tərəfindən) növbəlilik əsasında təmin olunurlar (tibb müəssisələrinin göndərişi ilə ölkə hüdudları daxilində, gediş-gəliş xərcləri daxil olmaqla).

3-1. Sanatoriya-kurort putyovkası (yollayışı) almaq üçün növbəyə götürülmüş 18 yaşınadək uşaqlar müşayiətçi ilə birlikdə sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar. Müşayiətçi sanatoriya-kurort putyovkası (yollayışı) ilə uşağın sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduğu aidiyyəti üzrə bu Qaydaların 3-cü hissəsində göstərilən qurum tərəfindən təmin olunur. Bu halda müşayiətçi qismində uşağın valideynləri, digər qanuni nümayəndələri (qəyyumları, övladlığa götürənləri, himayəçiləri) və valideynin icazəsi ilə etibarnamə verilmiş digər şəxslər müəyyən oluna bilərlər. Uşağın valideyninin, digər qanuni nümayəndələrinin və valideynin icazəsi ilə etibarnamə verilmiş digər şəxslərin Agentliyin yerli qurumlarına və "DOST" mərkəzlərinə yazılı və ya elektron müraciəti əsasında müşayiətçinin sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduğu müddət ərzində bir dəfədən çox olmayaraq dəyişdirilməsinə yol verilir.";

2.4. 5-7-ci hissələr ləğv edilsin;

2.5. 9-cu hissə üzrə:

2.5.1. 9-cu hissə yeni redaksiyada verilsin və aşağıdakı məzmunda 9-1 - 9-3-cü hissələr əlavə edilsin:

"9. Sanatoriya-kurort putyovkası (yollayışı) almaq hüququ olan şəxslər ərizələrini və sanatoriya-kurort kartasını bu Qaydaların 3-cü hissəsinə uyğun olaraq aidiyyəti üzrə sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunduqları quruma təqdim edirlər. Ərizə və sanatoriya-kurort kartası təqdim edildikdən sonra sanatoriya-kurort putyovkası (yollayışı) almaq hüququ olan və işləməyən şəxs 1 (bir) iş günü müddətində Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra - MEİS) "Sanatoriya-kurort" altsistemində növbəyə götürülür və bu barədə şəxsin, uşaqlara münasibətdə isə müşayiətçinin əlaqə vasitələrindən birinə 2 (iki) iş günü müddətində qısa məlumat göndərilir, eləcə də şəxsin Nazirliyin "e-sosial" internet portalındakı şəxsi kabinetində ətraflı məlumat əks olunur. İşləyən şəxslərə münasibətdə isə sanatoriya-kurort putyovkası (yollayışı) almağa dair məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 141-ci bəndinə uyğun təmin edilir.

9-1. Növbə çatdıqda sanatoriya-kurort müəssisəsi və sanatoriya-kurort putyovkasının (yollayışının) vaxtı barədə işləməyən şəxsin, uşaqlara münasibətdə isə müşayiətçinin əlaqə vasitələrindən birinə sanatoriya-kurort müəssisəsinə getmə vaxtından ən azı 7 (yeddi) iş günü əvvəl Agentliyin yerli qurumu və ya "DOST" mərkəzi tərəfindən məlumat göndərilir və həmin şəxslər ən azı 3 (üç) iş günü əvvəl sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar. Şəxs, uşaqlara münasibətdə isə müşayiətçi məlumatı aldıqdan sonra 3 (üç) iş günü müddətində sanatoriya-kurort müəssisəsinə gedib-getməyəcəyi barədə yazılı, şifahi və ya elektron formada Agentliyin yerli qurumunu və ya "DOST" mərkəzini məlumatlandırmalıdır.

9-2. Sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunması təsdiq edildikdən sonra həmin təqvim ili ərzində 2 (iki) dəfədən çox olmayaraq sanatoriya-kurort müəssisəsinə getməyəcəyi barədə Agentliyin yerli qurumunu və ya müvafiq "DOST" mərkəzini bu Qaydaların 9-1-ci hissəsində nəzərdə tutulan müddətdə məlumatlandırmadıqda və (və ya) təklif olunan sanatoriya-kurort putyovkasından (yollayışından) imtina etdikdə şəxs növbədən çıxarılır və işləməyən şəxsin, uşaqlara münasibətdə isə müşayiətçinin əlaqə vasitələrindən birinə bu barədə məlumat göndərilir.

9-3. Bu Qaydaların 9-2-ci hissəsinə əsasən növbədən çıxarılmış şəxs növbədən çıxarıldığı gündən 5 (beş) iş günü sonra yenidən növbəyə götürülmək üçün Agentliyin yerli qurumuna və ya "DOST" mərkəzinə müraciət edə bilər.";

2.6. 10-cu və 12-ci hissələr yeni redaksiyada verilsin və aşağıdakı məzmunda 13-cü hissə əlavə edilsin:

"10. Sanatoriya-kurort putyovkası (yollayışı) almaq hüququ olan şəxsin sanatoriya-kurort müəssisəsinə qəbul olunduğu və həmin müəssisədən buraxıldığı tarix, habelə aparılmış müalicələrin nəticələri barədə məlumatları və "Geri qayıtma" talonu sanatoriya-kurort müəssisəsi tərəfindən 30 (otuz) gün müddətində aidiyyəti quruma təhvil verilməlidir. Agentliyin yerli qurumuna və "DOST" mərkəzlərinə təhvil verilmiş məlumatlar və "Geri qayıtma" talonunun 3 (üç) iş günü müddətində MEİS-in "Sanatoriya-kurort" altsistemi vasitəsilə qeydiyyatı aparılır və onun putyovkanın (yollayışın) istifadəsini təsdiq edən sənəd kimi saxlanılması təmin edilir."

12. Sanatoriya-kurort putyovkalarının (yollayışlarının) uçotunun aparılması, onlara dair hesabatların təqdim edilməsi, habelə mühasibat uçotu sənədlərinin saxlanması qanunvericiliklə müəyyən edilmiş qaydada təmin edilir.".

"13. Bu Qaydaların tətbiqi zamanı yaranan mübahisələr inzibati və ya məhkəmə qaydasında həll edilir.".

2.7. 11-ci hissəyə "putyovkası" sözündən sonra "(yollayışı)" sözü əlavə edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş "Hərbi qulluqçuların və onların ailə üzvlərinin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ailələrindən başqa) sanatoriyalarda və istirahət evlərində sanatoriya-kurort müalicəsi, pansionatlarda və turist bazalarında istirahət üçün putyovkalarla (yollayışlarla) təmin olunması Qaydası" üzrə:

3.1. 2-ci, 4-7-ci hissələrə ismin müvafiq hallarında "putyovka" sözündən sonra ismin müvafiq hallarında "(yollayış)" sözü əlavə edilsin;

3.2. 3-cü hissəyə "həyata keçirilir" sözlərindən sonra "və putyovkalarla (yollayışlarla) sonuncu xidmət keçdikləri orqan tərəfindən təmin olunurlar" sözləri əlavə edilsin;

3.3. 8-ci hissə aşağıdakı redaksiyada verilsin:

"8. "Putyovkaların (yollayışların) uçotunun aparılması, onlara dair hesabatların təqdim edilməsi, habelə mühasibat uçotu sənədlərinin saxlanılması qanunvericiliklə müəyyən olunmuş qaydada təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Milli Məclisin iclasında

# 2026-cı ilin dövlət büdcəsi layihəsi birinci oxunuşda qəbul edilib

**Milli Məclisin noyabrın 20-də keçirilən plenar iclasında 2026-cı ilin dövlət büdcəsi layihəsinin müzakirəsi davam etdirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda hökumət üzvləri və nümayəndələri də iştirak ediblər.**

Müzakirələrdə parlamentin komitə sədrləri Sadiq Qurbanov, Hicran Hüseynova, Siyavuş Novruzov, Arzu Nağıyev, Şahin İsmayılov, Əli Hüseynli, komissiya sədri Eldar İbrahimov, deputatlar Müşfiq Cəfərov, Razi Nurullayev, Aydın Hüseynov, Vasif Qafarov, Jalə Əliyeva, Elman Nəsirov, Rizvan Nəbiyev, Məlahət İbrahimqızı, Ülviyyə Həmzəyeva, Elnarə Akimova, Vüqar İskəndərov, Sahib Alıyev, Elşən Musayev, Müşfiq Məmmədli, Bəhruz Məhərrəmov, Fatma Yıldırım və Səyyad Aran çıxış ediblər.




Çıxışlarda vurğulanıb ki, hazırkı mürəkkəb beynəlxalq mühitdə Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşmış milli inkişaf modeli ölkəmizin təhlükəsizliyini və sosial-iqtisadi inkişafını təmin edən əsas dayağa çevrilib. Azərbaycanın nəqliyyat-logistika sahəsində artan rolu regional əməkdaşlıq üçün yeni imkanlar yaradıb. Dövlətimizin enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş kimi mövqeyi daha da möhkəmlənib. Ölkəmizin investisiya axınlarını strateji istiqamətlərə yönəldən, innovasiya və modernləşməni stimullaşdıran, iqtisadiyyatın yeni inkişaf fəlsəfəsini yaradan güclü dövlətə çevrildiyi söylənilib. Son illərdə əldə olunan nəticələrə əsaslanaraq qeyd olunub ki, Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə nəinki öz ərazi bütövlüyünü və suveren hüquqlarını təmin edib, eyni zamanda güclü iqtisadi əsaslar, yeni siyasi reallıqlar yaradıb. Ölkədə Böyük qayıdış proqramı uğurla həyata keçirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı islahatlar davam etdirilir.

Bildirilib ki, 2026-cı ilin dövlət büdcəsi layihəsi ölkəmizin qarşıdakı dövrdə iqtisadi inkişaf kursunu müəyyənləşdirən mühüm sənəddir. Layihədə əsas prioritet istiqamətlərdən olan dayanıqlı iqtisadiyyatın, sosial rifahın, milli təhlükəsizliyin, çevik idarəetmənin maliyyə təminatı öz əksini tapıb. Eyni zamanda bu sənəddə ehtiva edilən makroiqtisadi sabitliyin qorunması, qeyri-neft-qaz sektorunun gücləndirilməsi, investisiya fəaliyyətinin davam etdirilməsi, sosial öhdəliklərin təmin olunması ilə bağlı məsələlərin vacibliyi qeyd olunub.

Növbəti ilin dövlət büdcəsində neft amilindən asılılığın azaldılması, qeyri-neft-qaz sektorunun dayanıqlı inkişafının maliyyə əsaslarının formalaşdırılması təqdirəlayiq hesab edilib.

Qanun layihəsinin dövlət büdcəsi xərclərinin dayanıqlı inkişaf məqsədlərinə uyğunluğu, pensiya təminatı sisteminin formalaşdırılması, mövcud demoqrafik proseslər, iqlim dəyişikliklərinin təsiri ilə bağlı məsələləri, habelə qarşıda duran vəzifələri əhatə etdiyi vurğulanıb. Bildirilib ki, son illərdə ölkəmizin hərbi, müdafiə sənayesi və diplomatiya sahələrində gücü daha da artıb və büdcə layihəsində bu istiqamətlərin maliyyə təminatı ilə bağlı müvafiq vəsaitin ayrılması nəzərdə tutulub. Növbəti ilin büdcəsində məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərclərinin artırıldığı, həmin orqanların maddi-texniki təminatlarının daha da yaxşılaşdırılması, işğaldan azad olunmuş ərazilərdə müvafiq xidmətlərin təşkili ilə bağlı tələb olunan vəsaitin əks olunduğu qeyd edilib.

Deputatlar regionların inkişafının önəmini qeyd edərək kənd təsərrüfatının modernləşdirilməsinin, sənayeləşmənin, ixrac potensialının artırılmasının, sənaye parklarının yaradılmasının, innovasiya və texnologiyaların daha geniş tətbiqinin əhəmiyyətindən bəhs ediblər. Sahibkarlığın daha da inkişaf etdirilməsi üçün vergi güzəştlərinin və subsidiyaların tətbiqi, infrastruktur dəstəyi, investisiya təşviqinin gücləndirilməsi məsələlərinə toxunublar.

Millət vəkilləri Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunun daha da gücləndiyini deyərək, bərpaolunan enerjiyə keçidin sürətləndirilməsinin vacibliyini, qlobal iqlim çağırışları fonunda ölkəmizdə "yaşıl enerji"yə transformasiyanın əsas prioritetlərdən olduğunu qeyd ediblər. Habelə bildirilib ki, hazırkı geosiyasi proseslər fonunda təhlükəsizlik, o cümlədən kibertəhlükəsizlik, enerji təhlükəsizliyi, ərzaq təhlükəsizliyi, süni intellektin tətbiqi ilə bağlı məsələlər daha da aktuallaşıb.

Deputatlar büdcə layihəsinin parlamentin komitə və plenar iclaslarında geniş müzakirələrinin hökumətlə parlament arasında səmərəli əməkdaşlığın bariz nümunəsi kimi dəyərləndiriblər. 2026-cı ilin dövlət büdcəsinin ölkəmizin yeni inkişaf mərhələsinə uyğun olduğunu deyiblər.

Çıxışlarda həmçinin regionların inkişafı, məşğulluq siyasəti, sahibkarlığın dəstəklənməsi, dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı və bir sıra digər təkliflər səsləndirilib. Habelə seçiciləri narahat edən bəzi məsələlər hökumət üzvlərinin diqqətinə çatdırılıb.

Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Qısa fasilədən sonra Milli Məclisin iclası davam etdirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin "Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında" (birinci oxunuş) və "İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" (birinci oxunuş) qanun layihələri olduğunu bildirib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev hər iki qanun layihəsi barədə məlumat verib. O qeyd edib ki, Azərbaycan dövlətinin daxili siyasətində sosial siyasət həmişə prioritet istiqamət təşkil edib və ənənəvi olaraq, dövlət büdcəmizin 40 faizdən çoxu sosialyönümlü xərclərin maliyyələşdirilməsinə yönəldilir. Ümumilikdə, 2019-cu ildən başlayaraq ölkəmizdə dövlət başçısının tapşırıqlarına uyğun olaraq 5 dərin sosial islahatlar zərfinin qəbul edildiyini nəzərə çatdırıb. Komitə sədri ölkəmizin 2025-ci ildə əldə etdiyi iqtisadi uğurların 2026-cı ilin büdcə siyasətinin pozitiv və sosialyönlü istiqamətdə formalaşmasını, DSMF-nin büdcəsinin dayanıqlılığını təmin etdiyini söyləyib. Dövlətimizin daxili siyasətinin ən mühüm istiqamətlərindən biri olan sosial müdafiə və sosial təminat sahəsində aparılan dərin islahatların vətəndaşlarımızın sosial rifah halının qorunmasına və yüksəldilməsinə etibarlı təminatlar yaratdığını vurğulayıb.

Musa Quliyev bildirib ki, 2019-cu ildən başlayaraq, əmək pensiyalarının minimum məbləği ölkə üzrə pensiyaçılar üçün yaşayış minimumunu üstələmiş və bu meyil gələn ildə də davam edəcək. Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün müvafiq vəsait ayrılıb. Fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,6 faizini əhaliyə ödənişlər təşkil edəcək.

Komitə sədri bildirib ki, əvvəlki illərdə olduğu kimi, cari və növbəti illərdə də əvəzetmə əmsalı, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqı məbləğinə nisbəti müvafiq olaraq 49,05 faiz və 50,41 faiz olmaqla Beynəlxalq Əmək Təşkilatının sosial təminatın minimum normaları haqqında müvafiq konvensiyasına cavab verəcək. O habelə növbəti ildə əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi, eləcə də pensiya və müavinətlərin əhaliyə çatdırılması və bank əməliyyatlarının aparılması üzrə xidmət haqqı xərcləri barədə də məlumat verib.

Musa Quliyev vurğulayıb ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sosial sahədə 159 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, innovativ əsasda təqdim olunmasına imkan yaradıb. Hazırda ölkə üzrə 7 DOST mərkəzi, o cümlədən Şuşa filialı və Ağalı "Smart DOST" xidmət məntəqəsi fəaliyyət göstərir. O qeyd edib ki, bir sıra ölkələr, o cümlədən Avropa ölkələri DOST təcrübəsini öyrənərək tətbiq etməyə başlayıblar.

Komitə sədri, habelə 2026-cı ilin dövlət büdcəsi layihəsində məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsi üçün müvafiq vəsaitin nəzərdə tutulduğunu deyib. O, Prezident İlham Əliyev tərəfindən təqdim edilmiş qanun layihəsinin ölkə qanunvericiliyinin tələblərinə uyğun hazırlandığını, sosial və büdcə siyasətinin ümumi məqsədlərinə, Azərbaycan Respublikasının büdcə sisteminin vahidlik və müstəqillik prinsiplərinə müvafiq olduğunu və gələn il şəhid ailələrinin, qazilərin pensiya və müavinət alan bütün vətəndaşlarımızın sosial rifahının yaxşılaşması üçün etibarlı təminat yaradacağını vurğulayıb.

Sonra Musa Quliyev "İşsizlikdən Sığorta Fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihəsində əks olunan fondun gəlirləri, fondun 2026-cı il yanvarın 1-nə yaradılmış ehtiyatından 2026-cı ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsaitin həcmi, işsizlikdən sığorta haqları üzrə yığımların proqnozları barədə fikirlərini açıqlayıb. Komitə sədri sığorta haqları üzrə yığımın 78 faizinin qeyri-büdcə sektorunun payına düşəcəyini, fondun xərclərinin 13 istiqaməti əhatə edəcəyini söyləyib. 2026-cı ildə işsizliyə görə sığorta ödənişlərinin həcminin artırıldığını, bu artımın "İşsizlikdən Sığorta haqqında" Qanunun 13.1-ci maddəsinə edilən mütərəqqi dəyişikliklə bağlı olduğunu deyib. Qeyd edib ki, İSF-nin xərclərinin 28,9 faizi özünüməşğulluq tədbirlərinin maliyyələşməsinə yönəldiləcək.

Musa Quliyev İşsizlikdən Sığorta Fondunun büdcə layihəsinin 2026-cı ildə sığorta olunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsi, özünüməşğulluq, peşə hazırlığı və peşəyönümü tədbirlərin keçirilməsi, haqqı ödənilən ictimai işlərin təşkili və digər aktiv məşğulluq tədbirlərinin maliyyələşməsi üçün optimal əsaslar yarada biləcəyini vurğulayıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov təqdim edilən hər iki qanun layihəsi barədə rəhbərlik etdiyi komitənin rəylərini diqqətə çatdırıb. O bildirib ki, hər iki fondun büdcəsi icmal büdcənin tərkib hissəsidir və bütövlükdə dövlət maliyyə sisteminin əsas elementlərini təşkil edir. Büdcə sistemi ilə bağlı əsas götürülən prinsiplər hər iki fondun büdcəsinə münasibətdə də qüvvədə qalır. Azər Əmiraslanov rəhbərlik etdiyi komitənin qanun layihələrini dəstəklədiyini qeyd edib.

İclasda çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev cari ildə əhalinin sosial müdafiəsi sahəsində görülmüş işlərdən danışıb və Dövlət Sosial Müdafiə Fondunun 2026-cı il büdcəsi barədə məlumat verib.

Nazir bildirib ki, Dövlət Sosial Müdafiə Fondunun 2026-cı il üçün gəlirləri 8 milyard 323 milyon manat nəzərdə tutulur ki, bu da 2025-ci ilin proqnoz göstəricilərindən 705,7 milyon manat və ya 9,3 faiz çoxdur. Fondun 2026-cı il üçün gəlirlərinin 79,2 faizinin və ya 6,6 milyard manatının məcburi dövlət sosial sığorta daxilolmaları üzrə formalaşacağı proqnozlaşdırılır. Bu isə cari ilin müvafiq göstəricisindən 593,7 milyon manat və ya 10 faiz çoxdur.

Büdcədən maliyyələşən təşkilatlar üzrə 2026-cı il üçün daxilolmalar 2,1 milyard manat, qeyri-büdcə təşkilatları üzrə isə 4,5 milyard manat proqnozlaşdırılır. Qeyri-büdcə sektoru üzrə proqnoz edilən gəlirlər sosial sığorta haqlarının 68 faizini təşkil edir.

Ümumilikdə, 2025-ci ilin təsdiq edilmiş göstəriciləri ilə müqayisədə 2026-cı il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 3,6 faiz və ya 73,4 milyon manat, qeyri-büdcə sektoru üzrə daxilolmalar isə 13,1 faiz və ya 520,3 milyon manat artımla proqnozlaşdırılır.

Nazir vurğulayıb ki, növbəti il üzrə dövlət büdcəsi xərclərinə dəstək göstərilməsi məqsədilə DSMF-nin 2026-cı il üçün büdcə layihəsində fondun əvvəlki illərdə yaratdığı ehtiyatdan 160 milyon manata yaxın məbləğdə vəsait növbəti ilin xərclərinə yönəldilir.

Fondun 2026-cı il üzrə ümumi xərclərinin 8 milyard 483 milyon manat həcmində olması proqnozlaşdırılır ki, bunun da 96,6 faizi və ya 8 milyard 196 milyon manatı əhaliyə ödənişlərin payına düşür. Bu göstərici 2024-cü illə müqayisədə 1 milyard 534 milyon manat, 2025-ci illə müqayisədə isə 788 milyon manat çoxdur. Bu məbləğin 7 milyard 993 milyon manatı əmək pensiyalarının, 203,6 milyon manatı isə sosial sığorta hesabına verilən müavinət xərclərinin payına düşür.

Bildirilib ki, 2026-cı il üzrə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 2025-ci ilin təsdiqlənmiş xərcləri ilə müqayisədə 782,4 milyon manat və ya 10,9 faiz artımla nəzərdə tutulur. Bunun 81,2 faizi və ya 635,6 milyon manatı əmək pensiyalarının indeksasiya xərclərinin, digər hissəsi isə yeni təyin olunan və yenidən hesablanan pensiyaların məbləğlərinin maliyyələşdiriməsi ilə bağlı xərclərin payına düşür.

Nazir qeyd edib ki, proqnoz göstəricilərə əsasən, 2026-cı il üzrə indeksasiyanın təqribən 9,2 faiz səviyyəsində olması, orta pensiyanın məbləğinin isə yenə də 9,2 faiz artaraq 590 manata, yaşa görə pensiyanın məbləğinin isə 629 manata çatması proqnozlaşdırılır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların və əmək pensiyaçılarının sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi məqsədilə fondun 2026-cı il büdcəsində 25 milyon manat vəsait nəzərdə tutulur.

Sonra İşsizlikdən Sığorta Fondunun 2026-cı il büdcəsi barədə məlumat verən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev bildirib ki, büdcə layihəsinə əsasən, İşsizlikdən Sığorta Fondunun 2026-cı il üzrə gəlirləri 238,3 milyon manat həcmində nəzərdə tutulur ki, bu da 2025-ci ilin təsdiq edilmiş göstəricisindən 31,9 milyon manat, yaxud 15,5 faiz çoxdur.

İşsizlikdən Sığorta Fondunun gəlirlərinin 236,6 milyon manatı, yaxud 99,3 faizi işsizlikdən sığorta haqları üzrə yığım hesabına formalaşacaq ki, bu da 2025-ci ilin təsdiq edilmiş müvafiq göstəricisindən 30,3 milyon manat və ya 15 faiz çoxdur.

Büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 51,9 milyon manat, qeyri-büdcə təşkilatları üzrə isə 184,7 milyon manat proqnozlaşdırılır. Sığorta haqları üzrə yığımın 78 faizi qeyri-büdcə sektorunun payına düşəcəkdir ki, bu da cari ilə nisbətən 28,1 milyon manat çoxdur.

Ümumilikdə, 2025-ci ilin təsdiq edilmiş göstəriciləri ilə müqayisədə 2026-cı il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 4,3 faiz, qeyri-büdcə sektoru üzrə daxilolmalar isə 18 faiz artımla proqnoz edilir.

Fondun maliyyə mənbəyinin 28,1 milyon manatlıq və ya 10,5 faizlik hissəsini əvvəlki illərdə yaradılmış ehtiyatdan 2026-cı ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsait təşkil edəcəkdir.

Fondun 2026-cı il üzrə xərclərinin 266,4 milyon manat həcmində olması proqnozlaşdırılır ki, bu da cari ilin təsdiq edilmiş göstəricisindən 5,7 milyon manat və ya 2,2 faiz çoxdur.

Ümumilikdə, 2026-cı ildə İSF-nin vəsaiti hesabına 450 minə yaxın şəxsin aktiv məşğulluq tədbirlərinə cəlb olunması gözlənilir.

Nazir qeyd edib ki, 2025-ci ilin 10 ayında məşğulluq orqanları tərəfindən 158 min nəfər işsiz və işaxtaran şəxs işlə təmin edilib. Bildirilib ki, əhalinin məşğulluğunun təmin edilməsində əsas aktiv məşğulluq tədbirlərindən olan özünüməşğulluq proqramı növbəti ildə də davam etdiriləcək və İSF büdcəsinin xərclərinin 29 faizini təşkil edəcəkdir.

Növbəti ildə İSF-nin vəsaiti hesabına 8 min, Dünya Bankı layihəsi çərçivəsində isə 7 min olmaqla, ümumilikdə 15 min ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutulur. Bu çərçivədə vətəndaşlara təqdim edilən zərflərdə çeşid müxtəlifliyinin artırılması məqsədilə yeni zərflərin tətbiqinə başlanılacaqdır.

2026-cı ildə işsiz və işaxtaran şəxslərin peşə hazırlığı və əlavə təhsil imkanlarının genişləndirilməsi məqsədilə 17500-ə yaxın müdavimin bu prosesə cəlb olunması istiqamətində müvafiq işlərin həyata keçirilməsi nəzərdə tutulur. Hazırda 175 ixtisas üzrə peşə hazırlığı kurslarının təşkili həyata keçirilir. Eyni zamanda, 2026-cı ildə 100 yeni peşə və kvalifikasiya standartının hazırlanması və 135 peşə və kvalifikasiya standartının yenilənməsi həyata keçiriləcəkdir.

İşsiz və işaxtaran şəxslərin əmək bazarına daxil olmasını dəstəkləmək üçün işəgötürənlərlə əməkhaqqının birgə maliyyələşdirilməsi mexanizmi genişləndiriləcək və 2026-cı ildə bu istiqamətdə əmək bazarına mindən artıq iştirakçının proqram çərçivəsində cəlb olunması nəzərdə tutulur.

İşədüzəlmə prosesinin təşkili və əhalinin əmək bazarına inteqrasiyasının təmin edilməsi tədbirləri çərçivəsində 2026-cı ildə ölkədə ümumilikdə 180 əmək yarmarkasının keçirilməsi nəzərdə tutulur.

Qanun layihələri ətrafında gedən müzakirələrdə Milli Məclisin komitə sədrləri Zahid Oruc, Fazil Mustafa, Siyavuş Novruzov, deputatlar Əli Məsimli, Vüqar Bayramov, Bəhruz Məhərrəmov, Səyyad Aran, Jalə Əliyeva, Günay Ağamalı, Vüqar Rəhimzadə, Rövşən Muradov, Elçin Mirzəbəyli, Ceyhun Məmmədov, Bəxtiyar Əliyev, Rəşad Mahmudov və Aydın Mirzəzadə çıxış ediblər.

Millət vəkilləri əhalinin məşğulluğunun təşkili, sosial təminatının gücləndirilməsi, vətəndaşların rifahının daha da yaxşılaşdırılması istiqamətində ölkəmizdə görülən işlər barədə fikirlərini səsləndiriblər. Çıxış edənlər, habelə çoxuşaqlı anaların pensiya təminatına güzəştlərin verilməsi, pensiya kapitalı məbləğinin bəzi peşələr üzrə optimallaşdırılması və digər bu kimi məsələlərlə bağlı rəy və təkliflərini bildiriblər.

Müzakirələrin yekununda "Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələri birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında" qanun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, layihədə əhalinin sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği artırılır. Belə ki, 2026-cı il üçün yaşayış minimumunun məbləği ölkə üzrə 285 manatdan 300 manata, əmək qabiliyyətli əhali üçün 305 manatdan 317 manata, pensiyaçılar üçün 232 manatdan 245 manata, uşaqlar üçün 246 manatdan 260 manata yüksəldilir. Komitə sədri qeyd edib ki, yaşayış minimumunun artım məbləğləri gələn il üçün proqnozlaşdırılan inflyasiyanın səviyyəsini üstələyir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məsələyə dair bu komitənin müsbət rəy verdiyini diqqətə çatdırıb.

Deputat Vüqar Bayramovun fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. O, gələn il üçün ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə müəyyən olunan ehtiyac meyarının həddinin 5,3 faiz artırılaraq 300 manata çatdırıldığını bildirib. Komitə sədri qeyd edib ki, ünvanlı sosial yardımın təyin olunması üçün ehtiyac meyarının artırılması gələn il aztəminatlı ailələrin daha etibarlı sosial müdafiəsi üçün əsaslar yaradacaq.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məsələ barədə bu komitənin rəyini səsləndirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasa yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəlikdəki məsələlərin müzakirəsi noyabrın 21-də davam etdiriləcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*




# Bərpa və inkişaf strategiyası

**2020-ci il Vətən müharibəsində qazanılmış Zəfər və 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam şəkildə bərpa olunub. İşğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa, yenidənqurma və reinteqrasiya prosesi başlanıb. Böyük qayıdış çərçivəsində həyata keçirilən layihələrin miqyası, əhatə dairəsi və nəticələri o qədər genişdir ki, bu dövrdə görülən işlər regionun bütün inkişaf mənzərəsini köklü şəkildə dəyişib.**

Böyük qayıdışın təmin olunması üçün ilk olaraq zəruri konseptual və institusional işlər həyata keçirilib, koordinasiya mexanizmləri formalaşdırılıb, "Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilib. Bu prosesi sistemli və mərkəzləşdirilmiş şəkildə idarə etmək məqsədilə Prezident İlham Əliyevin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə Əlaqələndirmə Qərargahı yaradılıb. Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev qərargahın rəhbəri təyin edilib.

Son beş il ərzində Qərargah azad edilmiş ərazilərdə işlərin koordinasiyası, dövlət qurumları arasında fəaliyyətin uzlaşdırılması və kompleks yanaşmanın təmin olunması baxımından mühüm institusional mexanizmə çevrilib. Bu mexanizmin formalaşdırılması və vahid idarəetmə modelinin tətbiqi bilavasitə Prezident İlham Əliyevin siyasi iradəsinin və şəxsən nəzarətinin nəticəsidir.



Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəz katiblik və kommunikasiya funksiyalarını icra edir. İdarələrarası Mərkəz çərçivəsində minalardan və partlamamış hərbi sursatlardan təmizləmə, şəhərsalma, nəqliyyat, rabitə və yüksək texnologiyalar, iqtisadi məsələlər, enerji təminatı, ekoloji, elm, təhsil və mədəniyyət məsələləri, habelə işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışı və kommunikasiya üzrə ümumilikdə 12 işçi qrup fəaliyyət göstərir.

Dövlət başçısının tapşırıqlarının praktiki icrasına başlanılaraq, bölgədə iqtisadi inkişafın təməlini təşkil edən yol-nəqliyyat infrastrukturu və energetika sistemi yaradılıb, yaşayış məntəqələri, sosial obyektlər, aqro və sənaye parkları istifadəyə verilib və insanların məşğulluğunun təmin edilməsi istiqamətində zəruri tədbirlər görülür.

## İşğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyəti

Minatəmizləmə fəaliyyəti Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi ən vacib təhlükəsizlik və inkişaf tədbirlərindən biridir. 2020-2025-ci illər ərzində Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) və digər aidiyyəti qurumların, həmçinin yerli şirkətlərin birgə əməliyyatları nəticəsində ümumilikdə 240 min hektardan artıq ərazi təmizlənib, 227 mindən çox mina və partlamamış hərbi sursat zərərsizləşdirilib. Əməliyyatlar xüsusilə bərpa və məskunlaşma prioriteti daşıyan rayonlarda aparılıb, nəticədə yaşayış və infrastruktur layihələrinin icrası sürətlənib, kənd təsərrüfatı təyinatlı torpaqlar istifadəyə verilib.




Minatəmizləmə işlərində ANAMA ilə yanaşı, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti və yerli şirkətlər də fəal iştirak edib, əməliyyatların təhlükəsizliyi və effektivliyi üçün müasir texnika və pilotsuz nəzarət sistemləri tətbiq olunub. Bu yanaşma əməliyyatların səmərəliliyini artırıb, insan itkisi riskini minimuma endirib və regionun təhlükəsizliyinə mühüm töhfə verib.



Nəticədə minatəmizləmə sayəsində təhlükəsizliyi təmin olunmuş ərazilər "Böyük qayıdış" proqramının əsas baza komponentinə çevrilib, regionun sosial-iqtisadi reinteqrasiyasına, yerli əhalinin təhlükəsiz qayıdışına və iqtisadi fəallığın bərpasına mühüm töhfə verib.

## Əhalinin qayıdışı və məskunlaşma siyasəti

İşğaldan azad edilmiş ərazilərə əhalinin qayıdışı ölkənin postmünaqişə dövründə həyata keçirilən "Böyük qayıdış" proqramının əsas strateji istiqamətlərindən biridir. Məqsəd yalnız fiziki məskunlaşma deyil, həm də sosial, iqtisadi və ekoloji baxımdan dayanıqlı yaşayış məntəqələrinin yaradılmasıdır.

Yaşayış məntəqələrinin planlaşdırılmasında şəhərsalma və sosial-iqtisadi prinsiplər, tarixi-mədəni əhəmiyyətli kənd və qəsəbələrin qorunması əsas götürülür. Yeni məntəqələr müasir şəhərsalma qaydalarına uyğun və rayon mərkəzlərindən optimal məsafədə planlaşdırılır.

Praktiki mərhələyə 2022-ci ilin iyulunda Ağalı kəndinə ilk qayıdışla başlanıb. Bu vaxta kimi 6 şəhər, 2 qəsəbə və 22 kənd olmaqla, ümumilikdə 30 yaşayış məntəqəsinə əhalinin köçürülməsi həyata keçirilib. Hazırda isə azad olunmuş ərazilərdə 62 mindən çox insan yaşayır, fəaliyyət göstərir və təhsil alır. Onların istifadəsinə müasir sosial infrastruktur - məktəblər, bağçalar və mədəniyyət obyektləri verilib.

İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan dövləti tərəfindən səhiyyə infrastrukturunun bərpası və inkişafı üzrə də geniş işlər görülür. Bu istiqamətdə ən mühüm layihələrdən biri bu ilin mayında istifadəyə verilən Şuşa Müalicə-Sağlamlıq Mərkəzidir. Mərkəz Şuşa və eyni zamanda ətraf şəhər və rayon sakinlərinə tibbi xidmət göstərir. Regionda səhiyyə şəbəkəsinin genişləndirilməsi məqsədilə Cəbrayıl, Ağdam və Füzuli rayon mərkəzi xəstəxanalarının tikintisi də ardıcıl şəkildə davam etdirilir.

İşğaldan azad olunmuş ərazilərdə "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyalarına əsaslanan, sosial ədalətli və dayanıqlı məskunlaşma modeli formalaşıb ki, bu həm postmünaqişə dövrü siyasətinin, həm də milli birliyin bərpasının mühüm göstəricisidir.

Dövlət başçısı işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak etmişdir. Prezident İlham Əliyev ümumilikdə 177 müxtəlif təyinatlı layihənin təməlini qoymuş, 167 obyektin və infrastruktur layihəsinin açılışını etmişdir. Bu səfərlər Qarabağ və Şərqi Zəngəzurda bərpa və inkişaf proseslərinin praktiki nəticələrini göstərməklə yanaşı, dövlət başçısının ərazilərin bərpasına yönələn siyasətinin ardıcıllığını və bu istiqamətə olan yüksək diqqətini əks etdirir.

## Böyük qayıdış çərçivəsində şəhərsalma və ərazi planlaşdırma işləri

2020-2025-ci illərdə şəhərsalma və yaşayış məntəqələrinin bərpası istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirilib. "İşğaldan azad edilmiş ərazilərin Ümumi Planı" 2022-ci ildə Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənib. 8 şəhərin Baş planı və 3 şəhərin müfəssəl planı, 12 rayon üzrə 91 yaşayış məntəqəsinin şəhərsalma əsaslandırması artıq təsdiqlənib, Xankəndi, Xocalı, Ağdərə və Xocavənd şəhərlərinin planları işlənmə mərhələsindədir. Eyni zamanda şəhərlərdə küçə şəbəkələri layihələndirilərək tarixi şəxsiyyətlər, milli qəhrəmanlar və tarixi hadisələrin adları ilə əbədiləşdirilib.

İnzibati ərazi quruluşunda da əhəmiyyətli dəyişikliklər aparılıb. Kəlbəcər, Tərtər və Ağdam rayonlarının işğaldan azad olunmuş ərazilərinin reinteqrasiyası məqsədilə Ağdərə rayonu yaradılıb və mərkəzi Ağdərə şəhəri dövlət reyestrinə daxil edilib. "Böyük qayıdış" proqramı çərçivəsində Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati bölgüsündə dəyişikliklər aparılıb, bəzi kəndlərin tabeliyi faktiki yerləşdikləri rayonlara uyğunlaşdırılıb.

## İşğaldan azad edilmiş ərazilərin iqtisadi tərəqqisi və reinteqrasiyası

İşğaldan azad edilmiş ərazilərin iqtisadi dirçəlişi Azərbaycanın milli inkişaf strategiyasının prioritet istiqamətlərindəndir. 2021-2025-ci illərdə bölgədə iqtisadi, sosial və institusional reabilitasiya həyata keçirilərək "Böyük qayıdış" proqramı üçün möhkəm baza yaradılıb.

Prezidentin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiqlənən "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində dayanıqlı məskunlaşma, infrastrukturun bərpası, təhlükəsiz yaşayış, ekoloji təmiz texnologiyalar və "yaşıl inkişaf" prinsiplərinin tətbiqi əsas məqsəd kimi müəyyən edilib.

Daşınmaz əmlak və infrastrukturun inventarlaşdırılması başa çatıb, 47 min yaşayış və 11 mindən çox qeyri-yaşayış fondu qeydiyyata alınıb, torpaq və ünvan məlumatları elektron sistemlərə inteqrasiya edilərək gələcək məskunlaşma və sahibkarlıq üçün hüquqi baza yaradılıb.

Regionun təbii sərvətlərindən istifadəyə başlanıb. "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" Sənaye parklarında 50 rezident və 7 qeyri-rezident müəssisə qeydiyyata alınıb. Ümumi dəyəri 454 milyon manat olan layihələrin icrası çərçivəsində 185 milyon manat investisiya yatırılıb və 1057 iş yeri yaradılıb. Parklarda fəaliyyətə başlamış rezidentlər tərəfindən 950 milyon manata yaxın məbləğdə məhsul istehsal olunub, Ağdam Sənaye Parkı rezidentləri tərəfindən istehsal olunmuş məhsulların 39,5 milyon manatlıq hissəsi ixrac olunub. Sahibkarlığa vergi və gömrük güzəştləri tətbiq olunur, KOB-lar üçün hüquqi və maliyyə dəstəyi göstərilir.




Turizm sektoru da iqtisadi reinteqrasiyanın vacib hissəsidir; işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi və demoqrafik vəziyyətini, eyni zamanda turizm və rekreasiya potensialını əks etdirən turizm əsaslı inkişaf konsepsiyaları hazırlanır, mehmanxanalar, parklar və istirahət kompleksləri inşa edilir, Şuşa, Suqovuşan, Laçın və digər istiqamətlərə turist səfərləri təşkil olunur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları münbit torpaq və əlverişli iqlim şəraiti ilə seçilir. Burada ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı üçün geniş imkanlar mövcuddur. Kənd təsərrüfatı sektorunun bu bölgələrdə canlanması yerli əhalinin məşğulluğunun təmin olunması, regionların sosial-iqtisadi inkişafı və ölkə üzrə ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Kənd təsərrüfatının dayanıqlı inkişafı, məhsuldarlığın yüksəlməsi və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətlərində ardıcıl işlər görülüb. Müasir pivot suvarma sistemlərinə əsaslanan aqroparklar yaradılıb və yaylaq ərazilərində heyvandarlıq təsərrüfatlarının fəaliyyəti təmin olunub.



## "Yaşıl enerji zonası"nın yaradılması istiqamətində görülən işlər

İşğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin 2021-ci il 3 may tarixli sərəncamı ilə "Yaşıl enerji zonası"nın yaradılması qərara alınıb. Məqsəd regionun enerji təminatını bərpaolunan mənbələr əsasında təmin etmək, ekoloji cəhətdən təmiz və davamlı model formalaşdırmaqdır. Sərəncama əsasən, Energetika Nazirliyi ilə Yaponiyanın TEPSCO şirkəti əməkdaşlıq müqaviləsi imzalayıb və konsepsiya hazırlanıb.

Konsepsiyanın əsas hədəfi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpaolunan enerji potensialından səmərəli istifadə, karbon neytral infrastrukturun qurulması və yaşayış məntəqələrinin "yaşıl texnologiyalar"a uyğun inkişafıdır. 2022-2026-cı illər üçün Tədbirlər Planı təsdiqlənib, əlaqələndirmə və monitorinq üzrə İşçi Qrup yaradılıb.



Azad edilmiş ərazilərdə 1500-dən çox fərdi evdə və ictimai binalarda Günəş panelləri quraşdırılıb. Beynəlxalq tərəfdaşlarla layihələr genişlənir, məsələn, BP şirkəti ilə Cəbrayıl rayonunda 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyası layihəsi icra olunur.

Proqnozlara görə, yaxın illərdə bərpaolunan enerji istehsal gücü 600 MVt-a çatdırılacaq. Bu isə regionun enerji müstəqilliyini təmin etməklə yanaşı, Azərbaycanın enerji balansında "yaşıl enerji"nin payını artıracaq və karbon emissiyalarını azaldacaq.

Beləliklə, "Yaşıl enerji zonası" konsepsiyasının reallaşdırılması enerji sektorunun modernləşdirilməsini və işğaldan azad edilmiş ərazilərin "ağıllı şəhər və kənd" modelinə əsaslanan ekoloji davamlı inkişafını təmin edir və "Böyük qayıdış" proqramının strateji prioritetlərindən biridir.

## Böyük qayıdış çərçivəsində enerji infrastrukturu və istilik təminatı

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında elektrik enerjisi infrastrukturu genişmiqyaslı şəkildə bərpa olunub. 14 elektrik yarımstansiyası istismara buraxılıb, 1000 km-dən artıq yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilərək 12 yeni 110 kV-luq yarımstansiya zəncirvari şəkildə birləşdirilib və dairəvi təchizat sistemi yaradılıb. Bu sistem 330 kV-luq yarımstansiyalarla əlaqələndirilərək regionun enerji ehtiyaclarını tam təmin edir. Qarabağ və Şərqi Zəngəzurda fəaliyyət göstərən 38 su-elektrik stansiyası 307 MVt güc təmin edərək ölkənin vahid enerji sisteminə inteqrasiya olunub.




Qaz təchizatı sahəsində 6 magistral qaz xətti çəkilib, 9 qazpaylayıcı stansiya və 1 qaztənzimləyici məntəqə inşa olunub, 8 şəhərə, 20 kənd və 1 qəsəbəyə qazın verilməsi təmin olunub.

Beləliklə, elektrik, qaz və istilik təminatı sahəsində aparılmış layihələr işğaldan azad edilmiş ərazilərdə müasir və etibarlı enerji sistemini formalaşdırmağa və dayanıqlı enerji təminatına imkan yaradır. Bu infrastruktur həm regionun iqtisadi potensialını gücləndirir, həm də sosial-iqtisadi reinteqrasiyaya mühüm töhfə verir.

## Su təsərrüfatı infrastrukturunun bərpası və inkişafı

Qarabağda və Şərqi Zəngəzurda su təsərrüfatı infrastrukturunun bərpası və modernləşdirilməsi əsas prioritetlərdən olub. Bu sahədə görülən tədbirlər təkcə içməli su və suvarma təminatını deyil, həm də kənd təsərrüfatı istehsalının bərpasını, ekoloji tarazlığın qorunmasını təmin edir. Azad olunmuş ərazilərdə 4 su anbarı istifadəyə verilib. Suqovuşan su anbarının və 5,2 km-lik magistral kanalın təmiri ilə 96 min hektara yaxın torpaq sahəsinin su təminatı bərpa edilib. Eyni zamanda Ağdamdakı Xaçınçay su anbarı və 7 km-lik əsas kanalın bərpası ilə 7 min hektar sahənin suvarma şəraiti yaxşılaşdırılıb.



Füzuli rayonunda "Köndələnçay" kompleksinin bərpası 6,2 min hektar sahənin suvarılmasını təmin edib, Laçın rayonunda Zabuxçay su anbarı və 51,6 km-lik boru kəməri Qubadlı və Zəngilan rayonlarında 12,1 min hektar ərazinin suvarma sistemini formalaşdırıb. Ümumilikdə 2022-2025-ci illər ərzində həyata keçirilmiş işlər işğaldan azad olunmuş ərazilərdə su resurslarının idarə edilməsini modernləşdirərək, iqtisadi, ekoloji və sosial sabitliyin təmin olunmasında strateji əhəmiyyətə malikdir.

## Ekoloji bərpa və monitorinq işləri

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ilkin ekoloji qiymətləndirmə və monitorinq işləri aparılıb. Bu işlər meşə fonduna aid olmayan yaşıllıqlar, meşə fondu sahələri, xüsusi mühafizə olunan təbiət əraziləri, təbiət abidələri, mineral-xammal yataqları və yerüstü su ehtiyatları ətraflı şəkildə araşdırılıb. Monitorinqlər aktlar, fotolar, peyk təsvirləri və xəritələr əsasında aparılıb və işğal dövründə ərazilərə dəymiş ziyan qiymətləndirilib. Nəticələr göstərib ki, meşə və qeyri-meşə yaşıllıqlar, həmçinin su resursları işğal dövründə ciddi zərər görüb.

Azad edilmiş torpaqlarda ekoloji bərpa tədbirləri geniş miqyasda həyata keçirilib. Xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyəti bərpa olunub, yeni yaşıllıq sahələri salınıb, meşəbərpa layihələri və fauna növlərinin reintroduksiyası aparılıb.

*Ardı 5-ci səh.*





**“Böyük qayıdış”**
**proqramı sürətlə icra olunur**





# Bərpa və inkişaf strategiyası

*Əvvəli 4-cü səh.*

Qarabağ və Şərqi Zəngəzur üzrə "Ağıllı Tinglik Təsərrüfatı", "Dostluq meşəsi" və beynəlxalq meşəçilik təlim mərkəzləri yaradılıb. Eyni zamanda su bioresurslarının artırılması məqsədilə çay və su anbarlarında milyonlarla balıq körpəsi buraxılıb. Hidroloji və ekoloji monitorinqlər çərçivəsində işğaldan azad edilmiş ərazilərdən axan transsərhəd çaylarda ağır metallarla çirklənmə səviyyəsi izlənir. Mineral-xammal yataqlarının geoloji qiymətləndirməsi aparılıb, 142 yataqda işlər tamamlanıb.



Torpaq, su, biomüxtəliflik və radiasiya fonu üzrə monitorinqlər aparılıb, nadir və yabanı bitki növləri, o cümlədən dərman və qida bitkiləri qeydiyyata alınıb. "Qarabağın nadir və nəsli kəsilməkdə olan növləri" kitabı hazırlanıb, konfrans və ekspedisiyalar təşkil olunub, ekosistemlərdə antropogen təsirlər və iqlim dəyişiklikləri araşdırılıb. Bu tədbirlər regionun ekoloji dayanıqlılığının təmin edilməsinə, təbiət resurslarının qorunmasına və uzunmüddətli bərpasına xidmət edir.

### Elm, təhsil və mədəniyyət sahələrində görülən işlər

İşğaldan azad edilmiş ərazilərdə elm, təhsil və mədəniyyət sahələrinin bərpası da dövlətin prioritet istiqamətlərindən olub. Bu dövrdə mədəni irsin qorunması, təhsil infrastrukturu, dini və mədəni abidələrin restavrasiyası və konservasiyası üzrə ardıcıl tədbirlər həyata keçirilib.

Mədəniyyət sahəsində Vaqif Poeziya Günləri, "Xarıbülbül" festivalı və "Şuşa ili" proqramları bərpa edilərək hər il keçirilir. "Məclisi-üns" və "Şuşa Yaradıcılıq Emalatxanası" layihələri və 100-dən artıq beynəlxalq və regional tədbir təşkil olunub. Tam və ya qismən dağıdılmış muzeylər bərpa edilib, işğal və zəfər muzeyi kompleksi üçün 9 konsepsiya hazırlanıb, 6-sı layihələndirilib. Dövlət mühafizəsində olan 705 abidədən 550-də inventarlaşdırma aparılıb, 402 yeni abidə aşkarlanıb və 44-nə rəsmi status verilib. Ağdamda Xurşidbanu Natəvanın qəbirüstü abidəsi, "Şirin su" hamamı və "İmarət" Tarix-Memarlıq Kompleksi bərpa edilib. UNESCO və ICESCO ilə əməkdaşlıq nəticəsində bir sıra ərazilər beynəlxalq irs siyahılarına daxil edilib.

19 ümumi, 13 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Onlardan 16 ümumi və 7 məktəbəqədər təhsil müəssisəsi hazırda fəaliyyət göstərir. Təhsil müəssisələrində 3700-ə yaxın şagird və 260-dan çox uşaq təhsil alır, ümumilikdə 500 müəllim və texniki işçi fəaliyyət göstərir.




2023-cü ildən Qarabağ Universiteti bölgənin ali təhsil mərkəzinə çevrilib. Universitetdə 34 bakalavr ixtisası üzrə təhsil verilir. Hazırda təhsil müəssisəsində 2152 tələbə təhsil alır, 400 nəfər akademik və inzibati heyət çalışır, 14 laboratoriya və 3 kitabxana, 5 mərkəz fəaliyyət göstərir.

Dini abidələr bərpa edilərək Şuşa, Ağdam və Zəngilan şəhərlərində tarixi məscidlər təmir olunub, Şuşa, Suqovuşan, Daşaltı və Hadrut qəsəbələrində yeni məscidlər inşa edilir.

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa, yenidənqurma və inkişaf tədbirləri təkcə infrastrukturun deyil, milli kimliyin və mədəni yaddaşın dirçəldilməsinə xidmət edir. Elm, təhsil, mədəni və dini irsin bərpası, yeni sosial mühitin formalaşması və əhalinin mərhələli şəkildə doğma torpaqlara qayıdışı Azərbaycanın dövlətçilik iradəsinin təntənəsidir. Qarabağda və Şərqi Zəngəzurda aparılan bu sistemli və məqsədyönlü siyasət regionu sülh, sabitlik və tərəqqi məkanına çevirərək, ölkənin dayanıqlı inkişaf strategiyasının canlı nümunəsidir.

### Nəqliyyat və rabitə sahələrində görülmüş işlər

İşğaldan azad edilmiş ərazilərdə 2020-2025-ci illərdə nəqliyyat infrastrukturu üzrə də böyük layihələr icra olunub. Füzuli, Zəngilan və Laçında beynəlxalq standartlara uyğun hava limanları inşa edilərək istifadəyə verilib. Bu limanlara IATA kodları verilib və rəsmi açılış mərasimləri Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilib. Bərdə-Ağdam, Horadiz-Ağbənd və Ağdam-Xankəndi dəmir yolu xətləri üzrə layihələndirmə və tikinti işləri aparılıb. Bərdə-Ağdam dəmir yolu xətti tam istifadəyə verilib. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün tikintisi planlaşdırılıb, onlardan 42 körpünün tikintisi başa çatıb, 3 körpü istismara verilib. Avtomobil yolları infrastrukturunda isə 60 layihə üzrə 3501,6 kilometr yolun tikintisi nəzərdə tutulub, bunlardan 16 layihə tam, 1 layihə qismən başa çatıb. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq başa çatıb. Ərazidə 19 marşrut xətti təşkil edilərək, ziyarət xarakterli səfərlər üçün "yolumuzqarabaga.az" portalı üzərindən bilet əldə etmək imkanı yaradılıb.



Rabitə sahəsində isə telekommunikasiya, poçt və internet xidmətlərinin təşkili məqsədilə tədbirlər görülüb. 19 yaşayış məntəqəsi GPON texnologiyası ilə sürətli internet, telefon və İP TV xidmətlərinə qoşulub, 470 km uzunluğunda fiber-optik kabel xətləri çəkilib. Mobil rabitə sahəsində 356 baza stansiyası fəaliyyət göstərir və onlardan 35-i günəş enerjisi ilə işləyən "yaşıl stansiyalar" hesab olunur. Poçt xidmətləri üzrə 7 məntəqədə poçt şöbələri açılıb, səyyar xidmətlər göstərilir. Televiziya və radio proqramlarının yayımı üçün 8 radio-televiziya yayım stansiyası bərpa edilib və əhatə dairəsi genişləndirilib.

Bu nəqliyyat layihələri Prezident İlham Əliyevin strateji baxışına uyğun olaraq Qarabağın, Şərqi Zəngəzurun regional və qlobal bağlantılarının tam bərpasına xidmət edir.

### İşğaldan azad ərazilərin bərpasına dair məlumatlandırma təşəbbüsləri

Son beş ildə "Prezidentin izi ilə" layihəsi daxil olmaqla, həmin ərazilərə 400-dən çox mediatur baş tutub, onların təxminən 60-ı xarici media nümayəndələrinin iştirakı ilə keçirilib. Postmünaqişə dövründə Qarabağ və Şərqi Zəngəzurun bərpası barədə məlumatlılığın artırılması məqsədilə Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə 20-dən çox səfəri təşkil edilib.

Gənclər, tələbələr və ictimai fəallar üçün 100-dən çox infotur təşkil olunub. Bərpa-quruculuq işləri ilə tanışlıq məqsədilə dünyanın aparıcı səyahətçilər klublarının xətti ilə 15 səfər həyata keçirilib. Bu səfərlərdə 52 ölkədən 550-dən çox xarici səyyah iştirak edib. Onlar Füzuli, Xocavənd, Şuşa və Ağdamda işğal dövrünün vandalizm izlərini və bərpa proseslərini yerində müşahidə ediblər və 150 milyondan çox izləyicisi olan sosial media resurslarında paylaşımlar ediblər.



2022-ci ildən hər il keçirilən Şuşa Qlobal Media Forumu Böyük qayıdışın kommunikasiya xəritəsində mühüm rol oynayır. Forum media mütəxəssisləri arasında fikir və təcrübə mübadiləsi aparmaqla yanaşı, regionun yenidənqurma prosesinin beynəlxalq tanıdılmasına töhfə verir. Üç il ərzində 70 ölkədən 750-dən çox media rəhbəri və nümayəndəsi tədbirdə iştirak edib. Forum çərçivəsində mediaturlar, panel müzakirələri və təlim sessiyaları təşkil olunub.

Mina və partlamamış hərbi sursatlar barədə təhlükəsizlik biliklərini artırmaq məqsədilə 500 mindən çox insanı əhatə edən 357 maarifləndirici kampaniya həyata keçirilib. Ümumilikdə isə təlimlər, təbliğat materiallarının paylanması və ictimai tədbirlər daxil olmaqla, müxtəlif mövzular üzrə 1400-dən çox maarifləndirmə tədbiri təşkil edilib.

Bir sözlə, 2020-ci il Vətən müharibəsindən sonra işğaldan azad ərazilərimizdə aparılan bərpa, yenidənqurma və reinteqrasiya tədbirləri Azərbaycanın postmünaqişə dövründə dövlətçilik iradəsinin, strateji planlaşdırma qabiliyyətinin və milli birliyinin parlaq təzahürüdür. Elm, təhsil, mədəniyyət, su təsərrüfatı, enerji, nəqliyyat, turizm və iqtisadiyyatın digər sahələrində həyata keçirilən kompleks layihələr təkcə regionun sosial-iqtisadi dirçəlişini təmin etməklə qalmayıb, həm də əhalinin doğma torpaqlara qayıdışı üçün möhkəm və dayanıqlı baza formalaşdırıb. Qarabağ və Şərqi Zəngəzuru sülhün, tərəqqinin və innovasiyanın rəmzinə çevrilir. Bu gün həmin torpaqlarda təkcə şəhərlər və kəndlər deyil, həm də ümid, birlik və müasir Azərbaycanın gələcəyi inşa olunur. Qarabağ və Şərqi Zəngəzur bərpadan dirçəlişə, dirçəlişdən inkişaf zirvəsinə aparan tarixi yolun canlı simvoludur.

Böyük qayıdış çərçivəsində həyata keçirilən genişmiqyaslı işlər Azərbaycanın iqtisadi, sosial və institusional dayanıqlılığını möhkəmləndirib, daxili inkişaf və sabitlik mühiti ölkəmizin xarici siyasətdə təşəbbüskar və etibarlı tərəfdaş kimi çıxış etməsinə mühüm töhfə verib. Ölkəmizin nailiyyətləri yalnız daxildə deyil, eyni zamanda beynəlxalq arenada da nəzərəçarpandır. Prezident İlham Əliyevin qətiyyətli siyasi-diplomatik fəaliyyəti və sülh gündəliyinin inkişafı istiqamətindəki misilsiz uğurları Azərbaycanın qlobal mövqeyini daha da möhkəmləndirib, regionda davamlı sülh və əməkdaşlıq üçün geniş imkanlar yaradıb.

# Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri dayanıqlı sosial-iqtisadi inkişafı təmin edir

Ölkəmizin sosial-iqtisadi inkişafını müəyyən edən beş Milli Prioritetdən biri olan işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin rayonlarda genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Müasir infrastrukturun qurulması, yeni yaşayış məntəqələrinin inşası və keçmiş məcburi köçkünlərin doğma torpaqlarına təhlükəsiz və rahat qayıdışının təmin edilməsi istiqamətində tədbirlər yüksək sürətlə davam etdirilir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Zəngilan şəhərində keçirilən və Qərargahın 5 illik fəaliyyətinə həsr olunan iclasda səsləndirilən fikirlər də bunu bir daha sübut edir.



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Sahəvi proqramların monitorinqi sektorunun baş məsləhətçisi Yusif Məmmədov AZƏRTAC-a şərhində bildirib ki, işğaldan azad edilmiş ərazilərdə reallaşdırılan genişmiqyaslı infrastruktur layihələri ölkədaxili yol şəbəkəsinin modernləşdirilməsi, nəqliyyat əlaqələrinin şaxələndirilməsi və ölkəmizin regional tranzit mərkəzi kimi mövqeyinin daha da möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, bu layihələr həm iqtisadi fəallığın sürətli bərpasını və investisiya axınının genişlənməsini təmin edir, həm də ərazilərin mərhələli şəkildə məskunlaşdırılması üçün dayanıqlı sosial-iqtisadi baza formalaşdırır. O bildirib ki, Zəngəzur dəhlizində aparılan işlər isə ölkənin nəqliyyat-logistika imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək, tranzit potensialını daha da gücləndirəcək, Azərbaycanın regional və qlobal əməkdaşlıq perspektivlərini yeni mərhələyə yüksəldəcək.

Yusif Məmmədovun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərdə sənaye parklarının sürətli inkişafı bölgənin iqtisadi canlanmasını və rəqabətqabiliyyətli inkişafını gücləndirərək yüz milyonlarla manatlıq investisiyaların cəlb edilməsinə, yeni iş yerlərinin yaradılmasına və istehsalın həm daxili tələbat, həm də ixrac imkanları üzrə əhəmiyyətli genişlənməsinə şərait yaradacaq.

"Bundan əlavə, kommunal infrastrukturun bərpası üzrə həyata keçirilən genişmiqyaslı layihələr bölgənin sosial-iqtisadi inkişafını sürətləndirir və əhalinin rahat yaşayışı üçün zəruri şəraiti təmin edir. Eyni zamanda, azad edilmiş rayonlarda sosial infrastruktur obyektlərinin istifadəyə verilməsi məskunlaşmanın sürətlənməsinə, əhalinin rifahının yüksəlməsinə və bölgədə uzunmüddətli yaşayışın təmin edilməsinə mühüm töhfə verir.

Azad edilmiş rayonların münbit torpaq və əlverişli iqlim şəraiti ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı üçün geniş imkanlar yaradır və bu potensialdan səmərəli istifadə olunması istiqamətində əhəmiyyətli işlər həyata keçirilir. Regionda müasir suvarma sistemlərinin qurulması, heyvandarlıq komplekslərinin yaradılması və intensiv bağçılıq təsərrüfatlarının inkişafı Qarabağ və Şərqi Zəngəzurun təbii iqlim potensialından səmərəli istifadənin təmin olunmasına xidmət edir. Bütün bunlar kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsi, resursların rasional idarə olunması və rəqabətqabiliyyətli, yüksək əlavə dəyər yaradan istehsalın formalaşması baxımından regionun sürətli inkişafının bariz göstəricisidir. İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində mühüm addımlar atılır, investorlar üçün əlverişli biznes mühiti formalaşdırılır və yerli istehsal sahələrinin bərpasına dəstək göstərilir. Məşğulluğun artırılması məqsədilə yeni istehsal və xidmət müəssisələrinin yaradılması bölgədə iqtisadi canlanmanı və əhalinin iş imkanlarını genişləndirir.

Bütün bu görülən işlər bərpa və inkişaf prosesinin real nəticələrini ortaya qoymaqla yanaşı, dövlətimizin başçısının azad olunmuş ərazilərin dirçəldilməsinə yönəlmiş siyasətinin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyini, eləcə də bu sahəyə xüsusi diqqətin olduğunu nümayiş etdirir. Uğurla reallaşdırılan dövlət proqramları və layihələrin nəticəsi olaraq, bu gün işğaldan azad edilmiş ərazilərdə dövlət və özəl sektorda çalışanlar, eləcə də təhsil alanlar daxil olmaqla 62 mindən artıq insanın yaşayışı və fəaliyyəti təmin olunub",- deyə Y.Məmmədov qeyd edib.

İİTKM-in eksperti əlavə edib ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq layihələri Qarabağ və Şərqi Zəngəzurun ölkə iqtisadiyyatına inteqrasiyasını sürətləndirir, regionun müasir inkişaf modelinə uyğun şəkildə formalaşmasına şərait yaradır və Azərbaycanın dayanıqlı sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfə verir.

# Xocalının Şuşakənd kəndinə və Xocavəndin Hadrut qəsəbəsinə növbəti köç karvanı yola salınıb




İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam edir. Noyabrın 20-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Xocalının Şuşakənd kəndinə yola salınıb.

AZƏRTAC xəbər verir ki, Şuşakənd kəndinə bu mərhələdə 15 ailə köçürülür, 54 nəfər keçmiş məcburi köçkünün yurd həsrəti sona çatır. Köçürülmə prosesi Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində əlaqədar dövlət qurumlarının birgə fəaliyyəti ilə həyata keçirilir.

❖ ❖ ❖



Xocavəndin Hadrut qəsəbəsinə yola salınan 17 ailə olmaqla 63 nəfər doğma yurdlarına qovuşub. Onlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Hadruta köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək öz evlərində məskunlaşıblar.

## Yeni Azərbaycan Partiyasının yaradılmasından 33 il keçir

# Xalqın etimadını layiqincə doğruldan partiya



**Yeni Azərbaycan Partiyası müasir Azərbaycanın siyasi həyatının hərəkətverici qüvvəsidir. Partiyanın yaradılmasından 33 il keçir. Biz bu tarixləri qeyd edərkən o dövrün siyasi şəraitinə bir daha nəzər salırıq. YAP-ın yaradılmasını şərtləndirən şəraiti öyrənməklə onun müasir Azərbaycanın tarixində nə qədər önəmli yer tutduğunu bir daha dərk edirik. Çünki bu hadisələrin mərkəzində dünyaşöhrətli siyasətçi, Ümummilli Lider Heydər Əliyev olmuşdu.**

**Hadisələrin xronologiyasına nəzər salaq. 1985-ci ilin mart ayında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi seçilən M.S.Qorbaçov Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevi özünə rəqib gördüyü üçün onu siyasi hakimiyyətdən uzaqlaşdırmaq yolu tutdu. Nəticədə Sov.İKP MK-nın 1987-ci il oktyabr plenumunda Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən istefa verdi. M.S.Qorbaçov nədən Heydər Əliyevi rəqib görürdü?**

YAP-ın I Qurultayında mərhum Sirus Təbrizlinin "Heydər Əliyev SSRİ-nin rəhbəri ola bilərdi" fikirlərinə Heydər Əliyev münasibət bildirərkən söyləmişdir: "Sirus Təbrizli dedi ki, Heydər Əliyev vaxtilə sovet dövlətinin başında duran adamlardan biri idi və bir zaman Sovet İttifaqının başçısı vəfat edəndən sonra Heydər Əliyev Sovet İttifaqının başçısı ola bilərdi. Bəli, Sirus Təbrizlinin sözləri həqiqətdir. O, bunu havadan götürməyibdir. O vaxtı bir dəfə yox, dalbadal hər il Sovet İttifaqının başçıları vəfat edirdilər: 1982-ci ildə Brejnev, 1983-cü ildə Andropov, 1984-cü ildə Çernenko. Həmin o zamanlar həqiqətən mənim belə bir vəzifə tutmaq ehtimalım var idi və bunu istəyənlər də çox idi. Ancaq hörmətli Sirus Təbrizli, heyifsilənmə ki, bu olmayıbdır. Mən heç vaxt heyifsilənmirəm. Amma onunla fəxr edirəm ki, tarixdə mən Azərbaycanın adını bir təbəqə yüksəklərə qaldıra bilmişəm".

Heydər Əliyev Siyasi Bürodan istefa verdikdən sonra Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadənin təbiri ilə desək, bununla da Kremldəki yeganə və ən böyük qalamız yıxıldı. Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması, hər şeydən əvvəl, ermənipərəst M.S.Qorbaçovun Azərbaycana qarşı çirkin siyasətini gerçəkləşdirmək üçün qabaqcadan düşünülmüş planlarını həyata keçirmək kimi niyyətindən irəli gəlirdi. Heydər Əliyev bu barədə deyib: "Siyasi Bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbekyan Parisdə keçirdiyi bir mətbuat konfransında "Dağlıq Qarabağ Ermənistana verilməlidir" demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdı. Moskvanın "Qarabağ əməliyyatı" mənim Siyasi Bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm".

M.Qorbaçovun əsas məqsədlərindən biri də Heydər Əliyevin Azərbaycanda başlamış milli azadlıq hərəkatına qoşulmasına mane olmaq idi. O bilirdi ki, Heydər Əliyevin bu hərəkata qoşulması hadisələri sürətləndirəcək. Belə bir məqamda o, 1990-cı ilin yanvar ayında Bakıya qoşun yeridərək xalqın azadlıq hərəkatını boğmağa çalışdı.

Heydər Əliyev siyasi fəaliyyətdən təcrid edilmiş vəziyyətdə olmasına baxmayaraq, törədilmiş bu ağır faciəyə laqeyd qalmadı. Qanlı 20 Yanvar faciəsinin ertəsi günü həyatını riskə ataraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi, bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb etdi.

Heydər Əliyevin bu fəaliyyəti Azərbaycan hakimiyyətində olan manqurtları narahat edirdi. Onlar bu fəaliyyəti görməzlikdən gəlməklə Heydər Əliyev böyüklüyünü gizlətməyə çalışır, Qorbaçov tərəfindən irəli sürülmüş təcridetmə siyasətinə kölə kimi xidmət edirdilər.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyevin Bakıda qalmasına həmin dövrün siyasi hakimiyyəti bütün cəhdlə mane oldu. Hətta Bakıda hava limanında onun həyatına sui-qəsd cəhdi edildi. Heydər Əliyev Bakını tərk etmək məcburiyyətində qalaraq Naxçıvana getməli oldu. Bir müddətdən sonra yerli əhali Heydər Əliyevin Naxçıvan Ali Məclisinə alternativsiz olaraq namizədliyini irəli sürdü və o, deputat seçildi.

Heydər Əliyev Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi. Hakimiyyət iddiasında olan bütün qüvvələr Heydər Əliyevin böyük siyasətə qayıdışını istəmirdilər. Amma artıq Heydər Əliyev Naxçıvan Ali Məclisindəki fəaliyyəti ilə özünün müstəqillik ideyalarını gerçəkləşdirməyə başlamışdı. Müstəqil yaşaya bilməyəcəyimizlə bağlı fikirləri dəstəkləyən Ayaz Mütəllibov Azərbaycanın formal olaraq prezidenti seçilməklə ittifaqın bərpa olunmasına çalışırdı. O vaxt "Biz müstəqil yaşamağa qadirikmi?" ritorik sualı qarşısında siyasi qüvvələr iki hissəyə bölünmüşdü. Bir tərəfdə, qeyd etdiyimiz kimi, müstəqillik carçılarının lideri Heydər Əliyev, digər tərəfdə isə köləlik sevdalıları mütəllibovçular dururdu. Heydər Əliyev tarixi şüura söykənən bu məsələyə birmənalı qiymət verirdi - Azərbaycan müstəqil olmağa qadirdir.

AXC üzvləri isə cidd-cəhdlə hakimiyyətə gəlmək istəyirdilər. Yeni ittifaq müqaviləsinin Azərbaycanın Ali Sovetində müzakirəsi aparılırdı. Bu ərəfədə Ali Sovet o dövrdəki hakimiyyəti və Moskvanı müdafiə etmək məqsədilə bir çox qeyri-demokratik qərar qəbul etdi. Bunlardan biri də Heydər Əliyevin siyasi fəaliyyətinə imkan verməmək üçün Naxçıvan MR parlamenti sədrinin Azərbaycan parlamenti sədrinin müavini olması qaydasının ləğv edilməsi idi. Sonrakı addım prezident seçkisi üçün yaş senzinin müəyyənləşdirilməsi oldu. Təəssüf ki, bu dövrdə "demokratik" cəbhəni təmsil edənlər sonradan hakimiyyətləri dövründə də öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirə bilmədilər və əvvəlki hakimiyyətin uğursuz yolunu davam etdirdilər.

Prezident seçkisi ərəfəsində o dövrün mətbuat səhifələrinə baxmaq kifayət edər ki, Azərbaycanın ayrı-ayrı bölgələrində Heydər Əliyevin namizədliyini irəli sürən təşəbbüs qruplarının məlumatlarına rast gələk. Lakin A.Mütəllibov tərəfindən irəli atılmış "yaş senzi" maneəsi AXC hakimiyyətinin də işinə yaradı.

Bütün təzyiqlərə baxmayaraq, Heydər Əliyev 7 mart 1991-ci il tarixdə Ali Sovetin sessiyasında ittifaq müqaviləsinin rədd olunmasını təkidlə tələb edərək, Azərbaycanın yolunun yalnız müstəqillik olduğunu bildirmişdi. Heydər Əliyev o zaman demişdi: "Yeni ittifaq müqaviləsi ilə əlaqədar olaraq təyin olunmuş referendumda iştirak etmək və ya etməmək çox mühüm məsələdir. Azərbaycan xalqının gələcək taleyi həll olunur. Ona görə də mülahizə və təkliflərimi mən də bildirmək istəyirəm. Fəqət son illərdə dünyada, ölkədə gedən ictimai, siyasi proseslər keçmişimizə münasibəti, ümumi dünyagörüşünü dəyişdirmiş, Sovet İttifaqında mərkəzlə respublikalar arasında olan iqtisadi, siyasi əlaqələr açılmış, çılpaqlaşmış, hansı tərəfin daha çox xeyir götürdüyü, zərər çəkdiyi aydınlaşmışdır. Bir neçə respublikada baş vermiş milli demokratik hərəkatların ittifaq dövləti tərəfindən zorakılıqla, hərbi qoşun hissələri vasitəsilə boğulması tədbirləri ittifaqın imperiya siyasəti apardığını tam aşkar etmişdir. İttifaq dağılmağa başlamışdır".

Heydər Əliyev bu tarixi çıxışında SSRİ rəhbərliyində olmuş bir şəxs kimi sovetlər birliyinin siyasi anatomiyasını açaraq onun imperialist bir dövlət olduğunu ifşa etdi. SSRİ-nin rəhbəri M.Qorbaçovun əsl niyyətini ifşa edən Heydər Əliyev deyirdi: "Ölkənin rəhbərliyi yetmiş il mövcud olan ittifaqın yararsız olduğunu bəyan edərək, respublikaları yeni ittifaq yaratmağa dəvət edir. Qorbaçov bir neçə çıxışında hətta belə demişdir ki, guya ölkədə indiyə qədər həqiqi ittifaq olmayıb, respublikalar heç də ittifaqda yaşamayıb, əsl ittifaq bundan sonra yaranacaqdır. Həqiqəti isə desək, yeni ittifaq müqaviləsinin layihəsi əvvəlkindən də yararsızdır".

Yeni Azərbaycan Partiyasının yaradılması zərurətindən danışarkən yaş senzinə qarşı mübarizədə fəallıq edən vətənsevər, cəsarət sahibi olan şəxslərin fəaliyyətini qeyd etməmək mümkün deyil. "Yaş senzi" maneəsi yaratmağa çalışan bəzi qüvvələr xalqın Heydər Əliyevin hakimiyyətə qayıdışı tələbinin gerçəkləşməsinin qarşısını almağa cəhd edirdilər. Ağır vəziyyətə dözməyən insanlar qondarma yaş senzinin ləğvi üçün respublikanın müxtəlif bölgələrində mitinqlər təşkil edir, dahi dövlət xadiminin yenidən böyük siyasətə qayıdışını tələb edirdilər. Yaddaqalan əsas məqamlardan biri də bu oldu ki, mübariz insanlar etiraz aksiyaları təşkil etməklə heç kimdən çəkinmədən, hətta repressiya təhlükəsinin olmasına baxmayaraq, öz mübarizələrini sona qədər davam etdirdilər. O dövrün mətbuatını izlədikcə vəziyyətin nə dərəcədə eybəcər olduğunu görməmək mümkün deyil. Mətbuatda "yaş senzi"nə qarşı etiraz edənlər lağa qoyulur, onlara istehza edilirdi.

Azərbaycanın vətənpərvər gəncliyi də Heydər Əliyev dühasının xalqımızı bu fəlakətli vəziyyətdən qurtara biləcəyini düşünürdü. Azərbaycanın yetkin düşüncəli gəncliyi təhdidlərə baxmayaraq, öz işıqlı gələcəyinin dalınca gedirdi. Bir tərəfdən Moskvaya müti qul kimi xidmət edənlər, digər tərəfdən hakimiyyətə can atan AXC-Müsavat cütlüyü Heydər Əliyev fenomenini görməzdən gəlməyə çalışır, onun heç cür siyasət səhnəsinə qayıtmasını istəmirdilər. Hadisələrin gedişi isə xalqın gerçək liderinin gəlişinə zəmin yaradırdı.

16 oktyabr 1992-ci il tarixdə Azərbaycanın 91 ziyalısı Heydər Əliyevə mətbuatda müraciət etdi. Sözügedən müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Məlum olduğu kimi, müstəqilliyin ilk illərində respublikamızda xaos, anarxiya yaranmış və daxili çəkişmələr özünün pik nöqtəsinə çatmışdı. Təbii ki, Ulu Öndər Heydər Əliyevin xalq tərəfindən təkidlə hakimiyyətə dəvət edilməsinin çox səbəbləri var idi. 1970-80-ci illərdə gördüyü böyük işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq missiyası, ən ağır məqamlarda daim xalqla birlikdə olması, cəsarət göstərərək 20 Yanvar hadisələrinə qiymət verməsi, Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə bu bölgəmizin düşməndən qorunması, 3 sentyabr 1991-ci il sessiyasında Naxçıvan Ali Sovetində "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edilərək Kommunist Partiyasının fəaliyyətinin dayandırılması haqqındakı qərar, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında dövlət bayrağı kimi qəbul edilməsi, Naxçıvan MSSR adından "Sovet Sosialist" sözlərinin çıxarılması və sairə onun 1993-cü ildə xilaskarlıq missiyasını da uğurla həyata keçirəcəyinə inamı daha da artırırdı.

Vəziyyət o qədər gərgin və idarəolunmaz idi ki, hətta o zaman ölkəyə "rəhbərlik" edən "kor" qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu Öndər Heydər Əliyevin Bakıya gəlməsini çox ağır vəziyyətdən yeganə çıxış yolu kimi dəyərləndirirdilər. Heydər Əliyev o illər siyasətə qayıtmaq istəyində olmasa da, respublikanın siyasi-ictimai həyatındakı gərgin proseslər onu həddindən artıq narahat edirdi. Real vəziyyəti bir daha dərindən və hərtərəfli təhlil edən Naxçıvan Ali Məclisinin sədri xalqın taleyi üçün narahat olan ziyalıların müraciətini cavabsız qoymadı. Beləliklə, Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasına və sədrlik etməsinə razılıq verdi. Onun respublika ziyalılarının müraciətinə cavabı Heydər Əliyev şəxsiyyətinin əqidə manifestidir.

Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılığını belə ifadə etmişdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".

Bundan sonra 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirilən konfransda Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya sədr seçilməsi respublikanın siyasi həyatında canlanma yaratdı. Lakin yenə də maneələr davam edirdi. Amma YAP-ı siyasi sferada məhdudlaşdırmaq cəhdləri uğursuzluğa düçar oldu. Artıq geniş xalq kütləsi böyük siyasət adamının meydanda olmasını sevinclə qarşılayır və gələcəyə ümidləri artırdı. Xalq Yeni Azərbaycan Partiyasını geniş şəkildə dəstəkləməyə başladı. Həmin tarixi hadisələri dəyərləndirən Ulu Öndər Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".

Yeni Azərbaycan Partiyası Heydər Əliyev dühasına fokuslansa da, geniş xalq kütlələrinin səsi sosial sifariş idi. Heydər Əliyev bu barədə demişdir: "Çıxışlarda tamamilə düzgün qeyd edildi ki, bu partiyani bir adam yox, o illərdə Azarbaycanın agır vəziyyətini görən, buna dözə bilməyən va bu agir vəziyyətdən çıxış yolunu axtaran insanlar və xüsusən ziyalılar hamısı birlikdə yaradıblar".

Xalqın Ümummilli Lider Heydər Əliyevə olan inamı isə tez bir zamanda siyasi səhnədə parlayan YAP-ın tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan yaratdı. Azərbaycan xalqının Heydər Əliyevə göstərdiyi yüksək etimad YAP-ın qısa zamanda təşkilatlanmasına, ölkənin bütün regionlarında dayaqlarının yaranmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Xalqın inamı və sevgisi nəticəsində partiyanın yaradılmasından 7 ay sonra Heydər Əliyev siyasi hakimiyyətə gəldi.

Bu, nadir hadisələrdən biri kimi Azərbaycan siyasi tarixinə yazıldı. Xalqını və dövlətini hər şeydən üstün tutan dahi liderin iyunun 9-da Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. Onun bu seçimi çox siyasətçilərə müyəssər olmayan mənəviyyat seçimi idi. Ümummilli Lider Azərbaycan dövlətçiliyini xilas etdi, onun növbəti yüksəlişinin əsasını qoydu. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra cəmiyyətimizin bütün sahələrində - siyasi, iqtisadi və mədəni sahələrdə baş verən cahanşümul transformasiya prosesləri Azərbaycanın dünya birliyində tanınmasına və özünəlayiq yer tutmasına güclü təkan verdi.

Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi prioritetlər partiyanın Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulması, ictimai-siyasi sabitlik, milli həmrəyliyinin, sosialyönümlü iqtisadiyyatının formalaşmasında əsas fəaliyyət istiqaməti olmuşdur.

Yeni Azərbaycan Partiyası həm də siyasi varisliyin ən gözəl nümunəsidir. Layiqli varis İlham Əliyev bütün platformalarda olduğu kimi, partiya fəaliyyətində də Ümummilli Lider Heydər Əliyevin siyasi xəttini və partiyanın monolitliyini qoruyub saxladı. Bütün bunlar dahi siyasətçi Heydər Əliyevin adı ilə bağlı idi. Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyev partiyanın VII Qurultayında çıxış edərək bu barədə deyib: "Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi".

1993-cü ildə ölkə gənclərinin bir qrup nümayəndəsi ilə görüşdə Ulu Öndər bildirmişdir: "Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik".

2005-ci ilin martında keçirilən YAP-ın III Qurultayında Azərbaycan Prezidenti, YAP Sədrinin birinci müavini cənab İlham Əliyevin partiyanın sədri seçilməsi ilə Heydər Əliyevin gənclərə yönəlik fikirləri daha çox gerçəkləşməyə başladı. Prezident İlham Əliyevin YAP-ın Sədri seçilməsindən sonra gənclər partiyaya daha çox maraq göstərməyə başladılar. Bundan sonra partiyada gənclərin sayı artmağa başladı. Təsadüfi deyil ki, bu gün partiya üzvlərinin 300 minə yaxın hissəsini gənclər təşkil edir.

Heydər Əliyev şəxsiyyətinin gücü hər kəsə yaxşı bəllidir. Bu güc xalqın gücü ilə birləşdikdən sonra qarşısıalınmaz bir qüvvəyə çevrildi və dağılmaq üzrə olan bir məmləkət sabitlik və quruculuq dövrünə qədəm qoydu. Bu gün Heydər Əliyev ideyaları və siyasi kursuna daim sədaqətlə xidmət edən 730 mindən çox üzvü olan YAP təkcə Azərbaycanın yox, bütövlükdə, regionun ən güclü siyasi partiyasıdır.

YAP-ın siyasi həyatında Birinci vitse-prezident Mehriban Əliyevanın rolu da danılmazdır. Mehriban Əliyevanın partiya sıralarında yüksək səviyyədə təmsil olunması Azərbaycanda humanizm prinsiplərinin daha da genişlənməsinə böyük bir töhfədir.

Prezident İlham Əliyevin 2018-ci il mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda müstəqillik haqqındakı sözləri çox düşündürücüdür. Dövlət başçısı demişdir: "Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir".

Danılmaz faktdır ki, müasir, müstəqil Azərbaycanın həyatının ən möhtəşəm anlarını, uğurlarını və tarixi qələbələrini məhz YAP-ın yaradıcısı, Ümummilli Liderimiz Heydər Əliyev və onun layiqli varisi cənab İlham Əliyev yazıb. Ümummilli Lider müstəqil Azərbaycan dövlətini qurdu, onun layiqli davamçısı isə torpaqlarımızı 30 illik işğaldan xilas etdi. Dünya hərb və diplomatiya cəbhəsində cənab İlham Əliyevin liderliyini, sərkərdəlik nümunəsini əyani surətdə gördü. Cənab İlham Əliyev nəinki Cənubi Qafqaz regionunun, eyni zamanda müasir dünyanın taleyində mühüm rol oynayan liderlərdən biri kimi qəbul olunur. Bu gün nəinki YAP üzvləri, bütün xalqımız cənab İlham Əliyevin rəhbərliyi, yüksək səviyyədə yerinə yetirdiyi tarixi sərkərdə missiyası nəticəsində tariximizin ən şərəfli anlarını yaşamasından qürur duyur. Tarix isə öz şərəf səhifəsinə Ali Baş Komandanımızın adını qızıl hərflərlə əbədi həkk etmişdir.

Həyat isə davam edir, qarşıda bizi yeni zəfərlər gözləyir. Fikrimi Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyində Qərbi Azərbaycanla bağlı dediyi fikirlərlə tamamlamaq istəyirəm: "...Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda Azərbaycan alimləri mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir. Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimayyəti bilsin və eyni zamanda indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var. Bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərə də böyük ehtiyac var. Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var".

*Xalqın etimadını layiqincə doğruldan YAP-ın tarixi də müstəqil Azərbaycanın çağdaş siyasi tarixinin qızıl səhifələrindəndir. Unudulmaz liderimiz, böyük dövlət adamı Heydər Əliyevin adı ilə bağlı olan, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasi varisliyi ilə fəaliyyətini davam etdirən bu partiya Azərbaycanımızın yüksəlişinə bundan sonra da töhfələrini verəcək.*

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar,***
***energetika və ekologiya komitəsinin sədri***

# Yeni Azərbaycan Partiyasının yaradılmasından 33 il keçir

**1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransı ilə rəsmi fəaliyyətinə başlayan Yeni Azərbaycan Partiyasının (YAP) siyasi meydana daxil olması Azərbaycanın müstəqillik tarixinin mühüm hadisəsidir. YAP-ın yaranması xalqımızın həm milli birliyini möhkəmləndirmək, həm də müstəqil dövlətimizin siyasi sabitliyini qorumaq baxımından tarixi əhəmiyyət kəsb etdi.**



## Yarandığı gündən etimadı doğruldan avanqard partiya

Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmiz ağır siyasi və iqtisadi böhranla üzləşmişdi. Qeyri-stabil şərait və təhlükəli proseslər gedən mürəkkəb vəziyyətdə Azərbaycanın gələcəyini düşünən ziyalılar ölkəni böhrandan çıxara biləcək yeni siyasi təşkilat yaratmaq təşəbbüsü ilə çıxış etdilər.

"91-lər"in Ulu Öndər Heydər Əliyevə ünvanladığı müraciət bu təşəbbüsün əsasını qoydu. Həmin müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq partiyaya rəhbərlik etməsi xahiş olundu və bununla da xalqın iradəsi və ümummilli arzuları siyasi platformada öz əksini tapdı. Ulu Öndər Heydər Əliyev bu müraciətə cavab olaraq bildirdi ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur və belə bir partiya ölkənin siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.

Beləliklə, 21 noyabr 1992-ci ildə keçirilən təsis konfransında Ulu Öndər Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmiş, Siyasi Şura, İdarə Heyəti və sədrin müavinləri təsdiqlənmişdir. Həmin gün Azərbaycanın siyasi tarixində müstəqil və güclü siyasi təşkilatın yaranması kimi yadda qalmışdır. YAP qısa müddətdə milli həmrəyliyi təmin edən, xalqın etimadını qazanan və müstəqil dövlətimizin siyasi dirçəlişində həlledici rol oynayan aparıcı siyasi qüvvəyə çevrilmişdir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə partiya yalnız siyasi fəaliyyət göstərən təşkilat kimi deyil, həm də ölkədə sosial stabilliyi təmin edən, dövlət idarəçiliyi mədəniyyətini təşviq edən və cəmiyyətimizin aparıcı dayağına çevrilmişdir.

2005-ci ildə Prezident İlham Əliyevin partiyanın Sədri seçilməsi Yeni Azərbaycan Partiyasını yeni inkişaf mərhələsinə çıxarmış, 2021-ci ildə həyata keçirilmiş institusional modernləşmə və islahatlar, yeni Nizamnamənin təsdiqi, İdarə Heyətinin və Veteranlar Şurasının formalaşdırılması partiyanın idarəetmə modelini daha çevik, səmərəli və strateji hədəflərə uyğun hala gətirmişdir. Eyni zamanda Mehriban xanım Əliyevanın partiya Sədrinin birinci müavini vəzifəsinə təyinatı partiya fəaliyyətində qadınların roluna verilən yüksək dəyərin bariz nümunəsinə çevrilmişdir.

Yeni Azərbaycan Partiyası dövlətin uzunmüddətli inkişaf strategiyasının müəllifi kimi çıxış edir və onun fəaliyyəti həm milli, həm də beynəlxalq kontekstdə strateji hədəflərin reallaşdırılmasına yönəlmişdir. Partiya sosial ədalətin təmin olunmasında, iqtisadiyyatın davamlı inkişafında, işğaldan azad edilmiş ərazilərin sürətli bərpasında, inklüziv cəmiyyətin formalaşdırılmasında, insan kapitalının gücləndirilməsində, demokratik ənənələrin möhkəmləndirilməsində, multikultural və tolerant cəmiyyətin təşviqində, eləcə də konstruktiv əməkdaşlıq və siyasi dialoqun inkişafında yaxından iştirak edir və bütün sahələrdə dövlət siyasətinin strateji hədəflərini həyata keçirir.

44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfər Azərbaycanın ərazi bütövlüyünü təmin etmiş, Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işlərinin başlanmasına zəmin yaratmış, eyni zamanda Yeni Azərbaycan Partiyasının dövlətçilik ənənəsindəki unikal rolunu bir daha təsdiqləmişdir. Azərbaycanın beynəlxalq nüfuzu daha da artmış, qlobal arenada ölkəmiz etibarlı və təsirli tərəfdaş kimi mövqeyini gücləndirmiş, xüsusilə türk dövlətləri ilə əlaqələrin inkişafı və regional əməkdaşlığın dərinləşdirilməsi ölkəmizin həm regionda, həm də qlobal miqyasda rolunu daha da artırmışdır.

33 illik fəaliyyəti göstərir ki, Yeni Azərbaycan Partiyası yalnız dünənin və bu günün deyil, həm də gələcəyin partiyasıdır. Qarşıda duran vəzifələr işğaldan azad edilmiş ərazilərin sürətli bərpasını, dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi modelin qurulmasını, sosial təminatın gücləndirilməsini və vətəndaş rifahının yüksəldilməsini əhatə edir və bu istiqamətlərdə partiyanın siyasi iradəsi, üzvlərinin fəal iştirakı və dövlət siyasətinə sadiqliyi həlledici rol oynayacaqdır.

Prezident İlham Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası dövlətçiliyin möhkəmləndirilməsində, milli birliyin qorunmasında və cəmiyyətimizin dinamik inkişafında aparıcı siyasi qüvvə olaraq rolunu davam etdirəcək, qarşıya qoyulan strateji hədəflərin ardıcıl həyata keçirilməsinə nail olacaq və bu missiyada partiyanın üzvlərinin fəal iştirakı, xalqın etimadı və dövlətin davamlı siyasətinə sadiqliyi hər zaman əsas təminat kimi çıxış edəcəkdir.

Əminik ki, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa və möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında qarşıya qoyulan strateji hədəflərə sarsılmaz inamımız Azərbaycanın yeni nailiyyətlərinin əsasını təşkil edəcəkdir.

***Mahir SÜLEYMANLI,***
***Milli Məclisin deputatı***

## Zərurətdən doğulan tarixi missiya və liderlik məktəbi

**Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasından 33 il keçir. Üç onilliyi aşan bu yol təkcə bir siyasi təşkilatın tarixçəsi deyil, həm də müasir Azərbaycan dövlətinin formalaşma, möhkəmlənmə və yüksəliş mərhələlərinin silsiləsidir. YAP-ın yaranması tarixi bir zərurət idi. Azərbaycan dövlətçiliyinin çətin sınaqlardan keçdiyi, siyasi parçalanmanın və idarəetmə böhranının dərinləşdiyi bir dövrdə millətin xilası üçün xalqın iradəsi fonunda meydana çıxmış bir hərəkat idi.**

1990-cı illərin əvvəllərində ölkədə baş verən xaos, silahlı separatizm, iqtisadi tənəzzül, siyasi böhran və hakimiyyət boşluğu Azərbaycanın müstəqilliyi üçün real təhlükə yaradırdı. Dövlət idarəçiliyi iflic olmuş, cəmiyyət radikal təbəqələşmə ilə üz-üzə qalmışdı. Məhz belə ağır bir zamanda ziyalıların, elm xadimlərinin, veteranların və ölkənin müxtəlif bölgələrindən olan vətənpərvər şəxslərin təşəbbüsü ilə Naxçıvana, xalqın inam ünvanına müraciət edildi. Onlar xalqa arxa, dövlətə dayaq ola biləcək qüvvəni Heydər Əliyevin simasında görürdülər.

1992-ci ildə imzalanan məşhur "91-lərin müraciəti" təkcə bir siyasi sənəd deyildi. Bu, milli düşüncənin, məsuliyyətin və tarixi yaddaşın təcəssümü idi. Xalqın çağırışı ilə Heydər Əliyev siyasi səhnəyə qayıtdı, Yeni Azərbaycan Partiyası isə müstəqil Azərbaycanın xilası üçün milli-siyasi qütbə çevrildi. Beləliklə, YAP təsadüfi deyil, bir xilaskarlıq missiyasının məntiqi davamı olaraq yarandı.

Yeni Azərbaycan Partiyasının siyasi kimliyi və ideoloji xətti məhz Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsi ilə formalaşdı. O, partiyanı qısa müddətdə Azərbaycan cəmiyyətində sabitliyin, inkişafın və milli həmrəyliyin mühüm dayağına çevirdi.

Ulu Öndər Heydər Əliyev YAP-ı dövlətçilik ideologiyasının siyasi platformasına, milli həmrəyliyin təşkilatçısına, siyasi sistemin lokomotivinə, dövlət idarəetməsində strateji düşüncə mərkəzinə çevirdi.

Ulu Öndərin rəhbərliyi altında partiyanın siyasi xətti "güclü dövlət, güclü iqtisadiyyat, güclü ordu və vətəndaş rifahı" prinsipləri üzərində quruldu. Bu model 1993-2003-cü illərdə Azərbaycanı dağılmaq təhlükəsindən çıxarıb regionun ən sabit və dinamik inkişaf edən dövlətlərindən birinə çevirdi.

Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də YAP-ı yalnız öz dövrü üçün deyil, gələcək nəsillər üçün də güclü və dayanıqlı siyasi məktəbə çevirməsidir.

2003-cü ildə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirmək missiyası cənab Prezident İlham Əliyevin üzərinə düşdü. Bu gün YAP-ın 33 illik tarixində ən parlaq mərhələ məhz cənab Prezident İlham Əliyevin liderliyi dövrüdür. Onun dövründə partiya yeni siyasi idarəçilik modelini, modern islahat kursunu, qətiyyətli milli təhlükəsizlik strategiyasını və Zəfərlə nəticələnən 20 illik güclənmə yolunu həyata keçirdi.

Cənab Prezident İlham Əliyev YAP-ı sadəcə siyasi təşkilat olaraq deyil, dövlətin bütün sferalarında intellektual kadrların mərkəzinə və idarəetmə sisteminin əsas dayağına çevirdi. Onun siyasi liderliyi nəticəsində Azərbaycan 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfərə nail oldu. Üçrəngli bayrağını Şuşada, Xankəndidə, Laçında, Ağdərədə və bütün Qarabağda ucaltdı. Regionda söz sahibi və güc mərkəzi kimi tanındı.

Bu Zəfərdə YAP-ın nizamlı siyasi xətti, milli iradənin təşkilatlanması və dövlət-vətəndaş birliyi mühüm rol oynadı. Prezident İlham Əliyev YAP-ı qalib dövlətin qalib partiyasına çevirdi.

YAP-ın 33 illik inkişaf mərhələlərinin əsas istiqamətləri belə xarakterizə edilə bilər:

- Dövlətçilik missiyası

YAP bu illər ərzində milli dövlətçiliyin müdafiəsini, suverenliyin qorunmasını və milli maraqların üstün tutulmasını ən ali prinsip kimi qəbul edib.

- Modern siyasi islahatlar

İdarəetmə modeli müasirləşdirildi, iqtisadiyyat rəqəmsallaşdı, dövlət xidmətləri şəffaflaşdı, yeni kadr nəslinin formalaşması sürətləndi.

- Güclü ordu və təhlükəsizlik konsepsiyası

Partiyanın siyasi xətti Azərbaycanın hərbi gücünün artırılmasına, müdafiə sənayesinin qurulmasına və qalib ordunun formalaşmasına şərait yaratdı.

- Sosial rifah dövləti

Son 20 ildə sosial layihələrin miqyası genişləndi, əhalinin rifahı, sosial təminat və həyat standartları yüksəldi.

- Qlobal səviyyədə siyasi nüfuz

YAP beynəlxalq siyasi platformalarda Azərbaycanın milli mövqeyinin güclənməsinə xidmət etdi.

- YAP bu gün yalnız keçmişin zəfərləri ilə yadda qalan siyasi təşkilat deyil. Qarşıdakı illərdə partiyanın üzərinə yeni tarixi məsuliyyətlər düşür.

Qarabağın və Şərqi Zəngəzurun "Böyük qayıdış" proqramının tamamlanması;

Azərbaycanın iqtisadi modelinin növbəti modernləşmə mərhələsi;

Dövlət idarəçiliyində yeni kadr konsepsiyasının dərinləşməsi;

Regional və qlobal siyasətdə Azərbaycanın rolunun daha da güclənməsi.

Bu missiyanın həyata keçirilməsi üçün YAP həm tarixi irsə, həm də güclü siyasi liderliyə, cənab Prezident İlham Əliyevin strateji vizyonuna malikdir.

Yeni Azərbaycan Partiyasının 33 illik tarixi bir daha göstərir ki, bu partiya təsadüfən yaranmayıb. YAP Azərbaycan dövlətçiliyinin çətin dövründə xalqın iradəsindən doğmuş, Ulu Öndər Heydər Əliyevin ideoloji memarlığı və cənab Prezident İlham Əliyevin müasir liderliyi ilə möhtəşəm tarixi missiya yerinə yetirmişdir.

Bu gün YAP xilaskarlıq missiyasından gələn, quruculuq dövründən keçən, Zəfərlə zirvələnən, gələcəyə inamla baxan milli siyasi qüvvədir.

33 il həm tarixdir, həm təcrübə, həm də böyük gələcək üçün möhkəm təməldir.

***Nicat İSMAYILOV,***
***Yeni Azərbaycan Partiyasının üzvü, politoloq***

# YAP dövlətçilik düşüncəsinə və milli məfkurəyə söykənən böyük siyasi məktəbdir

## Salyanda Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümü münasibətilə konfrans keçirilib

**Salyan rayonunda Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümü münasibətilə "Yeni Azərbaycan Partiyası - müstəqil, müasir və bütöv Azərbaycan reallığı" mövzusunda konfrans keçirilib. Konfransda rayon icra hakimiyyətinin başçısı Rüstəm Xəlilov, YAP rayon təşkilatının sədri Elmar Əhmədov, Milli Məclisin deputatı Sadiq Qurbanov, YAP Mərkəzi Aparatının məsul əməkdaşı Əli Axundov, ərazi partiya təşkilat sədrləri və sədr müavinləri, ziyalılar, partiya fəalları və gənclər iştirak ediblər.**

Konfrans iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, əziz xatirəsini dərin hörmət və ehtiramla anıblar. YAP Salyan rayon təşkilatının inzibati binasında davam etdirilən konfransda Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub. Sonra Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümünə həsr edilmiş videoçarx nümayiş olunub.

Konfransı giriş sözü ilə açan YAP Salyan rayon təşkilatının sədri Elmar Əhmədov bildirib ki, Yeni Azərbaycan Partiyasının 33 illik fəaliyyəti müasir Azərbaycanın siyasi tarixində xüsusi mərhələ kimi dəyərləndirilir. Ümummilli Lider Heydər Əliyevin yaratdığı bu siyasi məktəb Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə yüksəlib. YAP dövlətçilik prinsiplərinin qorunması, milli maraqların təmin edilməsi və ölkədə dayanıqlı siyasi sabitliyin möhkəmləndirilməsi sahəsində böyük xidmətlər göstərib: "Bu illər ərzində partiya cəmiyyətin bütün təbəqələri ilə açıq dialoq aparan, yeniliklərə açıq, milli dəyərlərə sadiq bir siyasi qüvvə kimi formalaşıb".

Təşkilat sədri çıxışının sonunda Yeni Azərbaycan Partiyasının bundan sonra da dövlətimizin inkişafına, xalqımızın rifahına layiqincə xidmət edəcəyinə əminliyini bildirib.

Salyan Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin inkişaf yolunda etibarlı siyasi dayağa çevrildiyini vurğulayıb. Qeyd edib ki, partiyanın 33 illik tarixi müasir Azərbaycan dövlətinin möhkəmlənməsi, sabitliyin təmin olunması və regionların inkişafı ilə sıx bağlıdır. Rayon rəhbəri bildirib ki, YAP lokal səviyyədə də cəmiyyətlə sıx təmasda çalışan, ictimai təşəbbüsləri dəstəkləyən və dövlət siyasətinin bölgələrdə həyata keçirilməsinə əhəmiyyətli töhfə verən siyasi qüvvədir. O, tədbir iştirakçılarını Yeni Azərbaycan Partiyasının 33-cü ildönümü münasibətilə təbrik edərək, partiya üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.



Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov Yeni Azərbaycan Partiyasının ölkənin siyasi sistemində aparıcı rol oynadığını, qəbul etdiyi qərarların, irəli sürdüyü təşəbbüslərin Azərbaycanda dayanıqlı inkişaf modelinin əsasını təşkil etdiyini bildirib. Qeyd edib ki, son illərdə həyata keçirilən enerji layihələri, ekoloji proqramlar, iqtisadi islahatlar və regional inkişaf təşəbbüsləri partiyanın müəyyən etdiyi strateji xəttin konkret nəticələridir. Bu siyasətin mərkəzində vətəndaş amili, inkişaf, təhlükəsizlik və modernləşmə dayandığını vurğulayan deputat partiyanın cəmiyyətdə geniş sosial dayağa malik olduğunu, bunun ölkə üzrə davamlı uğurların əsasını təşkil etdiyini diqqətə çatdırıb.

YAP Mərkəzi Aparatının məsul əməkdaşı Əli Axundov çıxışında qeyd edib ki, Yeni Azərbaycan Partiyasının təşkilati modeli illər ərzində daha da təkmilləşib, ölkənin bütün regionlarında sosial-siyasi fəallığın artmasına səbəb olub. Bildirib ki, partiyanın ideoloji xətti yalnız siyasi proseslərlə məhdudlaşmır, eyni zamanda ictimai həyatın müxtəlif sahələrində yenilənmə, inkişaf və milli həmrəyliyin güclənməsi kimi hədəfləri özündə birləşdirir. Vurğulayıb ki, bu gün YAP-ın gücü onun intellektual potensialı, gənclərin partiya sıralarında artan təmsilçiliyi və ümumi məqsəd ətrafında birləşən ziyalılar ordusudur. O, YAP-ın bundan sonra da ölkənin inkişaf strategiyasının həyata keçirilməsində etibarlı siyasi platforma olaraq fəaliyyət göstərəcəyini bildirib.

Digər çıxış edənlər Yeni Azərbaycan Partiyasının yaranma zərurətindən və həmin dövrün siyasi reallıqlarından söz açıblar. Bildiriblər ki, partiyanın yaradılması Azərbaycan dövlətçiliyini böhranlı vəziyyətdən çıxaran, xalqın milli birlik və həmrəylik duyğusunu bərpa edən tarixi qərar idi. Çıxışlarda həmçinin vurğulanıb ki, YAP bu gün yalnız siyasi təşkilat deyil, dövlətçilik düşüncəsini, ictimai məsuliyyəti və milli məfkurəni cəmiyyətə aşılayan böyük bir məktəbdir.

Konfransda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalına fəxri fərman, YAP sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim edilib.

Tədbirə Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə yekun vurulub.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



# 33 illik şərəfli yol

## Cənubi Qafqazın ən böyük siyasi təşkilatı olan YAP zəfər partiyasına çevrilib

Tarix 21 noyabr 1992-ci il.

Müstəqil Azərbaycanın ictimai-siyasi fikir tarixinin ən əlamətdar, ən şərəfli səhifələrindən biri...

Məhz həmin gün, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil ölkəmizin inkişafında müstəsna xidmətləri olan Yeni Azərbaycan Partiyasının yarandığı gündür.

Müasir Azərbaycan dövlətçiliyinin qurulması, möhkəmləndirilməsi və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu dahi şəxsiyyət Azərbaycan dövlətçiliyini xaos və böhran məngənəsindən çıxaran, vətəndaş müharibəsinin qarşısını alan, döyüş cəbhəsində məğlubiyyətlər seriyasına son qoyan və atəşkəs rejiminin tətbiqinə nail olan fenomenal liderdir. Xalqımızın taleyində xilaskarlıq missiyasını şərəflə yerinə yetirən Ulu Öndər Azərbaycanda siyasi plüralizm, siyasi mədəniyyət və siyasi sistemin yaranmasının əsasını qoyan nadir şəxsiyyətdir.

Ümummilli Lider Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası bu gün sıralarında 744 334 nəfəri birləşdirməklə Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır.

Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu Yeni Azərbaycan Partiyası 33 ildir ki, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edir, xalqın sevgisini və dəstəyini qazanır, ölkədə sabitliyin təminatında avanqard rolunu davam etdirir. Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə sübuta yetirib ki, o məhz yeni, müstəqil Azərbaycanı qurmağa, onu zirvələrə, parlaq gələcəyə daşımağa qadir partiyadır.

Yeni Azərbaycan Partiyası Azərbaycanın tarixinin ən mürəkkəb və keşməkeşli dövründə yaranıb. 1990-cı ilin əvvəllərində bir-birini əvəz edən siyasi şəristəsi olmayan hakimiyyətlər tərəfindən Azərbaycanın dövlətçiliyinin, müstəqilliyi və suverenliyinin fəlakətə sürükləndiyi situasiyada xalqımız əmin idi ki, ölkəni bu ağır bəlalardan yalnız Ulu Öndər Heydər Əliyev dühası xilas edə bilər.

Xalqın gündən-günə Ümummilli Lider Heydər Əliyev şəxsiyyətinə olan inamı daha da artaraq ümumxalq məhəbbətinə çevrilmişdi. Belə bir vaxtda bir qrup Azərbaycan ziyalısı Naxçıvana gedərək ölkəmizi bu bəladan qurtara biləcək yeni bir partiya yaratmaq arzusu ilə Heydər Əliyevə müraciət etdi və Ulu Öndər yeni yaradılacaq partiyaya rəhbərlik etməyə razılıq verdi.

Beləliklə, 1992-ci il noyabrın 21-də 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştirakı, Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə təsis konfransının yalnız Naxçıvanda keçirilməsi mümkün oldu. Bu, müstəqil Azərbaycan tarixində yeni bir səhifənin başlanğıcı idi. Beləliklə, 1992-ci ilin noyabrından etibarən Yeni Azərbaycan Partiyası (YAP) Azərbaycan tarixinin əsas hərəkətverici qüvvəsinə çevrildi.

Ümummilli Liderin müxalifət partiyası olaraq yaratdığı YAP hakimiyyətə sivil yolla gəlməyin əsl "yol xəritəsi"ni ortaya qoydu. Bununla da siyasi mədəniyyət və siyasi əxlaq nümunəsi yaratdı. Bu nümunə özündə sağlam, obyektiv, şəffaf və demokratik mübarizə mədəniyyətini ehtiva edir və qələbə təminatına görə unikaldır.

YAP-ın yaranmasından sonrakı illərdə partiya Azərbaycan Respublikasının ən güclü siyasi qüvvələrindən biri halına gəldi. 1993-cü ildən etibarən Heydər Əliyevin siyasi kursu Azərbaycanın xarici və daxili siyasətini əsaslı şəkildə dəyişdirdi. Ulu Öndərin prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatında mühüm islahatlar həyata keçirildi və Azərbaycan Qərblə Şərq arasında balanslı xarici siyasət kursu reallaşdırmağa başladı.

Bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP yeni inkişaf mərhələsini yaşayır.

Yeni Azərbaycan Partiyası Ulu Öndərin rəhbərliyi altında yarandığı gündən ölkəmizin inkişafı naminə çox mühüm layihələr reallaşdırıb, Heydər Əliyev ideyalarına sadiqlik nümayiş etdirib. Yeni Azərbaycan Partiyası və onun numayəndələri bütün seçki kampaniyalarında iştirak etmiş və böyük üstünlüklə qələbə qazanaraq bütün siyasi partiyaları arxada qoymuşdur.

Yeni Azərbaycan Partiyası Azərbaycanın müstəqil, demokratik, sivil dövlət kimi möhkəmləndirilməsində, vətəndaş cəmiyyəti quruculuğunda ən fəal, qabaqcıl siyasi rol oynamaqla bu istiqamətdə mühüm tarixi əhəmiyyətli işlər görmüşdür.

Xalqımız əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin dəstəkçisidir. Yeni Azərbaycan Partiyası Ümummilli Liderin ideyaları əsasında və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza ataraq şərəfli inkişaf yolu keçmişdir.

Prezident İlham Əliyev Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi Azərbaycan tarixinə qurucu dövlət başçısı olaraq adını yazdırdı, ölkəmizi Cənubi Qafqazın ən güclü, müasir və modern dövlətinə çevirməyi bacaran lider və torpaqlarımızı işğaldan azad edərək Müzəffər Ali Baş Komandan kimi hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu sübuta yetirdi.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Yeni Azərbaycan Partiyasının gücləndirilməsi və inkişafı istiqamətində atılan addımlar çox mühüm əhəmiyyət kəsb etdi. Dövlət başçısının qarşıya qoyduğu vəzifələrin icrasına nail olunması, siyasi sistemin və ictimai-siyasi münasibətlərin inkişafına, demokratik dəyərlər və ənənələrin gücləndirilməsinə, bütövlükdə isə ölkəmizin tərəqqisinə yeni təkan və töhfə oldu.

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm tarixi qələbə qazanaraq ərazi bütövlüyümüzün və tarixi ədalətin bərpa edilməsinə müvəffəq olmağımız isə çoxəsrlik dövlətçilik tariximizin zirvə hadisəsi və şanlı qürur səhifəsidir. İkinci Qarabağ müharibəsinin məntiqi davamı olaraq 19 sentyabr 2023-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə cəmi 24 saata yaxın müddət ərzində həyata keçirilmiş antiterror tədbirləri nəticəsində isə qeyri-qanuni erməni hərbi birləşmələrinə ciddi zərbələr endirildi və düşmən ağ bayraq qaldıraraq təslim oldu. Bununla da Qarabağda olan qanunsuz hərbi birləşmələrin tərk-silah edilməsi prosesinə başlanıldı və bu qısamüddətli antiterror tədbirləri Azərbaycanın həm hərbi, həm də diplomatik sahədə əldə etdiyi növbəti tarixi Zəfər salnaməsinə çevrildi.

Yeni Azərbaycan Partiyasının 33 illik yubileyi yalnız partiyanın tarixini deyil, həm də müstəqil Azərbaycanın keçdiyi tarixi yolu simvollaşdırır. YAP-ın fəaliyyəti Azərbaycanın inkişafında, ərazi bütövlüyü və müstəqilliyinin qorunmasında əvəzsiz rol oynayıb. Partiya gələcəkdə də ölkənin inkişafını sürətləndirmək və dünya arenasında daha güclü mövqe tutmaq üçün önəmli addımlar atmağa davam edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Bakıda TDT-yə üzv dövlətlərin ədliyyə nazirlərinin 2-ci iclası keçirilib

Noyabrın 20-də Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin ədliyyə nazirləri Bakıda keçirilən toplantı çərçivəsində bir araya gəliblər.




Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə qonaqlar Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib, Şəhidlər xiyabanında və Zəfər parkında olub, şəhidlərimizin xatirəsini anıblar.

Azərbaycanın ədliyyə naziri Fərid Əhmədovun sədrliyi ilə keçirilən iclasda Türkiyənin ədliyyə naziri Yılmaz Tunç, Özbəkistanın ədliyyə naziri Əkbər Taşkulov, Qazaxıstanın ədliyyə naziri Yerlan Sarsembayev, Qırğız Respublikasının ədliyyə nazirinin müavini İsgəndər Sıdıqalıyev və TDT-nin baş katibi Kubanıçbek Ömüralıyev iştirak ediblər.

Görüş çərçivəsində 2024-cü il sentyabrın 9-da imzalanmış Astana Bəyannaməsində nəzərdə tutulan istiqamətlər üzrə görülmüş işlərin icra vəziyyəti müzakirə olunub, üzv dövlətlər arasında hüquq və ədliyyə sahəsində əməkdaşlığın gücləndirilməsi və təcrübə mübadiləsinin inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Tədbirdə Astana Bəyannaməsinin müddəalarına uyğun olaraq, üzv dövlətlər tərəfindən hüquq və ədliyyə sahəsində rəqəmsal transformasiya və innovativ həllərin tətbiqi üzrə həyata keçirilən işlər və qabaqcıl təcrübələr təqdim olunub, hərtərəfli və funksional elektron ədliyyə sisteminin xidmət keyfiyyətini artırması, prosesləri sadələşdirməsi və istifadəçiyönümlü mühitin formalaşmasına töhfə verməsi qeyd edilib və qarşılıqlı maraq doğuran məsələlər nəzərdən keçirilib.

Görüş zamanı TDT-yə üzv dövlətlərin ədliyyə nazirlikləri arasında mülki işlər üzrə hüquqi yardım haqqında Azərbaycanın təşəbbüsü ilə çoxtərəfli Saziş layihəsinin hazırlanması istiqamətində Ekspert Qrupunun fəaliyyəti, eləcə də Məhkəmə Ekspertizasının Mərkəzləşmiş Şəbəkəsinin yaradılması üzrə yaradılmış İşçi Qrupunun gördüyü işlər diqqətə çatdırılıb. İştirakçılar TDT-yə üzv dövlətlərin Ədliyyə nazirliklərinin 3-cü iclasının 2026-cı ildə Türkiyədə keçirilməsi barədə razılığa gəliblər.

Qonaqlar görüşün yüksək səviyyədə təşkilinə görə ədliyyə naziri Fərid Əhmədova dərin minnətdarlıqlarını bildiriblər və Azərbaycan tərəfinin səmimi qonaqpərvərliyini yüksək qiymətləndiriblər.

Qeyd edək ki, TDT-yə üzv dövlətlərin ədliyyə nazirlərinin ilk iclası ötən il Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilib.

# Azərbaycan və Qazaxıstan arasında ədliyyə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov Qazaxıstan Respublikasının ədliyyə naziri Yerlan Sarsembayevlə görüşüb.



Ədliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı iki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olması və qarşılıqlı əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Ölkələr arasında imzalanmış sənədlərin əməkdaşlığın genişləndirilməsinə verdiyi töhfədən bəhs edilib, hüquqi sahədə yardımın göstərilməsinin və beynəlxalq müqavilələr əsasında praktiki təcrübə mübadiləsinin əhəmiyyətinə diqqət çəkilib. Tərəflər həmçinin Türk Dövlətləri Təşkilatı çərçivəsində ədliyyə sahəsində əməkdaşlıqda maraqlı olduqlarını bildiriblər.

Görüşdə məhkəmə qərarlarının icrası və xüsusi icra institutunun tətbiqi, notariat fəaliyyəti, ədliyyə sahəsində rəqəmsallaşma və süni intellektin tətbiqi, vətəndaşyönümlü rəqəmsal həllərdən istifadə, məhkəmə ekspertizası sahələrində qarşılıqlı təcrübə mübadiləsinin davam etdirilməsi məsələləri müzakirə olunub. Bununla yanaşı, əməkdaşlığın institusional əsaslarını möhkəmləndirmək məqsədilə Qazaxıstandan olan hakimlərin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında tədrisi imkanları planlaşdırılıb.

# "Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik"

Noyabrın 20-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və partiyanın Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə YAP-ın təsis edilməsinin 33-cü ildönümünə həsr olunmuş "Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik" mövzusunda tədbir keçirilib.





Əvvəlcə Ulu Öndər Heydər Əliyevin YAP Binəqədi rayon təşkilatının inzibati binası qarşısındakı abidəsi ziyarət edilərək önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yolu, zəngin və çoxşaxəli irsi barədə danışıb. O, Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində şərəfli yol keçərək ümumxalq partiyasına çevrildiyini deyib. V.İsmayılov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqillik yolunda inamla irəliləyir, Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verir.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın idarə heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Ümummilli Lider Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti dövlətçilik məktəbidir və Ulu Öndər yolunun alternativi yoxdur. Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip kimi qəbul edən Ümummilli Lider müstəqil Azərbaycanın qurucusudur.

YAP Veteranlar Şurasının sədri Ulu Öndərin rəhbərliyi ilə 1992-ci ilin noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılmasının müasir dövlətçilik tariximizdə əlamətdar hadisə olduğunu, regionun aparıcı siyasi qüvvəsinə çevrildiyini deyib. O vurğulayıb ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir: "Dövlət başçımız xalqımıza tarixi Zəfər bəxş etmiş Müzəffər Liderdir. Bu gün bütün Azərbaycan xalqı, o cümlədən partiya sıralarında birləşən hər bir üzv qürurludur".

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev müasir Azərbaycan tarixinin böyük bir dövrünün dahi şəxsiyyət, müdrik siyasətçi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olduğunu deyib. O qeyd edib ki, Ümummilli Liderin ölkəmizə rəhbərliyi dönəmində Azərbaycan bütün sahələrdə misilsiz inkişaf yolu keçib. E.Allahverdiyevin sözlərinə görə, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edilib.

Tədbirdə YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova, "91-lər"dən, YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov və YAP Veteranlar Şurasının üzvü Tahir Quliyev çıxış edərək Heydər Əliyevin çoxəsrlik Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində və Yeni Azərbaycan Partiyasının formalaşmasında əvəzsiz xidmətləri barədə danışıblar.

Vurğulanıb ki, Heydər Əliyev dühası ölkəmizin sabitlik, inkişaf və müasirlik yolunu müəyyən edən əsas strateji xətt kimi bu gün də aktuallığını qorumaqdadır. Ümummilli Lider Heydər Əliyevin ölkəmizin tərəqqisi naminə həyata keçirdiyi mühüm islahatlar və irimiqyaslı layihələr Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün çağırışlarına uyğun olaraq uğurla davam və inkişaf etdirilir.

Daha sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda bədii hissə təqdim olunub.

***"Azərbaycan"***

# Azərbaycan və İsrail arasında enerji və ticarət sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib

İsraildə keçirilən Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın 4-cü iclasında enerji, ticarət, investisiya, kənd təsərrüfatı və qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə əməkdaşlığa dair müzakirələr aparılıb.



AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyətinin İsrailə işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın 4-cü iclası keçirilib.

İclasda iqtisadiyyat naziri, Birgə Komissiyanın həmsədri Mikayıl Cabbarov vurğulayıb ki, Azərbaycan İsraillə əməkdaşlığı strateji baxımdan mühüm hesab edir və əlaqələrin daha da genişləndirilməsində maraqlıdır. İqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələrimiz son üç onillikdə dinamik inkişaf edib.

Qeyd olunub ki, Birgə Komissiya əməkdaşlığı daha da dərinləşdirmək üçün mühüm platformadır. İsraillə iqtisadi-ticarət əlaqələri də genişlənir. Ölkələrimiz arasında səmərəli investisiya tərəfdaşlığı mövcuddur. Hazırda Azərbaycanda sənaye, kənd təsərrüfatı, tikinti, ticarət və xidmət sahələri üzrə 125 İsrail kapitallı kommersiya qurumu fəaliyyət göstərir. Azərbaycan və İsrail şirkətləri maliyyə və qida texnologiyaları, kənd təsərrüfatı və səhiyyə sahələrində fəal iş həyata keçirir. Bu da Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və texnoloji inkişafı baxımından əhəmiyyətlidir. Kənd təsərrüfatı, qida, su və enerji texnologiyaları, dərman sənayesi, biotexnologiya və digər sahələrdə fəaliyyətin genişləndirilməsi üçün böyük potensial mövcuddur.

İqtisadiyyat naziri Azərbaycanda sərmayədarlar üçün yaradılan imkanlar, birbaşa xarici investisiyaların cəlbi istiqamətində görülən işlər və əldə edilən nəticələr barədə məlumat verib.

İsrailin Maliyyə Nazirliyində nazir, Birgə Komissiyanın həmsədri Zeev Elkin iki ölkə arasındakı əlaqələrin daha da gücləndirilməsi, yeni sahələrdə fəaliyyət imkanlarının araşdırılması baxımından tədbirin vacibliyini vurğulayıb. Qeyd olunub ki, Birgə Komissiya çərçivəsində müzakirələr müxtəlif sahələrdə qarşılıqlı faydalı nəticələr əldə olunmasında əhəmiyyət kəsb edir.

İclasda ikitərəfli əlaqələr, enerji, ticarət, investisiya, kənd təsərrüfatı, nəqliyyat, rəqəmsallaşma və qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə əməkdaşlığa dair müzakirələr aparılıb.

Yekunda Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Dördüncü İclasının Protokolu imzalanıb.

# Latviya Respublikasının elan olunmasının 107-ci ildönümü münasibətilə Bakıda rəsmi qəbul keçirilib

Latviya Respublikasının elan olunmasının 107-ci ildönümü münasibətilə noyabrın 20-də Bakıda rəsmi qəbul təşkil edilib.



AZƏRTAC xəbər verir ki, rəsmi qəbulda əvvəlcə Azərbaycanın və Latviyanın Dövlət himnləri səsləndirilib.

Daha sonra Latviyanın Azərbaycandakı səfiri Edqars Skuya çıxışında Azərbaycan-Ermənistan sülh prosesində əldə olunan irəliləyişi yüksək qiymətləndirib, Cənubi Qafqazda sülhün iqtisadi inkişaf üçün önəmli olduğunu vurğulayıb və ölkəmizin regionda strateji rolunu qeyd edib. O, iki ölkə arasında strateji tərəfdaşlıq, yüksəksəviyyəli görüşlər və kənd təsərrüfatı, "yaşıl texnologiya"lar, üzvi əkinçilik kimi sahələrdə əməkdaşlıq perspektivlərindən danışıb. Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, Azərbaycan və Latviya arasında münasibətlər qarşılıqlı hörmətə əsaslanır, indiyədək 47 sənəd imzalanıb, 6 sənəd layihəsi isə baxılma mərhələsindədir. O, hökumətlərarası komissiyanın fəaliyyəti, parlamentlərarası əlaqələr və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin münasibətlərin inkişafında mühüm rol oynadığını vurğulayıb.

Tədbirdə dövlət və hökumət rəsmiləri, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.

# COP30 çərçivəsində Azərbaycan nümayəndə heyətinə vacib missiyalar həvalə olunub

Azərbaycanın COP sədrliyini Braziliyaya təhvil verməsindən sonra da ölkənin iqlim diplomatiyasında fəal rolu qorunur. COP29 çərçivəsində və COP30-a hazırlıq dövründə ölkələr arasında qazandığı etimad sayəsində COP prosesi çərçivəsində Azərbaycana vacib missiyalar həvalə olunub.

AZƏRTAC xəbər verir ki, bu xüsusda, COP29 çərçivəsində qəbul edilmiş Bakı Maliyyə Hədəfi qərarına uyğun olaraq Azərbaycanla Braziliya COP29 və COP30 sədrlikləri kimi qlobal iqlim maliyyəsinin 1,3 trilyon ABŞ dollarına yüksəldilməsinə dair "Bakıdan Belemə Yol Xəritəsi"ni hazırlayaraq COP30 çərçivəsində təqdim etmişdi. COP-un iki sədrliyinin birlikdə hazırladığı bu "Yol xəritəsi" əksər dövlətlər tərəsindən yüksək dəyərləndirilib və müsbət qarşılanıb. Həmçinin Braziliya tərəfinin xahişinə əsasən COP30-da qəbul edilməsi gözlənilən aşağıdakı 2 mühüm qərarla bağlı danışıqların aparılması və həmin sənədlərin razılaşdırılması Azərbaycana həvalə olunub: COP31-in ev sahibinin müəyyənləşdirilməsi ilə bağlı qərar - COP30-un sədri Andre do Lago Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyevə və Braziliya XİN-in xüsusi tapşırıqlar üzrə səfiri Maurisio Lyrioya COP30 sədrliyi adına COP31-in ev sahibinin müəyyən edilməsi üzrə yüksəksəviyyəli danışıqların aparılması səlahiyyətini verib.

Məlum olduğu kimi, COP31-ə evsahibliyi uğrunda Avstraliya və Türkiyə mübarizə aparır. Hazırda hər iki səlahiyyətli nümayəndə intensiv şəkildə Avstraliya ilə Türkiyə arasındakı danışıqlara vasitəçilik edir, həll yolunu müəyyən etməyə çalışır.

COP30-un Sədri Andre do Lago Azərbaycan və Norveç nümayəndələrinə prosesə onun adından rəhbərlik etmək və dövlətlər arasında danışıqlar aparmaq mandatını verib. Bu danışıqlara Azərbaycan tərəfdən rəhbərliyi xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Norveç tərəfdən isə bu dövlətin iqlim və ətraf mühit naziri Andreas Bjelland Eriksen edir.

# *Qazaxıstanlı ekspert:* "Zəngəzur dəhlizi Orta dəhlizi tamamlayacaq alternativ quru marşrutu olacaq"

"Azərbaycanın əsas hissəsini Naxçıvanla, daha sonra Türkiyə ilə birləşdirəcək Zəngəzur dəhlizi Orta dəhlizi tamamlayacaq alternativ quru marşrutu olacaq".



AZƏRTAC xəbər verir ki, bu fikri Qazaxıstan Xarici İşlər Nazirliyi nəzdində Xarici Siyasət Araşdırmaları İnstitutunun eksperti Almat Toyekinin "Kazinform" agentliyinin saytında dərc olunmuş məqaləsində ifadə edib.

Qazaxıstanlı ekspert bildirib: "Vaşinqtonda əldə olunmuş razılaşma beynəlxalq TRIPP (Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu) layihəsinin həyata keçirilməsinə hazırlıqla nəticələndi. Bu layihə həmçinin modernləşdirilmiş Zəngəzur dəhlizi kimi də tanınır. Layihənin məqsədi Azərbaycanla Naxçıvan arasında, daha sonra isə Türkiyə ilə birbaşa əlaqəni təmin etmək və Orta dəhlizi tamamlayan alternativ quru marşrutu yaratmaqdır".

Almat Toyekin qeyd edib ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Vaşinqton sənədini "tarixi əhəmiyyətli nailiyyət" adlandıran ilk şəxslərdən biri olub. "Sazişlərin imzalanmasından cəmi iki ay sonra 30 ildə mümkün görünməyən bir hadisə baş verdi: Azərbaycan Ermənistan üçün tranzit məhdudiyyətlərini aradan qaldırdı və yeni logistika sxemi ilə daşınan ilk yük Qazaxıstan taxılı oldu. Qazaxıstan taxılını daşıyan ilk qatar Ermənistana çatdı. On beş vaqondan ibarət pilot göndəriş təkcə yeni logistika marşrutu açmaqla kifayətlənmədi, həm də regionundakı bütün ölkələrin maraqlarını nəzərə alan nəqliyyat dəhlizinin yaranmasını qeyd etdi və Qazaxıstan bu sahədə əsas aktora çevrilir", -deyə ekspert vurğulayıb.

Qazaxıstanlı politoloq bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev Astanaya səfəri zamanı Ermənistana Qazaxıstan taxılının tədarükü üçün Azərbaycan ərazisindən tranzit dəhlizləri açmağa hazır olduğunu bildirib və bu, artıq həyata keçirilib. "Bu addım bir daha təsdiqləyir ki, Vaşinqtonda imzalanan sənəd nəzərəçarpacaq praktik nəticələrini verməyə başlayır. Ümid edirəm ki, Azərbaycan ilə Ermənistan arasında münasibətlər tədricən yaxşılaşacaq, sərhədlər açılacaq, diplomatik münasibətlər qurulacaq" -deyə Almat Toyekin qeyd edib.

# Ruben Vardanyanın məhkəməsində ifadələr dinlənilib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi noyabrın 20-də davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş şəxslər Anar Cəfərov və Rəşad Abbasov bildiriblər ki, Ağdam rayonunun Mərzili kəndi istiqamətində içərisində olduqları avtomobil düşmən tərəfindən basdırılmış minaya düşüb və partlayış nəticəsində müxtəlif xəsarətlər alıblar.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş Feyruz Musayev qeyd edib ki, buldozerlə Kəlbəcər rayonunun Zar kəndi yaxınlığında mühəndis işlərini görərkən texnika düşmən tərəfindən pulemyot silahlardan atəşə tutulub. Özü xəsarət almasa da, texnika yararsız hala düşüb.

Zərərçəkmiş şəxs İsrail Babayev ifadəsində bildirib ki, o, Kəlbəcər-Zod istiqamətində düşmən təxribatı nəticəsində yaralanıb.

Digər zərərçəkmiş şəxs Səfər Qasımov qeyd edib ki, Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılan atəşlər nəticəsində bir neçə nəfər həlak olub. Eyni zamanda o, Kamal Cavadlı, Nemət Bağırov, Əmrah Hacızadə və daha bir neçə nəfər müxtəlif növ bədən xəsarətləri alıb.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavab verən zərərçəkmiş Elgün Talıbov bildirib ki, Ağdərə rayonunun Çərəktar kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində o və Rövşən Mustafayev yaralanıb.

Zərərçəkmiş Müzamil Orucov ifadəsində qeyd edib ki, Kəlbəcər rayonu ərazisində düşmənin müxtəlif çaplı silahlardan açdığı atəşlər nəticəsində xəsarət alıb.

Zərərçəkmişlər Maarif Abbasov, Ramiq Həsənov və Rüstəm Rüstəmli ifadələrində bildiriblər ki, onlar Xocalı rayonunun Dağyurd kəndi ərazisində düşmənin təxribatı nəticəsində xəsarət alıblar. M.Abbasov diqqətə çatdırıb ki, düşmən tərəfindən atılan minaatan mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində o və Məhəmməd Kərimov yaralanıb. R.Həsənov isə artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət alıb. Yaralandığı ərazidə Sergey Heybətov həlak olub.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş şəxs Vüsal Abbasov qeyd edib ki, düşmənin Xankəndi şəhərindən açdığı snayper atəşi nəticəsində ayağından xəsarət alıb.

Zərərçəkmiş Fəqan Vəliyev ifadəsində bildirib ki, Ağdam rayonu ərazisində olarkən üzərində fərqlənmə nişanı olmasına baxmayaraq, içərisində olduğu tibbi yardım maşınının düşmən tərəfindən raket mərmisi ilə vurulması nəticəsində yaralanıb.

Əhliyar Muradov qeyd edib ki, Ağdam rayonunda meşəlik ərazidə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində yaralanıb.

Zərərçəkmiş Elyas Məmmədli bildirib ki, Xocalı rayonunun Xanabad kəndi ərazisində düşmən tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində o, Nazim Ağayev və Rəşmi Hümmətov müxtəlif növ bədən xəsarətləri alıblar.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Coşqun Nəsirov qeyd edib ki, Xocalı rayonunun Xanabad kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində o, Əhliyar Muradov və Elgün İsmayıllı yaralanıblar.

Zərərçəkmiş Eldar Hüseynov ifadəsində bildirib ki, Xocalıda Fərrux dağı istiqamətində düşmən tərəfindən atılmış artilleriya mərmisinin partlaması nəticəsində özü daxil olmaqla, bir neçə şəxs yaralanıb, daha bir neçə nəfər isə həlak olub.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Racib Şükürov isə qeyd edib ki, Xocalı rayonunun Xanabad kəndi ərazisində düşmən tərəfindən atılmış minaatan mərmilərinin yaxınlığına düşüb partlaması nəticəsində o, Xəqani Quliyev və Turan Həsənli xəsarətlər alıblar.

Məhkəmə prosesi sənədlərin və cinayət işi materiallarında olan digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası noyabrın 21-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# İşsizlikdən Sığorta Fondunun xərcləri gələn il 5,7 milyon manat artaraq 266,4 milyon manata çatacaq

## *Növbəti ildə 450 minə yaxın şəxs aktiv məşğulluq tədbirlərinə cəlb olunacaq*

İşsizlikdən Sığorta Fondu (İSF) müvafiq sığorta ödənişləri ilə yanaşı, aktiv məşğulluq tədbirlərinin genişləndirilməsində də önəmli rola malikdir.

Gələn il fondun gəlirlərinin bu ilə nisbətən **31,9 milyon manat (15,5 faiz)** çox olmaqla **238,3 milyon manat olması** nəzərdə tutulur.

İSF-nin xərclərinin isə cari illə müqayisədə **5,7 milyon manat (2,2 faiz)** çox olmaqla **266,4milyon manat olacağı** proqnozlaşdırılır.

Bu xərclərin işsizliyə görə sığorta ödənişləri və həmçinin

- özünüməşğulluq proqramının icrası,
- peşə hazırlığı, haqqı ödənilən ictimai işlərin və əlavə təhsilin təşkili,
- peşəyönümü məsləhət xidmətlərinin göstərilməsi,
- peşə standartlarının hazırlanması,
- sosial iş yerlərində əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi,
- sosial müəssisələrin yaradılması, məqsədli proqramların həyata keçirilməsi

və digər aktiv məşğulluq tədbirlərinə yönəldilməsi nəzərdə tutulur.

Ümumilikdə İSF-nin vəsaiti hesabına **2026-cı ildə 450 minə yaxın şəxsin aktiv məşğulluq tədbirlərinə cəlb olunması** işləri aparılacaq.

İşsiz və işaxtaran şəxslərin kiçik biznesə çıxışına imkan yaradan özünüməşğulluq proqramının icrasının uğurla davam etdirilməsində İSF gələn il də mühüm dəstək olacaq.

Növbəti ildə **15 min ailə üçün özünüməşğulluq proqramı üzrə kiçik təsərrüfatların** qurulması nəzərdə tutulur.

Onlardan 8 mini üçün fondun vəsaiti hesabına, qalan 7 mini üçün Dünya Bankı layihəsi çərçivəsində təsərrüfatlar yaradılacaq.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan bu dəfə də imzasının və sözünün sahibidir

## TRIPP-ın Şərqi Zəngəzur hissəsində işlərin yekunlaşmasına çox qalmayıb

**Cənubi Qafqazın geosiyasi mənzərəsi son illər köklü dəyişikliklərin astanasındadır, mərkəzində də Zəngəzur dəhlizi (TRIPP) dayanır. Bu strateji yol tarixi ədalətin bərpasını və kommunikasiya xətlərinin açılmasını təmin edir, həm də regionu Avrasiya nəqliyyat arteriyalarının mühüm qovşağına çevirir. Sürətlə aparılan infrastruktur layihələri göstərir ki, dəhliz çox yaxın zamanda istifadəyə veriləcək və Cənubi Qafqazın siyasi, iqtisadi və strateji xəritəsini kökündən dəyişəcək.**



Dəhlizin hüquqi əsası 2020-ci il 10 noyabr bəyanatının 9-cu bəndi ilə rəsmən qoyuldu. Bununla da regionda yeni nəqliyyat arteriyasının açılmasına dair beynəlxalq öhdəlik formalaşdı. Sonrakı mərhələdə ABŞ-nin şahidliyi ilə bu il avqustun 8-də Vaşinqtonda imzalanan saziş layihəni daha geniş çərçivəyə çıxararaq, onu beynəlxalq konsorsium modelinə (yəni layihənin regional və beynəlxalq tərəfdaşların iştirakı ilə həyata keçirilməsi) daxil etdi. Nəticədə Zəngəzur dəhlizi (TRIPP) üçün regional təşəbbüs olmaqdan çıxıb qlobal logistik zəncirlərin potensial bir halqası olmaq imkanı yarandı. Prezident İlham Əliyevin açıqlamalarına görə, Azərbaycan öz ərazisində zəruri infrastruktur işlərini 2026-cı ilin ortalarınadək tam başa çatdıracaq. Əgər paralel olaraq ABŞ şirkətləri və Ermənistan da prosesə eyni templə davam etsələr, Zəngəzur dəhlizi (TRIPP) 2028-ci ilin sonunadək tam funksional vəziyyətə gətiriləcək.

Dövlət başçısının qeyd etdiyi hədəflərə doğru gedən yol təbii ki, siyasi qərarlardan yox, həyata keçirilən konkret işlərdən keçir. Gəlin dəhliz boyunca tikintisi aparılan yolların, körpülərin, tunellərin və digər strateji obyektlərin bugünkü vəziyyətinə diqqət yetirək. Öncə Həkəri dəmiryol stansiyasından söz açaq. Zəngəzur dəhlizindəki (TRIPP) işlərin başlanğıc nöqtələrindən biri bu stansiyadır. Horadiz-Ağbənd xəttinin 67-ci kilometrində yerləşən bu obyekt dəhlizi əhatə edən 9 əsas stansiyadan biri olaraq strateji əhəmiyyət daşıyır. Hazırda stansiya ərazisində yolun üst quruluşu üzrə işlər demək olar ki, yekunlaşıb. Bu da yaxın gələcəkdə bölgədə yük və sərnişin daşımalarında yeni mərhələnin açılacağını göstərir. İşçi qatarları hazırda yalnız Həkəri stansiyasına qədər hərəkət edir, lakin növbəti hissələrdə yolun tam istifadəyə verilməsi üçün son hazırlıqlar intensiv şəkildə davam etdirilir.

Heç şübhəsiz, Zəngəzur dəhlizinin (TRIPP) ən strateji və mühüm hissələrindən biri Azərbaycan tərəfindən həyata keçirilən infrastruktur layihələridir. Hazırda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu və Horadiz-Ağbənd dəmir yolu layihələri sürətlə icra olunur. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mütəxəssisi Ziyəddin Həsənov deyir ki, yolların ümumi uzunluğu 123,6 kilometr təşkil edir və onların tamamlanması bölgədə nəqliyyat əlaqələrini yeni səviyyəyə qaldıracaq, yük və sərnişin daşımalarında ciddi imkanlar yaradacaq: "Bu yolun 78,5 kilometrlik hissəsi 6 hərəkət zolağından ibarətdir. 45,1 kilometrlik hissəsi isə 4 hərəkət zolağından ibarətdir. Hərəkət hissəsinin eni 14 və 21 metr, torpaq yatağının eni isə 21,5 və 29 metr təşkil edir. Avtomobil yolu üzərində 8 qovşaq inşa edilib. 44 alt, 5 üst keçid, 314 müxtəlif diametrli qurğu inşa edilib. 3 tunelin ümumi uzunluğu 12 kilometr təşkil edir. Bununla yanaşı, layihə üzrə 24 körpünün tikintisi nəzərdə tutulub. Bu körpülərdən 23-nün tikinti işləri tamamlanıb. Bir körpüdə isə işlər davam edir".

Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisi iki əsas mərhələyə bölünüb. Dəmir yolu xəttinin tikintisinin birinci mərhələsi Horadiz-Yuxarı Mərcanlı-Şükürbəyli-Soltanlı stansiyalarını əhatə edir. Hazırda dəmir yolu vasitəsilə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına yük daşımaları həyata keçirilir ki, bu da regionda iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verir. İkinci mərhələ isə Soltanlı-Qumlaq-Həkəri-Minçivan stansiyalarını özündə birləşdirir. Burada torpaq işləri və mühəndis qurğularının tikintisi davam etdirilir. Yolun relyefi və ərazinin hidrogeoloji xüsusiyyətləri nəzərə alınaraq, müxtəlif tipli körpülər və mühafizəedici bərkidici qurğular inşa olunub. Xüsusi diqqət çəkən məqam odur ki, bu mərhələdə Azərbaycanın ən uzun dəmir yolu körpüsü tikilib. Ümumi uzunluğu 771 metr və 23 aşırımı olan bu körpü həm mühəndislik nümunəsi, həm də dəhliz boyunca inkişafın simvolu kimi diqqət çəkir.

"Azərbaycan Dəmir Yolları" QSC-nin Tikinti Layihələrinin İdarə Olunması Departamentinin tikinti meneceri Cavad Əlövsətov layihənin üçüncü mərhələsi üzrə işlərin də fəal şəkildə davam etdiyini vurğulayaraq jurnalistlərə deyib ki, torpaq işləri və mühəndis qurğuları, o cümlədən 3 tunel və 1 qalereyanın tikintisi aparılır. Tunellərdə tikinti işlərinin 71 faizi artıq tamamlanıb. Dəmir yolu xəttinin 99-cu kilometrində yerləşən qalereya sahəsində ərazi dik və qaya süxurlarından ibarət olduğuna görə, süxur qopmalarının dəmir yolu xəttinə düşmə riski mövcuddur. Ona görə də məhz bu hissədə qalereya inşa edilib. Qalereyanın uzunluğu 108 metrdir, konstruksiyası isə monolit dəmir-betondan ibarətdir. Horadiz-Ağbənd dəmir yolu xəttinin ümumi uzunluğu 110,4 kilometr, yan yollarla birlikdə isə 140,6 kilometr təşkil edir. Hazırda 66 kilometr uzunluğunda yolüstü konstruksiyaların quraşdırılması başa çatdırılıb. Ümumilikdə layihə üzrə fiziki işlərin icra səviyyəsi 68 faiz təşkil edir.

Yeri gəlmişkən, qeyd edək ki, Horadiz-Ağbənd dəmir və avtomobil yolları Azərbaycanın Zəngəzur dəhlizi (TRIPP) konsepsiyasının reallaşmasında əsas infrastruktur dayaqları hesab olunur. Bu layihələr bir tərəfdən, Azərbaycanın Naxçıvanla quru əlaqəsini təmin edir, digər tərəfdən, Türkiyəyə və oradan Avropaya yeni nəqliyyat marşrutunun açılmasına imkan yaradır. Layihələr tam başa çatdıqdan sonra Orta dəhliz vasitəsilə illik təxminən 15 milyon ton əlavə yük daşınması mümkün olacaq. Bu, Azərbaycanın tranzit gəlirlərini artıracaq və ölkəni regionun əsas logistika və nəqliyyat qovşaqlarından birinə çevirəcək. Onu deməyi də unutmayaq ki, Zəngəzur dəhlizi (TRIPP) boyunca Azərbaycan paralel olaraq Araz koridoru adlanan alternativ nəqliyyat marşrutunu inşa edir. Bu marşrut çərçivəsində Ağbənd-Kelalə körpüsü tikilir və planlara görə, 2025-ci ilin sonuna qədər istifadəyə veriləcək. Körpü Bakı-Naxçıvan əlaqəsini təmin edən əlavə və etibarlı yol kimi mühüm strateji rol oynayacaq, regionda nəqliyyat imkanlarını daha da genişləndirəcək.

Bütün bu işlərin fonunda Ermənistan tərəfi hələ bir addım da atmayıb. Horadiz-Ağbənd xəttində aparılan işlər və reallaşdırılan infrastruktur layihələri isə bir daha göstərir ki, Zəngəzur dəhlizi (TRIPP) regionun iqtisadi və nəqliyyat xəritəsini kökündən dəyişdirəcək. Bu layihələr sadəcə yollardan və körpülərdən ibarət deyil. Onlar Azərbaycanın qətiyyətini, strateji baxışını və regiondakı rolunu simvolizə edir, üstəlik də Cənubi Qafqazda yeni inkişaf dövrünün başlandığına işarə vurur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın strateji valyuta ehtiyatları 16,2 faiz artıb

## Cari ilin 10 ayında ölkədə iqtisadi artımın əsas mənbəyi qeyri-neft-qaz sektoru olub

**Ölkənin strateji valyuta ehtiyatları cari ilin 10 ayının nəticəsi olaraq 16,2 faiz artıb və dövrün sonunda 82,5 milyard ABŞ dolları təşkil edib.**

Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov Milli Məclisin noyabrın 19-da keçirilən plenar iclasında "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib. AZƏRTAC-ın yaydığı xəbərə görə, T.Kazımov qeyd edib ki, bu göstərici tarixi maksimum olmaqla ölkəmizin iqtisadi gücünü və onun maliyyə dayanıqlılığını əks etdirir.

AMB sədri daha sonra bildirib ki, yeni qlobal reallıqların formalaşdığı şəraitdə cari ilin 10 ayında ölkə iqtisadiyyatında artım davam edib. Bu dövrdə iqtisadi artımın əsas mənbəyi qeyri-neft-qaz sektoru olub. 2025-ci ilin yanvar-oktyabr aylarında ümumi daxili məsulun real ifadədə 1,3 faiz artımını müşahidə etdik. O cümlədən qeyri-neft-qaz sektorunda isə 3,1 faiz artım qeyd alınıb.



T.Kazımovun sözlərinə görə, qeyri-neft-qaz sektorunda artım əsasən informasiya və rabitə, turizm və tikinti sahələrində olub. "Mərkəzi Bankın iqtisadi artımla proqnozu nikbindir. 2025-ci ilin sonuna ümumi daxili məhsulun 2,2 faiz olacağı, 2026-cı ilin sonuna isə 2 faiz olacağı proqnozlaşdırılır. Qeyri-neft-qaz ümumi daxili məhsula gəldikdə isə bu ilin sonunda 3,7 faiz, növbəti ildə isə 4,4 faiz olacağı proqnozlaşdırılır", - deyə Mərkəzi Bankın sədri əlavə edib.

# Qeyri-neft-qaz özəl sektorda hər gün 200-ə yaxın yeni iş yeri yaradılıb

**Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisin noyabrın 19-da keçirilən plenar iclasında "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.**

Nazir bildirib ki, 2019-cu il yanvarın 1-dən 2025-ci il noyabrın 1-dək orta təqvim günləri hesabı ilə qeyri-neft-qaz özəl sektorda 200-ə yaxın yeni iş yerinin yaradılması qeydə alınıb. "Bu, çox böyük iqtisadi nəticədir", - deyə Mikayıl Cabbarov vurğulayıb.

# Balıqçılıq sektorunun inkişafı ilə bağlı müzakirə aparılıb

**Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən Balıqçılıq və Akvakultura Mərkəzinin rəhbər heyəti iri pərakəndə satış şəbəkələrinin balıq məhsullarına məsul nümayəndələri ilə görüşüb.**

Görüşdə ölkəmizdə balıq məhsullarının istehlakının artırılması, yerli akvakulturanın inkişafı və istehsalçıların dəstəklənməsi istiqamətində mövcud vəziyyət və gələcək addımları müzakirə olunub.

Tədbir çərçivəsində yerli balıqçılıq və akvakultura təsərrüfatlarının inkişaf prioritetləri, balıq istehsalçılarına təqdim olunan dövlət dəstək mexanizmlərinin layihələri, yerli balıq məhsulları üçün ƏDV-dən azad olma, pərakəndə satış şəbəkələrində qida təhlükəsizliyi və gigiyena standartlarının təkmilləşdirilməsi, eləcə də yerli istehsalçılar ilə pərakəndə şəbəkələr arasında birbaşa əməkdaşlığın gücləndirilməsi istiqamətində geniş fikir mübadiləsi aparılıb.

Görüşün sonunda tərəflər ölkədə balıq istehlakının artırılması məqsədilə balıq məhsullarının istehsal və satış zəncirində qarşılıqlı əməkdaşlığın artırılması, yerli istehsalın dəstəklənməsi və ölkədə balıq məhsullarına tələbatın yüksəldilməsi üçün birgə fəaliyyətə hazır olduqlarını ifadə ediblər.

# Bu ilin 10 ayında "Könüllü DOST" proqramına 1300 şəxs cəlb edilib

**"Könüllü DOST" proqramına cari ilin yanvar-oktyabr ayları ərzində 40 min müraciət olub, 1300 şəxs proqrama cəlb olunub.**



Azərbaycanda könüllülük hərəkatının genişlənməsində mühüm rola malik olan bu proqramın "Gənc DOST", "Gümüşü DOST" (yaşlılar üçün), "Distant DOST", "Korporativ DOST", "İnklüziv DOST", "Digi-DOST", "TeleDOST" kimi altproqramları fəaliyyət göstərir.

Könüllülər DOST mərkəzlərində vətəndaşların qarşılanması, xidmət pəncərələrinə yönləndirilməsi, vətəndaş axınının, növbələrin idarə edilməsi, vətəndaşların məlumatlandırılması, e-sistemlərdən istifadə və s. üzrə köməklik göstərir.

Onlar dövlət sosial xidmətlərinin "bir pəncərə"dən vətəndaş məmnunluğu prinsipi ilə təqdim edilməsi işlərinə öz töhfələrini verirlər.

Proqram iştirakçıların vətəndaşlara xidmət sahəsində təcrübə, işgüzar vərdişlər əldə etmələrinə, fərdi inkişafı və karyera yolunda ilk uğurlu addımlarına dəstək olur.

# 10 ayın makroiqtisadi göstəriciləri müsbətdir

## Qeyri-neft-qaz sektoru üzrə əlavə dəyər istehsalında 3,1, əhalinin gəlirlərində 8,1 faiz artım müşahidə olunub

**Zəfərimizin 5 ilinin tamam olduğu 2025-ci ilin 10 ayı geridə qalıb. Həmçinin müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsinin 30 illiyi, bir sıra məlum səbəblərlə bağlı dövlətimizin beynəlxalq nüfuzunun daha da artması, eləcə də Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işlərinin və keçmiş məcburi köçkünlərin doğma yurdlarına dönmələrinin davam etməsi ilə yaddaqalan bu dövrdə ölkəmizin sosial-iqtisadi inkişafı da davam edib.**

Dövlət Statistika Komitəsinin (DSK) cari ilin yanvar-oktyabr aylarına olan məlumatına görə, ölkə üzrə 106,4 milyard manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 3,1 faiz artmış, neft-qaz sektorunda 2,1 faiz azalmışdır.

DSK-nın məlumatına görə, hesabat dövründə ÜDM-in 34 faizi sənaye, 10,5 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,7 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 6,5 faizi tikinti, 2,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə, 20,9 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,7 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə isə 10392,6 manat əlavə dəyər düşmüşdür.

10 ay ərzində ölkə üzrə 52,6 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Ümumilikdə bu dövrdə məhsul istehsalı sənayenin qeyri-neft-qaz sektorunda 4,9 faiz artmış, neft-qaz sektorunda 2,2 faiz azalmışdır. Sənaye məhsullarının 60,8 faizi mədənçıxarma, 32,8 faizi emal, 5,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə əmtəəlik neft hasilatı 4,6 faiz azalmış, əmtəəlik qaz hasilatı 1,7 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsulları istehsalı 2 dəfə, kompüter, elektron və optik məhsullarının istehsalı 98,4, ağacın emalı və ağacdan məmulatların istehsalı 57,1, toxuculuq sənayesi məhsullarının istehsalı 26,1, rezin və plastik kütlə məmulatlarının istehsalı 12,6, tütün məmulatlarının istehsalı 11,2, qida məhsullarının istehsalı 9,5, kimya sənayesi məhsullarının istehsalı 8,4, neft məhsullarının istehsalı 0,9 faiz artmışdır.

Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınmışdır - müvafiq olaraq 1 və 5,4 faiz.

Dövlət Statistika Komitəsininn açıqlamasına görə, cari ilin yanvar-oktyabr aylarında əsas kapitala 14 milyard 830 milyon manat vəsait yönəldilmişdir. Bu, 2024-cü ilin müvafiq dövründəkindən 1,3 faiz çoxdur. İstifadə olunmuş ümumi vəsaitin 50,6 faizi məhsul istehsalı və 32,8 faizi xidmət obyektlərinin, 16,6 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 77,5 faizi daxili sərmayələr olan vəsaitin 77,5 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir. Bu dövrdə neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 8,8 faiz azalmış, qeyri-neft-qaz sektoruna sərf edilən vəsaitin həcmi isə 6 faiz artmışdır.



Sosial sahəyə - cari ilin yanvar-sentyabr aylarında muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqına gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə üzrə bu göstərici 2024-cü ilin eyni dövrünə nisbətən 9,5 faiz artaraq 1087,7 manata çatmışdır. Əhalinin ümumi gəlirləri isə 10 ay ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,1 faiz artaraq 73,7 milyard manata çatmışdır.

DSK-nın hesabatında həmçinin bildirilir ki, 10 ayda pərakəndə ticarət şəbəkəsindən əhaliyə 52 milyard 615,7 milyon manatlıq məhsul satılmış, 11 milyard 867,1 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 3,8, əhaliyə göstərilmiş xidmətlərdən əldə olunan gəlir 9,2 faiz artmışdır.

Yanvar-oktyabr aylarının nəticələrinə əsasən, ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 3 milyard 120,5 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 71,6 faizindən əhali istifadə etmişdir. Bu aylar ərzində göstərilən xidmətlərin həcmi 8,5 faiz artmışdır. Əldə edilmiş gəlirlərin 83,3 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda isə göstəricilər belədir: ötən 10 ayda ölkə üzrə 198,3 milyon ton yük, 1,7 milyarddan çox sərnişin daşınmışdır ki, bu da 2024-cü ilin eyni dövründəkindən yük daşınması üzrə 2,3, sərnişin daşınması üzrə 5,3 faiz çoxdur.

İstehlak qiymətlərinə gəldikdə, hesabat dövründə ötən ilin eyni dövrü ilə müqayisədə istehlak qiymətləri 105,7, o cümlədən qida məhsulları, içki və tütün məmulatları üzrə 106,9, qeyri-qida malları üzrə 102,6, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 106,6 faiz olmuşdur.

***"Azərbaycan"***





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

## Qalib xalqın əbədi qüruru

**Böyük Zəfərin beşinci ilini başa vurduq. Hər keçən gün, ay, il bizi o böyük tarixi hadisədən - 2020-ci ilin noyabrında qazandığımız böyük qalibiyyətdən zaman olaraq uzaqlaşdırır. Amma sevincimiz, qürurumuz o vaxt necə idisə, elə də qalır.**

### Azadlıq harayını boğmaq üçün verilən amansız qərarlar...

Tarix boyu başı bəlalar çəkmiş, ayrı-ayrı illərdə torpaqları işğala məruz qalmış Azərbaycan ötən əsrin sonlarında yenidən faciələrlə üzləşdi. 1980-ci illərin sonlarında çökməkdə olan sovet hökuməti ittifaqa daxil olan bir sıra respublikaların müstəqillik tələblərini hakimiyyətə qarşı təhlükə hesab edirdi. Bunu 1990-cı ilin yanvarında SSRİ (Sovet Sosialist Respublikalar İttifaqı) rəhbirliyinin Azərbaycandan ucalan azadlıq harayını boğmaq üçün verdiyi amansız qərar da təsdiqlədi. Azərbaycan xalqını azadlıq sevdasından döndərmək, gözünün odunu alıb uzun illər olduğu kimi, müstəmləkə boyunduruğunda saxlamaq məqsədilə sovet hökuməti respublikamıza qoşun hissələri göndərdi. Dövrün müasir silahları, hərbi texnikası ilə gələn qoşun hissələri onlara verilmiş əmri qəddarlıqla yerinə yetirdilər. Silahsız, dinc, günahsız insanları atəşə tutdular, onları doğma şəhərinin - Bakının küçələrində, evlərində qanlarına qəltan etdilər.

Azərbaycanın Qarabağ bölgəsində xislətində işğalçılıq, təcavüzkarlıq olan ermənilərin azərbaycanlılara qarşı təxribatlar törətmələrinə, günahsız insanlara hücum etmələrinə də SSRİ rəhbərliyi respublikamızdan yüksələn azadlıq sədalarını susdurmaq üçün fürsət verdi. Erməni quldurlarına silah-sursat və digər yardım göstərildi. Sovet hökumətinin məqsədli siyasəti nəticəsində azərbaycanlılar qəsbkarların, təcavüzkarların qarşısında əliyalın qaldı.

Yaranmış vəziyyət erməniləri daha da azğınlaşdırdı. Münaqişə alovu nəinki bütün Qarabağı, həm də Şərqi Zəngəzuru bürüdü. O illərdə baş verən Birinci Qarabağ müharibəsində də Azərbaycanın mərd, qeyrətli övladları düşmənə qarşı rəşadətlə vuruşdular. Ancaq milli ordusu formalaşmamış, sovet hökuməti dağıldıqdan sonra bütün sahələrdə tənəzzüllə üzləşmiş Azərbaycan çətin duruma düşdü, himayədarlarının nəhəng kölgəsinə sığınaraq hücuma keçən, ən dəhşətli cinayətlərə əl atmaqdan çəkinməyən, amansızlıqla qətliamlar, qırğınlar, soyqırımları törədən erməni vandallarının qarşısını ala bilmədi. Nəticə isə ölkəmiz və xalqımız üçün çox ağır oldu. Minlərlə yurddaşımız şəhid oldu. Bir milyon soydaşımız yurdundan, elindən, isti ocağından qovularaq məcburi köçkün həyatı yaşadı. Torpaqlarımızın iyirmi faizi erməni qəsbkarları tərəfindən işğal edildi.

İşğal uzun çəkdi. Otuz ilə yaxın əzəli torpaqlarımızda düşmən at oynatdı. Bizim tarixi, abadlığı, təbiətinin gözəllikləri, təbii sərvətlərinin zənginliyi ilə fəxr etdiyimiz Qarabağ və Şərqi Zəngəzur düşmən üçün isə, sadəcə, zəbt etdiyi ərazilər idi. Onların olmayan tarixlərini qorumaq iddiaları özlərini ifşa etmək idi. Çünki o tarix ermənilərin bu yerlərə çox da uzaq olmayan keçmişdə gəldiklərini, əcdadlarının heç bir izinin olmadığını göstərirdi.

İşğalçı ermənilər o qədim abidələri uçurub dağıtmaqla, təhriflər etməklə Azərbaycan xalqının tarixinin izlərini silməyə çalışdılar. Qarabağda, Şərqi Zəngəzurda daş üstə daş qoymadılar, bütün tikililəri yerlə yeksan etdilər. Zəbt etdikləri ərazilərimizin təbiətinə qənim kəsildilər. Təbii sərvətlərimizi taladılar, daşıyıb apardılar. Eyni zamanda otuz ilə yaxın işğal müddətində Qarabağda, Şərqi Zəngəzurda səngərlər qazdılar, istehkamlar qurdular. Çünki Birinci Qarabağ müharibəsi zamanı işğal etdikləri Azərbaycan torpaqlarının onlara qalmayacağını, həmin ərazilərin əsl sahiblərinin bir gün ədaləti bərpa etmək üçün gələcəklərini yaxşı bilirdilər.



Ermənistan hökuməti ordusunun yenilməzliyi mifinə öz vətəndaşlarını belə inandıra bilməmişdi. Çünki babalarından Azərbaycan xalqının mərd olduğu qədər də qorxmaz, qəhrəman olduqları haqqında çox eşitmişdilər. Doğrudur, ibrət dərsi almamışdılar. Elə buna görə də uzun illər Azərbaycan dövlətinin münaqişəni müharibə ilə deyil, sülh yolu ilə həll etmək təkliflərini və səylərini dəyərləndirə bilmədilər. Rəsmi İrəvan sülh danışıqlarına başlamaq, Azərbaycan dövlətinin, xalqının sülhpərvərliyinə, humanistliyinə sığınmaq əvəzinə, yeni havadarlar axtardı.

Ermənistanın hərbi, siyasi rəhbərliyi 1994-cü il mayın 12-də imzaladığı atəşkəs sazişinə əməl etməyərək silahlı qüvvələrinə Azərbaycan Ordusunun mövqelərini, mülki vətəndaşların yaşayış yerlərini iriçaplı pulemyotlardan atəşə tutmaq barədə göstəriş verdi. Atəşkəs dövründə də şəhidlərimiz oldu.

Azərbaycanın mövqeyi bəlli idi. Dövlətimizin başçısı İlham Əliyev qətiyyətlə bəyan edirdi ki, biz ölkəmizin ərazisində ikinci erməni dövləti yaradılmasına imkan verməyəcəyik. Təəssüf ki, işğalçı Ermənistan və himayədarları bundan nəticə çıxarmadılar. Beynəlxalq hüququn tələblərinə əsasən, işğal altında saxladığı Azərbaycan torpaqlarını qeyd-şərtsiz geri qaytarmalı olan rəsmi İrəvan xarici himayədarları ilə əl-ələ verərək sülh danışıqlarını uzadır, işğalçılıq siyasətini davam etdirirdi.

### Tarix unudulmur

Qarabağın, Şərqi Zəngəzurun işğalda qaldığı müddətdə qəsbkar Ermənistan heç vaxt təxribatlardan, terror əməllərindən əl çəkmədi. 2020-ci il sentyabrın 27-də müharibə təcavüzkar Ermənistanın silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində başladı. Həmin gün xalqa müraciət edən Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev bildirdi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur".

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilərin, yaralananların olduğunu deyən Ali Baş Komandan xalqı əmin etdi ki, onların qanı yerdə qalmayacaq: "Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır".

O gün Ali Baş Komandan qismən səfərbərlik elan etdi. Və respublikamızın bütün ərazilərindən gənclər cəbhəyə yollanmaq, döyüşlərdə iştirak etmək üçün hərbi komissarlıqlara müraciət etdilər.

2020-ci il sentyabrın 27-si yalnız İkinci Qarabağ müharibəsinin ilk günü olmadı, eyni zamanda böyük Zəfərə doğru atılan ilk addım oldu. 44 gün davam edən İkinci Qarabağ müharibəsinin hər günü Azərbaycan Ordusunun şücaəti, qərhəmanlığı sayəsində tariximizə qələbələrlə yazıldı. Şiddətli döyüşlərin getdiyi vaxtda igid əsgər və zabitlərimiz düşmənin keçilməz saydığı istehkamlarını, səngərlərini aşaraq Qarabağ və Şərqi Zəngəzur ərazilərimizi azad etdilər.

Arzusunda olduğumuz, ümid bəslədiyimiz günlər gəldi. İndi azad Qarabağda və Şərqi Zəngəzurda həyat canlanmaqdadır. Azərbaycan dövlətinin Böyük qayıdışa dair proqramı çərçivəsində həyata keçirdiyi bərpa, tikinti işləri uğurla davam etdirilir. Azərbaycan xalqının qəlbinə vurulan yaralar sağalır. Tarix isə unudulmur.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Tarix yazan oğullar

## Vətən onun üçün müqəddəs idi



**Zaman hiss olunmadan ötüb keçir. Aylara, illərə çevrilən vaxt isə yavaş-yavaş tarixləşir. Ötən illər yaddaşlarda həm sevinc, həm kədər dolu hadisələri qoruyub saxlayır. Ayrı-ayrı zamanlarda baş vermiş elə tarixi hadisələr də var ki, üstündən illər ötüb keçsə də, onlar həmişə xatırlanır, heç vaxt unudulmur. Xalqımız həmişə belə tarixi hadisələrin özünü də, iştirakçılarını da zaman-zaman yada salır, onların qəhrəmanlıqlarından söz açır.**

Erməni işğalçılarının təxribatı nəticəsində başlayan həm Birinci, həm də İkinci Qarabağ müharibələrində xalqımız bir çox qanlı hadisənin şahidi oldu. Onun ağrı-acılarını yaşadı.

Erməni separatçıları 29 oktyabr 1991-ci ildə Xocalıda xalqımızın yaddaşından heç vaxt silinməyəcək daha bir qanlı hadisə törətmişdilər. Həmin gün AN-2 təyyarəsi 7 nəfər uçuş və texniki heyətlə Yevlax aeroportundan səmaya qalxmış və Xocalı aeroportunda yerə enmişdi. Heyət həmin gün görəcəkləri işləri tamamlayıb geriyə qayıtmalı idi. Təyyarə səmaya qalxanda Xocalı rayonunun Xanabad kəndi ərazisindən düşmən tərəfindən Alazan raketi ilə vurulmuşdur. Təyyarədəki 7 nəfərin hamısı faciəli şəkildə şəhid olmuşdur.

Həmin şəhidlərdən biri də Yevlax aeroportunun rabitə qovşağının mühəndisi Əhmədağa Mirzağa oğlu Baxşıyev idi. O, 1958-ci il aprelin 4-də Ucar rayonunun Əlikənd kəndində dünyaya göz açmışdı. Sonra ailəsi Yevlax rayonuna köçmüşdü. Orta təhsilini başa vurandan sonra Əhmədağa Baxşıyev Azərbaycan Politexnik İnistitutunun Rabitə və texnologiya fakültəsinə qəbul olmuşdu. Ali təhsilini uğurla bitirdikdən sonra Yevlax aeroportunun rabitə qovşağının mühəndisi kimi işə başlamışdı. 29 oktyabr 1991-ci ildə Xocalıda vəzifə borcunu yerinə yetirib qayıdarkən erməni vandallarının təyyarəni raket atəşinə tutması nəticəsində şəhid olmuşdu. 14 aprel 1992-ci ildə dövlət başçısının fərmanı ilə xidməti borcunu yerinə yetirərkən göstərdiyi igidliyə görə (ölümündən sonra) Azərbaycan Respublikasının fəxri fərmanı ilə təltif edilmişdir.

Şəhidin həyat yoldaşı Sahibə xanım o kədərli günlərdən söz açaraq deyir ki, Əhmədağa çox mərd, vətənpərvər insan idi. Ürəkli birisi idi, heç nədən çəkinməzdi. Vətən Əhmədağa üçün hər şeydən uca və müqəddəs idi, onu çox sevirdi. Qarabağ uğrunda müharibə başlayandan tez-tez cəbhə bölgəsində ezamiyyətlərdə olur, verilən tapşırıqları yerinə yetirirdi.

Sahibə xanım gündən-günə gücünü artıran dövlətimizin şəhid ailələrinə olan diqqət və qayğısından ürəkdolusu danışdı. Dedi ki, buna görə Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdardır. İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən söz açan şəhidin yoldaşı onu da dedi ki, Vətən torpaqlarının azadlığı uğrunda 44 gün davam edən bu haqq savaşı milli həmrəyliyimizin, birliyimizin rəmzinə çevrildi. Şanlı tariximizə qürur mənbəyimiz kimi həkk olundu. Bu Qələbə dövlətimizin qüdrətini, ordumuzun gücünü dünyaya nümayiş etdirdi. Qanlı döyüşlərdə qəhrəman zabit və əsgərlərimizin igidliyi ilə qazanılan Zəfərdən şəhidlərimizin nigaran ruhları rahatlıq tapdı. Xalqımız canlarını Vətənə fəda edən igid övladlarını heç zaman unutmur, onları daim dərin ehtiramla yad edir. İllər ötəcək, nəsillər dəyişəcək, lakin şəhidlərimizin xatirəsi ürəklərdə əbədi yaşayacaq, həmişə ehtiramla xatırlanacaq.

Atası Xocalı səmasında şəhid olanda Nurlanın altı yaşı var idi. O, ata sevgisinə, nəvazişinə həsrətlə böyüsə də, daim onunla fəxr edib öyündü. Atasının Vətən, torpaq sevgisindən qürur duya-duya özü də vətənpərvər bir oğlan kimi böyüdü. Atası onun ən böyük qəhrəmanı, həyat idealı oldu. Ömrü boyu ona layiq oğul olmağa çalışdı. Hər yerdə şəhid övladı, şəhid oğlu adını uca tutdu. Atasına layiq bir oğul kimi böyüdü. Heç vaxt kitablardan ayrılmadı, həmişə onlarla dostluq etdi. Daim hazırlığını artıraraq Milli Aviasiya Akademiyasının Hüquq fakültəsinə qəbul oldu. Ailə qurandan sonra bir oğlu dünyaya gəldi. Övladına atasının adını qoydu. İndi atasının qoxusunu, ətrini ondan alır.

Hazırda Nurlan bir zamanlar atasının çalışdığı Yevlax hava limanında işləyir. Onun igidliyini, cəsarətini xatırlayan Nurlan deyir ki, heç kəs anadan qəhrəman doğulmur. Dünyaya göz açan hər bir insan həyatda hər şeyi özü qazanır: rəğbəti də, sevgi-məhəbbəti də, qəhrəmanlığı, igidliyi də. Həyatda xalqın sevgisini qazananlar, el-oba gözündə ucalanlar ən xoşbəxt adamlardır. Mən də belə bir insanın oğlu olmağımla fəxr edirəm. Bu gün atamın yolunu qürurla, iftixarla davam etdirirəm.

Şəhidin qızı Nuranənin ata sevgisi doqquz yaşından sonra ata nisgilinə çevrilib. Şəhidliyin necə də uca və ali bir məqam olduğunu anlayan Nuranə deyir ki, uşaqlıqda hamımızın həyat yollarımıza çıraq tutan arzuları olur. Mənim ən böyük arzum atamın geri dönməsi idi. Təəssüf ki, bu arzum reallaşmır ki, reallaşmır. Bu qanlı hadisə baş verən günlərdə o vaxt atamla birlikdə şəhid olanlar haqqında mətbuatda bir məqalə çıxmışdı. Məqaləyə belə ad qoymuşdular: "Yeddi oğul istərəm". Mən hər gecə Uca Yaradanıma o yeddi oğulun geri dönməsi üçün dualar edərdim. Görünür Allah dualarımı qəbul etdi, mənə yeddi oğul verdi.

Hazırda yeddi oğul anası olan Nuranənin ilk övladı Vətən qarşısında övladlıq borcunu yerinə yetirir. Qalib ordumuzun sıralarında xidmət edir, qəhrəmanların, igidlərin cərgəsində addımlayır.

Şəhid Əhmədağa Baxşıyevin bacısı Rəqiyyə xanım deyir ki, qardaşım üçün Vətən çox əziz idi. Ona verilən tapşırığın dalınca yola düşməzdən əvvəl gəlib mənimlə sağollaşdı. Dedi ki, bacı, məzuniyyətə gedirəm. Sən demə, qardaşım onu yolundan edəcəyimi düşünüb məni aldadaraq Xocalıya gedəcəyini deməyib.

...Övladları ata ocağına yığılanda Minayə ana onlara plov dəmləyərmiş. Bir dəfə ana öz evində plov dəmləyir və oğlunun payını ayıraraq, onsuz plova əl uzada bilmərəm deyir. Payını götürüb gecə ilə oğlugilə yollanır. Lakin evdə olmadıqlarından plov əlində geri dönür. Səhər Əhmədağanın səsini eşidir.

-Ana, ay ana. Hardasan? Gəl görüşək, mən gedirəm.

Ana sevinclə:

- Ay oğul, hara tələsirsən, gəl, plov bişirmişəm. Tələsmə, qoy qızdırım ana-bala birlikdə yeyək, - deyərək evə keçir.

Elə bu zaman qapılarını döyən qonşulardan biri ondan xahiş edir ki, onun sıradan çıxmış televizorunu düzəltsin. Qonşunun televizorunu düzəltdikdən sonra saatına baxan Əhmədağa qonşudan xahiş edir ki, anama deyərsən mən getdim, gecikirəm. Plovu qayıdandan sonra yeyərik.

Əhmədağa aeroporta çatanda görür ki, artıq AN-2 təyyarəsi yenicə hərəkətə gəlib. Meydan boyu təyyarənin altı ilə qaçan Əhmədağanı görən yoldaşları nərdivan sallayıb onu yuxarı çəkirlər...

Rəqiyyə xanım arxada qalmış həmin illəri xatırlayaraq deyir ki, o vaxt ermənilər Xocalıya gedən yolları bağlamışdılar, şəhər mühasirədə idi. Düşmən Xocalını işğal etmək üçün bütün vasitələrdən istifadə edirdi. Yolları bağlamaqları bir tərəfə, tez-tez rabitə əlaqəsini də kəsirdilər. Qardaşımgil də tez-tez Xocalıya ezam olunurdular. O vaxt təyyarənin qara qutusundakı son səs yazısı qardaşımın idi. Deyirdi ki, biz Xocalı ilə rabitə əlaqəsini bərpa etdik. Təəssüf ki, özləri şəhid oldular.

2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə başa çatdı. 44 gün ərzində torpaqlarımız erməni işğalçılarından azad olundu. Rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğalçı Ermənistan ordusunu döyüş meydanında darmadağın etdi. Xalqımıza böyük Zəfər sevinci yaşatdı.

İndi vətənimizin şəhid övladlarının ruhu şaddır. Xalqımız torpaqlarının azadlığı uğrunda gedən Əhmədağa Baxşıyev kimi oğullarını heç vaxt unutmayacaq, həmişə ehtiramla xatırlayacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın xatirəsi anılıb

Bu gün Azərbaycan Respublikasının suverenliyində və ərazi bütövlüyünün qorunmasında, əsgərlərimizlə çiyin-çiyinə böyük qəhrəmanlıq göstərən, tibb xidməti baş leytenantı, Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın anadan olmasından 65 il ötür. Bu münasibətlə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının "Milli qəhrəmanlar unudulmur" silsiləsi çərçivəsində "İki andlı, iki zirvəli qəhrəman Gültəkin Əsgərova" adlı məlumat bülleteni hazırlanıb.




Kitabxanadan AZƏRTAC-a bildirilib ki, məlumat bülleteni Vətənimizin azadlığı və bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəmanlara dair ədəbiyyatı geniş oxucu kütləsi üçün, xüsusilə də gənclər arasında vətənpərvərliyi təbliğ etmək məqsədilə tərtib olunub.

Vəsaitdə "Döyüş yolu 20 Yanvar faciəsindən başlayan qəhrəman" ,"İki məzarı olan qadın qəhrəmanımız: "Deyirdi, güllələr yanımdan keçir, mənə dəymir...", "Adı əfsanəyə çevrilən xanımlar - üç milli qəhrəman" adlı bölmələr altında Gültəkin Əsgərovanın şərəfli ömür yolu, irsi və xatirəsi haqqında geniş məlumat təqdim edilir.

Kitabxana əməkdaşları tərəfindən hazırlanan materialda qəhrəman xanım haqqında qələmə alınan kitabların, dövri mətbuat nümunələrinin siyahısı yer alır. Məlumat bülletenində bu kitabların görüntüləri də sərgilənir.

"İki andlı, iki zirvəli qəhrəman Gültəkin Əsgərova" adlı məlumat bülleteni kitabxananın rəsmi saytında yerləşdirilib.

## Xocalıda "Haradasınız 13-lər?" kitabının təqdimatı olub

Noyabrın 18-də Xocalı rayonunun Əsgəran qəsəbəsində Xocalı faciəsinin qurbanlarına həsr olunmuş "Haradasınız 13-lər?" kitabının təqdimatı olub. Təqdimat mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları, şəhid ailələri və müharibə veteranları iştirak ediblər.



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə çıxış edən müəllif, jurnalist Səriyyə Müslümqızı kitab haqqında məlumat verib. Bildirib ki, kitab 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı zamanı erməni silahlı birləşmələri və sovet ordusunun 366-cı alayının iştirakı ilə əsir götürülən 13 gənc oğlanın acı həyat hekayəsindən və hələ də məlum olmayan talelərindən bəhs edir. O qanlı gecədə 13 gəncin arasında evin yeganə övladı da olub, bir evin 3 oğlu da.

Qeyd edilib ki, Xocalıda itkin düşən 13 nəfərdən 5-nin nəşi bu yaxınlarda tapılaraq dəfn edilib, digərlərinin taleyi isə bu günədək məlum deyil. Müəllif kitabda bu faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır.

13-lərin doğmaları, şahidlər də çıxışlarında o ağrılı günləri xatırlayıblar.

Qeyd edək ki, kitab Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə vəsaiti hesabına çap olunub. Azərbaycan və ingilis dillərində nəşr olunan kitabda müəllif dünyanı ədalət məhkəməsində doğru qərar verməyə çağırır. Tədbir iştirakçıları kitabın Xocalı həqiqətlərinin dünyaya çatdırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıblar.

**21 Noyabr Ümumdünya Salam Günüdür**

# Kiçik sözün böyük təsiri

## Bir salam ən böyük anlaşılmazlıqları həll edə bilər

Hər il noyabrın 21-də dünyanın 180-dən çox ölkəsində qeyd edilən Ümumdünya Salam Günü bəşəriyyətə sadə, amma dərin bir mesaj verir: sülhün bünövrəsi böyük bəyanatlar deyil, insanların bir-birinə "salam" deməsindən başlayır. Bu günün tarixi 1973-cü il Yom Kippur müharibəsindən sonra amerikalı qardaşlar Brayn və Maykl MakKormak tərəfindən sülh çağırışına dəstək kimi yaranıb. Onlar hesab edirdilər ki, diplomatiya savaşın alternatividir və ən kiçik jest belə qarşılıqlı anlaşmanı gücləndirə bilər. Gündəlik həyatımızda çox adi görünən salamlaşma mədəniyyəti, əslində, fərdləri yaxınlaşdıran, gərginlikləri azaldan və ünsiyyətə yol açan mühüm sosial körpüdür.



"Salam" sözü bir çox dildə qapalı qalan münasibət qapılarını açan ilk açardır. Azərbaycan cəmiyyətində salamlaşma həm də dərin mədəni köklərə malikdir. Türklərdə "selam", ərəblərdə "salam", iranlılarda "səlamat" deyilişi eyni kökdən gəlir və "əmin-amanlıq, təhlükəsizlik, xeyir-dua" mənalarını daşıyır. Ölkəmizdə böyüyə salam verilmədiyi zaman bu, təkcə ədəbsizlik kimi deyil, həm də qarşıdakının varlığını görməmək, ona hörmət göstərməmək kimi qiymətləndirilir. Yəni bir salam nəzakət qaydası olmaqla yanaşı, sosial harmoniyanın da vacib elementidir.

Müasir dövrdə texnologiyanın sürətli inkişafı insanların əlaqə qurmasını asanlaşdırsa da, yaxın ünsiyyətin azalmasına, salamlaşmanın formal bir ifadəyə çevrilməsinə səbəb olub. Bir çox halda mesajlarda göndərilən qısa "salam" yazısı, qarşılıqsız görünən emojilər və ya avtomatik cavablar insan münasibətlərindəki səmimiliyi əvəz etmir. Halbuki salamlaşma göz kontaktı, səs tonu və bədən dili ilə birlikdə insanlara "səni görürəm, səni qəbul edirəm və sən mənim üçün əhəmiyyətlisən" mesajını ötürür. Bu, psixologiyada "tanınma ehtiyacı" adlandırılan sosial və emosional tələbatın qarşılanmasında mühüm rol oynayır.

Ümumdünya Salam Gününün universal çağırışı məhz budur: insanlar müxtəlif dillərdə, fərqli cəmiyyətlərdə, hətta ziddiyyətli mövqelərdə olsalar belə qarşılıqlı hörmət və dialoqun başlaması üçün ilk addımı ata bilərlər. Sülh yalnız dövlət adamlarının imzaladığı sazişlərlə deyil, gündəlik həyatda mənəvi körpülərin qurulması ilə möhkəmlənir. İş yerində səhər bir-birini salamlayan həmkarlar arasında əməkdaşlıq daha rahat formalaşır. Məktəbdə müəllimin şagirdə, şagirdin müəllimə salam verməsi qarşılıqlı etimadı artırır. Hər dəfə bir insana salam verməklə onun gününə kiçik, amma müsbət təsir göstərmək mümkündür.

Bu günün mahiyyəti həm də sosial parçalanmanın qarşısını almaqdır. Dünyanın bir çox ölkəsində müxtəlif səbəblərlə siyasi, dini, etnik və ya sosial gərginliklər yaranır. İnsanlar bəzən bir-birini tanımadan, bir kəlmə kəsmədən düşmən kimi qəbul edirlər. Halbuki sosiologiya araşdırmaları göstərir ki, sadə salamlaşma belə insanlar arasında empatiyanı artırır, "biz" və "onlar" ayrımını zəiflədir.

"Salam" sözünün təsir dairəsi təkcə sosial münasibətlərlə məhdudlaşmır. Bu söz insan psixologiyasında sakitlik oyadır, beyində müsbət emosiyalarla bağlı olan sistemləri aktivləşdirir. Psixoloqlar qeyd edirlər ki, salamlaşarkən gülümsəmək və göz kontaktı yaratmaq sosial bağlılıq hormonları olan oksitosin və serotonin səviyyəsini yüksəldir. Bu hormonlar insanın həm özünün, həm də qarşı tərəfin emosional tonunu yüngülləşdirir, stressi azaldır. Buna görə də bir çox korporativ mədəniyyətdə işçilərin günə salamlaşma ilə başlaması xüsusi vurğulanır.

Ümumdünya Salam Günü həm də bir xatırlatmadır. Bəşəriyyətin ən böyük çağırışı qarşıdurmalar deyil, qarşılıqlı anlaşma yaratmaqdır. Mədəniyyətlərarası dialoq yalnız böyük konfranslarda deyil, gündəlik həyatda qurulur. Avtobusda yanımızda oturan insana, mağazada kassirə, liftdə qonşuya, məktəbdə şagirdə və ya müəllimə deyilən kiçik bir salam cəmiyyətdə bir-birinə hörmət mədəniyyətinin formalaşmasına xidmət edir.

Azərbaycan cəmiyyəti üçün salamlaşmanın xüsusi mənası var. Müharibələr yaşamış, torpaq itkisi və qayıdış sevinci ilə sınaqlardan keçmiş xalq olaraq biz sülhün və qarşılıqlı anlaşmanın dəyərini yaxşı bilirik. Ən çətin dönəmlərdə belə insanlar bir-birinə "salam-əleyküm" deyərək həm ümid, həm də birliyə inam ifadə ediblər. Bu gün isə həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə dialoq və əməkdaşlıq çağırışının güclənməsi salamlaşmanın sadə formasından başlayır. Bəzən bir insanın həyatında ən böyük dönüş nöqtəsi onunla mehriban salamlaşan bir yad adam ola bilir. Bir salam bəlkə də bütün dünyanı dəyişməz, amma salam verdiyin insanın dünyasını dəyişə bilər.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# DÇ-2026: Pley-off mərhələsinin püşkü atılıb

**DÇ-2026-nın seçmə mərhələsində pley-off oyunlarının püşkü atılıb.**

AZƏRTAC xəbər verir ki, İsveçrənin Sürix şəhərində keçirilən püşkatma mərasimində Türkiyə milli komandasının da rəqibi bəlli olub.

"Ay-ulduzlular" yarımfinalda Rumıniya seçməsi ilə qarşılaşacaq. Vinçenso Montellanın baş məşqçisi olduğu komanda yarımfinal görüşünü evdə keçirəcək. Türkiyə millisi rəqibini məğlub etsə, finalda Slovakiya - Kosovo cütünün qalibi ilə üz-üzə gələcək.

***Qitələrarası pley-off mərhələsi***

**Yarımfinal**
Yeni Kaledoniya - Yamayka
Boliviya - Surinam

**Final**
Konqo Demokratik Respublikası - Yeni Kaledoniya / Yamayka cütünün qalibi
İraq - Boliviya / Surinam cütünün qalibi

**Avropa zonası üzrə pley-off mərhələsi**




***A yolu***
**Yarımfinal**
1. İtaliya - Şimali İrlandiya
2. Uels - Bosniya və Herseqovina

**Final**
1-ci cütün qalibi - 2-ci cütün qalibi

***B yolu***
**Yarımfinal**
3. Ukrayna - İsveç
4. Polşa - Albaniya

**Final**
3-cü cütün qalibi - 4-cü cütün qalibi

***C yolu***
**Yarımfinal**
5. Türkiyə - Rumıniya
6. Slovakiya - Kosovo

**Final**
5-ci cütün qalibi - 6-cı cütün qalibi

***D yolu***
**Yarımfinal**
7. Danimarka - Şimali Makedoniya
8. Çexiya - İrlandiya

**Final**
7-ci cütün qalibi - 8-ci cütün qalibi

Pley-off mərhələsinin yarımfinal oyunları 2026-cı il martın 26-da, final görüşləri isə 31-də oynanılacaq. Yarımfinal və finallar bir matçdan ibarət olacaq, qaliblər dünya çempionatına vəsiqə qazanacaqlar. Final matçlarının ev sahibləri püşkatma ilə müəyyənləşəcək.

Qeyd edək ki, 48 ölkədən 42-si dünya çempionatına vəsiqə qazanıb. Son 6 iştirakçının adına məhz pley-off oyunlarından sonra aydınlıq gələcək.

# Dünya çempionatında Azərbaycanı 14 şahmatçı təmsil edəcək

**Qətərin paytaxtı Dohada şahmatın rapid və blits növləri üzrə dünya çempionatı keçiriləcək.**

AZƏRTAC Beynəlxalq Şahmat Federasiyasının (FIDE) rəsmi saytına istinadla xəbər verir ki, ilin son yarışında Azərbaycan təmsilçiləri də mübarizə aparacaqlar. Ölkəmiz mundialda 14 şahmatçı ilə təmsil olunacaq.

Kişilər arasında Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Eltac Səfərli, Rauf Məmmədov, Nicat Abasov, Məhəmməd Muradlı və Aydın Süleymanlı, qadınların mübarizəsində isə Günay Məmmədzadə, Gülnar Məmmədova, Xanım Balacayeva, Gövhər Beydullayeva, Ülviyyə Fətəliyeva, Zeynəb və Türkan Məmmədyarova bacıları qüvvələrini sınayacaqlar.



Dekabrın 25-30-da keçiriləcək turnirin ümumi mükafat fondu 1 milyon avrodan çoxdur.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


**BEYNƏLXALQ HƏYAT**

# ABŞ Rusiya-Ukrayna qarşıdurmasının nizamlanması üçün yeni plan təklif edib

## Dünya mediası: "Bu plan reallıqdan uzaqdır"

Rusiya-Ukrayna münaqişəsinin həlli üçün yeni RF-ABŞ planı qlobal mətbuatda böyük rezonans doğurub. Şərhçilər münaqişənin bütün tərəflərinin planın müddəalarına razı olub-olmayacağı və onun həyata keçirilməsindən kimin daha çox qazanacağı suallarına cavab axtarırlar.



"The New York Times" qəzeti yazır ki, ABŞ-Rusiya sülh planı Ukraynanı ərazisini güzəştə getməyə və hərbçilərinin sayını azaltmağa məcbur edəcək. Kiyevin iştirakı olmadan hazırlanmış 28 maddəlik təklif Kremlin müharibə boyunca irəli sürdüyü və Ukraynanın uzun müddətdir təslim olmağa bərabər hesab etdiyi maksimum tələbləri əks etdirir. Bu, Tramp administrasiyasının təxminən dördillik müharibəni həll etmək üçün dayanmış danışıqları canlandırmaq məqsədi güdən daha bir cəhdidir.

Lakin bəzi ukraynalı şərhçilər təklifi Rusiyanın Ukraynadan güzəştlər əldə etmək cəhdi kimi də qiymətləndirirlər. Çünki Prezident Volodimir Zelenskinin hökuməti yüksəksəviyyəli korrupsiya qalmaqalı ilə zəifləyib və bu fakt müttəfiqləri yardım göstərməkdən çəkindirə bilər. Moskvanın qüvvələri tükənmiş Ukrayna ordusuna qarşı qələbə qazandığı üçün Kiyev həm də döyüş meydanında artan təzyiq altındadır.

Böyük Britaniyanın "The Economist" nəşri Ukraynada müharibəni bitirmək üçün ABŞ-Rusiya təklifini dəhşətli adlandırıb. Bu tələblər real deyil. Ukraynalılar onların əksəriyyətini qəbuledilməz hesab edirlər. Ukrayna Silahlı qüvvələri bu yaxınlarda döyüş meydanında ciddi zərbələr alsa da, Rusiya 2022-ci ildən bəri əhəmiyyətli bir əməliyyat irəliləyişinə nail olmayıb. Hərbi təhlilçilər Ukraynanın vəziyyətinin o qədər ümidsiz olduğuna inanmırlar ki, Zelenski bu cür sərt şərtlərlə razılaşsın. Onların fikrincə, belə bir planın hazırlanmasında güdülən məqsədin Ukrayna liderini zəif bir vaxtda utandırmaqdan başqa nə olduğu bəlli deyil. Bundan başqa, Ukrayna Prezident Administrasiyasına yaxın mənbələr ehtiyatlanırlar ki, vaxt seçimi Amerikada bəzilərinin Ukraynanı həddindən artıq güzəştlərə sövq etmək üçün korrupsiya böhranından istifadə etmək istəklərini üzə çıxara bilər.

Amerikalı müttəfiqlər və Ukrayna rəsmiləri çərşənbə günü Tramp administrasiyasının sözügedən sülh təklifinin şərtlərini anlamağa çalışırlar. Çoxları bunun ABŞ-nin döyüşlərə son qoymaq üçün Rusiyanın tələblərinə təslim olmağa hazır olması anlamına gələ biləcəyindən ehtiyatlanırlar. Aydınlıq axtaran Avropa və Amerika rəsmiləri planın bir çox aspektlərinin, o cümlədən NATO-nun rolu və Ukraynanın Rusiyaya mümkün ərazi güzəştlərinin qəti olmadığını bildiriblər.

Londonda çıxan "The Daily Telegraph" yazır ki, Trampın Rusiya və Ukrayna üçün gizli planının bir əsas qüsuru var. Əsas sual bu təkliflərin reallıq sınağına tab gətirə biləcəyidir. Şübhələr üçün əsaslı səbəblər mövcuddur. Belə ki, hər iki tərəfin ərazini ələ keçirmək və ya geri almaq, hərbi balansı dəyişdirmək və gələcəkdə daha əlverişli şərtlərlə sülh razılaşmasına nail olmaq ümidi ilə müharibəni davam etdirməyin, danışıqlar masasına oturub rəqibə güzəştə getməkdən daha sərfəli bir seçim olduğu fikrindən əl çəkib-çəkmədiyi hələ də məlum deyil.

Bu arada Amerika media orqanları Ukraynadakı müharibəyə son qoymaq üçün ABŞ-nin yeni planının təfərrüatlarını dərc ediblər. Bu plan Kiyevdən Donbasın qalan hissəsini Rusiyaya verməsini, qoşun sayını yarıya endirməsini və rus dilini rəsmi dil kimi tanımasını tələb edəcək.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*


**"Bakı Sığorta" ASC-nin səhmdarlarının nəzərinə**

23 dekabr 2025-ci il saat 11:00-da Bakı şəhəri Nəsimi rayonu, Azadlıq prospekti, 120 ünvanında yerləşən "Bakı Sığorta" ASC-nin ("Ləğv prosesindədir") inzibati binasında cəmiyyətin Səhmdarlarının Ümumi Yığıncağının növbədənkənar iclası keçiriləcəkdir.

İclasın gündəliyi, əlavə məlumat, o cümlədən yığıncağın gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Bakı Sığorta" ASC-yə (Bakı şəhəri Nəsimi rayonu, Azadlıq prospekti, 120 ünvanında yerləşən inzibati binanın 6-cı mərtəbəsində), həmçinin 050 286-84-58 telefon nömrəsi vasitəsilə müraciət edilə bilər.

*"Bakı Sığorta" ASC*

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Afiq Abbas oğlu Məmmədovun adına verilmiş Bakı şəhəri Sabunçu rayonu, Ramana qəsəbəsi, ev 1, mənzil 41 ünvanına aid sənədlər itdiyi üçün etibarsız sayılır.

Naxçıvan şəhər 3 saylı tam orta məktəb tərəfindən İbrahim Vasif oğlu Zeynalovun adına verilmiş Attestat itdiyi üçün etibarsız sayılır.

**ALLAH RƏHMƏT ELƏSİN!**

TƏBİB-in Hemodializ komissiyasının üzvləri Kliniki Tibbi Mərkəzin direktoru Könül Ələkbərova anası

**GÜLZAR ƏLƏKBƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4071**
**Sifariş 2346**

**Qiyməti 60 qəpik**